# BAKI UNİVERSİTETİNİN
# XƏBƏRLƏRİ

# ВЕСТНИК
## БАКИНСКОГО УНИВЕРСИТЕТА

# NEWS
## OF BAKU UNIVERSITY

**ISSN 1609-0586**

**SOSİAL-SİYASİ**
***elmlər seriyası***
***серия***
**СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИХ НАУК**
***series of***
**SOCIAL-POLITICAL SCIENCES**

***№3.2017***

*Baş redaksiya heyəti:*
**Məhərrəmov A.M.** (baş redaktor), **Kazımzadə A.H.** (baş redaktorun müavini), **Əliyeva İ.N., Məmmədov Y.Ə., Əliyev İ.Ə., Əfəndiyev V.Ə., Xələfov A.A., Məmmədəliyev V.M., Paşayeva N.A., Quliyeva Ş.T.** (məsul katib).

*Seriyanın redaksiya heyəti:*
**Məlikova M.F.** (redaktor), **Vahidov F.Q.** (redaktorun müavini), **Hacıyev Z.C.** (məsul katib), **Abbasbəyli A.N., Əhmədov Ə.C., Əliyev B.H., Əlizadə H.Ə., İsmayılov R.R., Məhərrəmov A.M., Qasımov A.M., Məmmədov R.F., Rüstəmov İ.Ə., Səməndərov F.Y., Əliyev Ə.İ., Həsənalıyev Z.M., Əliyeva K.R.**

B.310.30.IV.1999

*© «Bakı Universiteti Nəşriyyatı», 2017*

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2017*

## HÜQUQ

**UOT 349.3; 364.3-3**

# SOSİAL XİDMƏT VƏ DÖVLƏTİN SOSİAL FUNKSİYASININ QARŞILIQLI ƏLAQƏSİNİN NƏZƏRİ VƏ PRAKTİKİ ASPEKTLƏRİ

**M.N.ƏLİYEV**
***Bakı Dövlət Universiteti***
***aliyev.mayis@mail.ru***

*Bu məqalədə sosial xidmət və dövlətin sosial funksiyasının qarşılıqlı əlaqəsinin nəzəri aspektləri araşdırılmışdır. Məqalədə sosial xidmət və dövlətin sosial funksiyasının qarşılıqlı əlaqəsi dövlətin özünün sosial siyasətinin reallaşdırılması yolu ilə vətəndaşların sosial müdafiəsini, o cümlədən onlara sosial xidmət göstərilməsini təmin etməsi baxımından əsaslandırılır. Müəllifin fikrincə müasir dövrdə sosial xidmətin dövlətinin sosial funksiyası ilə daha etibarlı qarşılıqlı əlaqəsi bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan səmərəli sosial xidmət sisteminin yaradılması ilə bağlıdır.*

**Açar sözlər:** dövlət, hüquq, norma, funksiya, fəaliyyət, qarşılıqlı əlaqə

Dövlət və sosial təminat bir-birləri ilə mütləq əlaqəsi olan və bir-birindən ayrı təsəvvür edilə bilinməyəcək iki vasitədir. Sosial təminat əsl bir dövlət vəzifəsidir. Çünki, sosial təminat ehtiyacı ilə qarşı-qarşıya olan insanların çoxu bu ehtiyaclarını qarşılayacaq imkanlara sahib deyildirlər. sosial təminat ehtiyacı hiss etməyən heç bir cəmiyyət ola bilməz. Bu ehtiyacı isə ancaq dövlət müdaxiləsi ilə ədalətli şəkildə təmin etmək olar. Sosial təminat bir dövlət vəzifəsi olsa da bu hüdudları bəlli olmayan sonsuz tələb hüququ verən bir vəzifə deyildir. Dövlət beynəlxalq sənədlərdə də göstərildiyi kimi sosial təminatla bağlı cəmiyyətə imkanlarının çatdığı qədər zəmanət verə bilər (4, 25-30).

Ümumi rifah dövlətini formalaşdırmaq üçün onun bütün funksiyaları, o cümlədən, ilk növbədə, sosial funksiyası həyata keçirilməlidir. O dövlət sosial statuslu hesab edilir ki, onun daxili funksiyaları içərisində sosial funksiya böyük əhəmiyyətə malik olsun və dövlətin fəaliyyətində olduqca əhəmiyyətli rol oynasın. Buna görə də hüquq elmində və praktikada dövlətin digər funksiyaları içərisində sosial funksiyanın yeri ətraflı tədqiq olunmuş və sosial funksiyanın roluna, onun əsas konsepsiyalarına diqqət yetirilmişdir. Lakin bəzi hüquqşünaslar sosial funksiyanı heç də dövlətin daxili funksiyasının bir növü kimi qiymətləndirməmişlər (13).

Sosial funksiyanın həyata keçirilməsi müxtəlif meyarlara əsaslanır: əhalinin müxtəlif kateqoriyalara bölünməsinə əsasən sosial qanunvericiliyin yaradılması və inkişaf səviyyəsi, insanın sosial-iqtisadi hüquqları və onların təmin edilməsində dövlətin rolu, sosial funksiyanın dövlətin funksiyaları sistemində yeri və rolu (12, 61).

Dövlətin sosial funksiyası azad, hüquqi dövlət istiqamətində birgə yaşayış qaydalarını və layiqli həyat səviyyəsini ifadə edir. Dövlətin sosial funksiyası nə mütləq ümumrifah dövlət formasını, nə totalitar sosialist dövlətini, nə də ki milli sosialist tipini nəzərdə tutmur. Dövlətin sosial funksiyasının tətbiqi ilə hüquq və azadlıqlara təminat verilir, bərabərlik bərqərar olunur və hüquq münasibətləri üçün zəruri mühit formalaşdırılır (2, 222-231).

Dövlətin əsas inkişafı birbaşa olaraq onun sosial funksiyalarından asılıdır. Dövlətin hüquqi, iqtisadi, hakimiyyət funksiyaları stabil şəkil alır və praktiki olaraq dəyişmirlərsə, sosial funksiyalar isə artan istiqamətdə inkişaf edir, bundan əlavə, üstünlük təşkil edən funksiyalara çevrilirlər. Dövlətlərdə sosial funksiyaların xüsusi növlərinin yaranması nəinki cəmiyyətin sosial ehtiyaclarının təmin olunması üçün yeni vasitə oldu, eyni zamanda müvafiq ehtiyacların kəskin və sürətli şəkildə azalmasına da səbəb oldu (13).

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra dövlətin sosial funksiyası onun fəaliyyətinin əsasını təşkil etmişdir. Burada başlıca məqsəd cəmiyyətin bütün üzvlərinə və ayrı-ayrı kateqoriya şəxslərə tətbiq olunan sosial qanunvericiliyin təkmilləşdirilməsi, mütərəqqi və hamılıqla qəbul olunmuş beynəlxalq standartlara uyğunlaşdırılması və bu yolla bütün insanların sosial-iqtisadi hüquqlarının təmin edilməsi idi. Konstitusiyamızın “Sosial təminat hüququ” adlı 38-ci maddəsinin 3-cü bəndində qeyd olunur ki: “hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyinə görə və ya qanunda nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir” (1).

Hər bir insan bütün həyatı boyunca müxtəlif sosial risklərlə qarşılaşır ki, bu da birbaşa onun sağlamlığına və əmək qabiliyyətinə, əsas dolanışıq mənbəyi olan əmək haqqının itirilməsinə və ya əlavə gəlir itkisinə səbəb olur. Sosial risk - bu ehtimal olunan hadisə şəxsdə əmək qabiliyyətinin itirilməsi ilə müşahidə olunan maliyyə itkisinə səbəb olur ki, bu da nəticədə ailənin saxlanılmasına, uşaqlar və digər əmək qabiliyyəti olmayan ailə üzvlərinə qulluqla bağlı əlavə xərclərə, tibbi və sosial xidmətlərlə bağlı təlabatlara mənfi təsir göstərir. Ortaya çıxan əlavə xərclər və ya gəlir itkisini hansı ki, fərdlərin təkbaşına öhdəsindən gələ bilməsi mümkün deyil sosial təminat aradan qaldırır (10, 10).

Sosial təminat müxtəlif vasitələrlə həyata keçirilir. Lakin sosial təminatın müasir vasitələrinə əsasən aşağıdakılar aiddir: sosial sığortalar, sosial yardımlar və sosial xidmətlər. Dövlət sosial təminat sistemini elə qurmalıdır ki, yalnız cəmiyyətin bütün üzvlərinin həyati risklərdən müdafiə edilməsi ilə kifayətlənməyib, sosial yardım və zəruri sosial xidmətlərin göstərilməsini özündə ehtiva etsin (3, 66).

Sosial təminat hüququnun xüsusi hissəsinin strukturunda müstəqil institutların kifayət qədər sabit kompleksi formalaşmışdır. Onlardan pensiya təminatı institutu, sosial müavinətlər və kompensasiya ödəmələri institutu, habelə tibbi yardım və müalicə institutu kompleks xarakter daşıyır və bir neçə yarım-institutlardan ibarətdir. Göstərmək lazımdır ki, göstərilən institutların hər biri hüquq normalarının ictimai münasibətlərin həmin növünün tam şəkildə tənzimlənməsini təmin edən xüsusi normalar məcmusuna malikdir. Bu, tam olaraq sosial xidmət institutuna da aiddir. Lakin hüquq ədəbiyyatında ifadə olunmuş belə bir fikirlə razılaşmaq lazımdır ki, sosial xidmət sosial təminat hüququnun ən mürəkkəb kompleks institutudur (6, 86). Bu məsələyə dair hüquq ədəbiyyatında sosial xidmət institutunun fərqli daxili strukturu təklif olunur. Belə ki, Y.Y.Maçulskayanın fikrincə, sosial xidmət dövlət sosial yardımı institutunun yarıminstitutudur (10, 230-255). M.L.Zaxarov və E.Q.Tuçkova belə hesab edirlər ki, sosial xidmət institutu təminatın növlərinə görə fərqləndirilən bir çox yarıminstitutlardan - tam və yarımstasionar sosial xidmətdən, evdə sosial yardımdan, təcili sosial və məsləhət yardımından, əlillərin peşə təlimindən və işə düzəldilməsindən, əlillərin hərəkət vasitələri və nəqliyyat vasitələri ilə təminatından, protez-ortopedik yardımdan, uşaqların uşaq müəssisələrində saxlanmasından, sosial təminat sistemi üzrə güzəştlərdən ibarətdir (6, 86). D.Q.İosifidinin fikrincə, sosial xidmət sosial təminat hüququnun başlıca institutu olub, bir çox yarım institutlardan ibarətdir (7, 67). K.S.Batıqin isə sosial xidməti sosial təminat hüququnun müstəqil yarımsahəsi kimi göstərir (5, 135).

Vətəndaşın sosial təminatın konkret növünü, o cümlədən sosial xidmət növünü almaq hüququ və onun sosial təminat və sosial xidmət orqanı tərəfindən qanunla müəyyən edilmiş qaydada həyata keçirilməsi sosial təminat münasibətlərinin iştirakçılarının əsas davranış qaydasını təşkil edir.

Sosial xidmət institutu başlıca olaraq sosial alimentləşdirmə metodundan istifadə edir, çünki onun mənbəyini əsasən dövlət vəsaitləri təşkil edir. Sosial alimentarlıq cəmiyyətin mövcud inkişaf mərhələsində təşəkkül tapmış həyat standartının normal səviyyəsi həcmində müvafiq büdcə vəsaiti hesabına müqavilə prinsipləri tətbiq olunmadan pulsuz sosial xidmətin təqdim olunması üsulu kimi izah edilə bilər. Sosial təminat hüququna münasibətdə alimentarlıqla bağlı fərqli mövqelərin mövcudluğuna baxmayaraq, bütün alimlər bu və ya digər şəkildə onun ilkin xüsusiyyətini - şəxslərin spesifik kontingentinə dolanışıq üçün vəsaitin ailə münasibətləri çərçivəsində deyil, bir qayda olaraq dövlət tərəfindən və qarşılıqlı əsas olmadan verilməsinin xüsusi üsulunu qeyd edirlər.

Sosial alimentasiya problemi müasir dövrdə də aktuallığını saxlamaqdadır. Y.Y.Maçulskayanın fikrincə, bu gün sosial alimentasiyaya sosial təyinatlı mərkəzləşdirilmiş büdcədənkənar fondların, yaxud büdcə vəsaitinin bir hissəsi hesabına əldə edən şəxslər üçün pulsuz, əvəzsiz əsasda, lakin əmək (sığorta) stajı nəzərə alınmaqla normalaşdırılmış qaydada, yaxud əvəzli və qeyri-müqavilə əsasında maddi təminatın və xidmətlərin verilməsi üsulu kimi anlayış

vermək olar (8, 25). Hüquq sahəsi üçün spesifik olan digər tənzimləmə üsullarını izah edərkən Y.Y.Maçulskaya haqlı olaraq göstərir ki, hüquqa malik tərəf qismində həmişə fiziki şəxs (ailə), vəzifə daşıyan şəxs qismində isə dövlət orqanı çıxış edir. Bir neçə mümkün təminat növü arasında seçim hüququ yalnız fiziki şəxsə verilmişdir; tərəflərin hüquq və vəzifələri qanunla müəyyən edilmişdir və onların razılaşması əsasında dəyişdirilə bilməz; sosial təminat üzrə hüquq münasibətlərinin yaranması, dəyişdirilməsi və xitamı mürəkkəb hüquqi tərkiblə şərtlənir. Bu münasibətlərin subyektləri olan fiziki şəxslərin barəsində yalnız hüquqməhdudlaşdırıcı sanksiyalar tətbiq olunur. Pozulmuş hüququn müdafiəsinin inzibati və məhkəmə qaydası tətbiq olunur. Subyektlərin hüquq və vəzifələrinin müəyyən edilməsinin mərkəzləşdirilmiş və lokal üsulları uzlaşdırılır (8, 27).

E.Q.Tuçkova və M.L.Zaxarov bu yanaşmanı tənqid edərək göstərirlər ki, Y.Y.Maçulskayanın mövqeyi sosial təminat hüququnun metodunun «sosial alimentasiya» metodu kimi müəyyən edilməsi hissəsində milli sosial təminat sisteminin işçinin və onun ailəsinin sosial təminatında sığorta başlanğıclarının gücləndirilməsinə əsaslanan müasir inkişaf meyli ilə uzlaşmır. Hüquqi tənzimetmənin bu xüsusiyyəti müəyyən dərəcədə cəmiyyətin üzvü kimi insanın dövlət sosial təminatı üçün xarakterik hesab oluna bilsə də, sosial təminat hüququnun predmetinə daxil olan münasibətlərin yalnız bir hissəsini əhatə edir (6, 119).

Sosial xidmət üzrə hüquq münasibətləri də özlərinin müxtəlifliyi ilə fərqlənir: evdə pulsuz, yaxud qismən ödəniş şərtilə sosial xidmət; sosial müdafiə müəssisələrində saxlama; əlillərin peşə təlimi və işə düzəldilməsi; əlillərin nəqliyyat vasitələri ilə təmin edilməsi; protezləşdirmə və s.

Hüquqi faktlar hüquq münasibətlərinin yaranmasının, dəyişməsinin, yaxud xitamının bağlı olduğu obyektiv hallardır (hadisələr və hərəkərlərdir). Qanunvericilik hüquq münasibətlərinin yaranmasını bir sıra hüquqi faktların meydana çıxması ilə əlaqələndirdikdə söhbət mürəkkəb hüquqi tərkibdən gedir. Bir qayda olaraq, sosial təminat üzrə hüquq münasibətlərinin əksəriyyəti mürəkkəb hüquqi tərkiblərdən yaranır. Bu isə onu ifadə edir ki, tərkibin zəruri faktlarından heç olmasa birinin olmaması hüquq münasibətinin yaranmasını, dəyişməsini, yaxud xitamını doğurmur. Bununla yanaşı, tərkibi əmələ gətirən hallar fərqli rol oynayırlar. Onların arasında müvafiq münasibətlərin hüquqi tənzimi zərurətini doğurmuş hüquqi fakt, habelə hüquqi əhəmiyyətli hallar və ilkin şərtlər fərqləndirilməlidir. Məsələn, stasionar müəssisədə sosial xidmət üzrə hüquq münasibətinin yaranmasını şərtləndirən hüquq tərkibində hüquqi fakt qismində şəxsin əlil hesab olunması (pensiya yaşına çatması); özünəxidmət qabiliyyətini tam, yaxud qismən itirməsi; xidmət göstərilməsi üçün yazılı müraciət; sosial müdafiə orqanının qərarı çıxış edir.

Hüquqi faktların spesifikliyi həm də hüquq münasibətlərinin qüvvədə olma müddətini müəyyən edir. Sosial xidmət üzrə hüquq münasibətlərini qüvvədə olma müddətinə görə üç qrupa ayırmaq olar:

1) vəzifələrin bir dəfə icrası ilə xitam olunan hüquq münasibətləri;

2) zamana görə qüvvəsinin mütləq müddəti müəyyən edilmiş hüquq münasibətləri;

3) zamana görə qüvvəsinin nisbətən qeyri-müəyyən olduğu hüquq münasibətləri.

Sosial xidmət üzrə hüquq münasibətlərinin əksəriyyəti özünün hüquqi təbiəti etibarilə qeyri-müqavilə xarakterli sosial öhdəlik hüquq münasibətləridir.

Onlar özlərinin dəqiq hüquqi tənzimi ilə fərqlənir, çünki subyektlərinin bütün vəzifələri qanunla müəyyən olunmuşdur və tərəflərin razılaşması üzrə dəyişdirilə bilməz. Hətta qismən ödəniş şərtilə və ya müəyyən edilmiş xidmətlər siyahısından kənar stasionar müəssisələrdə xidmət üzrə hüquq münasibətlərinin rəsmiləşdirilməsinin müqavilə formasının tətbiqi hallarında belə müqavilə azadlığının və yol verilən mülahizə ölçüsünün hədləri qanunla dəqiq müəyyən olunur (9, 91).

Nəzərdən keçirilən hüquq münasibətlərində tərəflər bərabərhüquqludur. Onlarda hakimiyyət-tabeçilik elementi yoxdur, hərçənd subyektlərdən biri qismində dövlət orqanı çıxış edir.

Sosial xidmət üzrə hüquq münasibətləri onları sosial təminat üzrə digər hüquq münasibətlərindən fərqləndirən özünəməxsus xüsusiyyətlərə malikdir. Qeyd olunmalıdır ki, bu münasibətlər üçün subyektlərin xüsusi dairəsi xarakterikdir.

Hüquq münasibətlərinin digər qruplarında belə subyektlər qismində, başlıca olaraq, pensiya yaşına çatmış şəxslər, əlillər, uşaqlar, işçiz hesab edilmiş şəxslər, əmək qabiliyyətini müvəqqəti itirənlər çıxış etdikləri halda, sosial xidmət üzrə münasibətlərdə subyektlərin daha geniş dairəsi mövcuddur və o, həm də ahılları, qaçqınları, məcburi köçkünləri, müəyyən yaşayış yeri olmayan şəxsləri, ailə zorakılığından zərər çəkmiş şəxsləri də əhatə edir.

Sosial xidmət üzrə hüquq münasibətlərinin yaranmasının əsası qismində «çətin həyat vəziyyəti» (yəni sosial risklər və sosial hallar) çıxış edir. Çətin həyati vəziyyət dedikdə, şəxsin həyat fəaliyyətinin obyektiv surətdə elə pozulması başa düşülür ki, bu zaman o, müstəqil olaraq onu aradan qaldırmaq imkanına malik olmur.

Sosial təminat hüququndakı digər hüquq münasibətləri kimi, sosial xidmət üzrə hüquq münasibətləri də mexaniki surətdə yaranmır, şəxsin iradəsinin ifadəsi və dövlət sosial müdafiə orqanının qərarı zəruridir. Şəxsin iradəsinin ifadəsinin mühüm hüquqi fakt təşkil etməsi qanunvericilikdə də təsdiqlənir. Sosial xidmət verilərkən könüllülük hüquqi prinsipi ilə yanaşı, ünvanlılıq prinsipi də həyata keçirilir. Buna görə də əhalinin sosial müdafiəsi orqanları hər bir müraciət etmiş şəxsin ehtiyacının mövcudluğunu, yaxud onun çətin həyat vəziyyətinə düşməsini təsdiqləyən halları yoxladıqdan sonra onun barəsində konkret qərar qəbul etməlidir. Prinsipcə sosial yardımın göstərilməsi ehtiyacı olan şəxsin çətin vəziyyətə düşməsində təqsirli olub-olmamasından, sonradan xəzinə vəsaitlərindən yardım istəyə bilmək üçün əvvəllər büdcəyə vergi ödəyib-ödəməməsindən asılı deyildir.

Sosial xidmət üzrə hüquq münasibətinin subyektləri qismində bir tərəfdən ona ehtiyacı olan fiziki şəxs, digər tərəfdən isə sosial xidmət müəssisəsi çıxış edirlər. Bu zaman sosial xidmət bütün fiziki şəxslərə göstərilir.

Qərb ölkələrinin iqtisadi inkişafını müşayiət edən sosial xidmət sisteminin genişlənməsi üç istiqamətdə həyata keçirilmişdir:

Birincisi, sosial xidmətin təqdim edilməsi risklərinin genişlənməsi. Belə ki, sosial xidmət sistemi əvvəlcə yalnız müəyyən sosial risklərdən müdafiəni əhatə etsə də sonralar öz tərkibinə onların geniş dairəsini daxil etməyə başlamışdır.

İkincisi, sosial müdafiə olunan şəxslərin tərkibinin genişlənməsi. Belə ki, sosial xidmət sistemi əvvəlcə yalnız muzdlu işçiləri əhatə edirdi və yalnız tədricən müdafiəyə ehtiyacı olan digər şəxslər qruplarını (məsələn, sənətkarlara, işləməyənlərin müəyyən təbəqələri, reabilitasiya mərhələsində olanlara, sosial yardımdan istifadə edənləri) əhatə etməyə başlamışdır.

Üçüncüsü, təqdim edilən sosial xidmət növlərinin kəmiyyətinin çoxalması və səviyyəsinin yüksəlməsi. Belə ki, göstərilən xidmətlərin sayı əvvəllər məhdud olsa da dövlətin iqtisadi potensialının artması ilə tədricən göstərilən xidmətlərin səviyyəsinin yüksəlməsi də mümkün olmuşdur.

Sosial xidmət sisteminin ayrı-ayrı sahələrinin konkret olaraq formalaşması ilə əlaqədar göstərmək olar ki, hər bir ölkənin bazar iqtisadiyyatı ilə uzlaşan alternativ imkanlar mövcuddur. Həmin imkanlar özündə əsas etibarilə sosial xidmətin təşkil edilməsi, sosial müdafiə olunmalı olan şəxslərin dairəsi, sosial xidmətlərin həcmi və forması, onun maliyyələşdirilməsi ilə bağlı aspektləri əhatə edir.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə sosial təminat probleminin tədqiqatçıları göstərirlər ki, əksər ölkələrdə sosial xidmət sistemi üçün iki prinsip - dövlətin yalnız ictimai birliklərin müəyyən fəaliyyət göstərməsindən sonra sosial xidmət göstərilməsinə dəstək prinsipi, yəni bazar münasibətləri şəraitində funksional mərkəzsizləşmə haqqında danışmağa imkan verən dövlətin səlahiyyətlərinin bir hissəsinin könüllü fəaliyyət göstərən təşkilatlara, yerli hakimiyyətlərə verilməsi və bunun təckə insan hüquqlarının təmin olunmasına deyil, həm də insanlara normal həyat şəraitinin təmin olunmasına aid olduğu halda əsas rolun və məsuliyyətin dövlətə keçməsi prinsipi xarakterikdir (15, 220-222).

Lüksemburqda yaşlı insanlara qulluğun maliyyələşdirilməsi və qulluğun özü sosial təminat orqanlarından deyil, bilavasitə dövlətdən asılıdır. Həmin şəxslərin sığınacaq institutunda və ya ev şəraitində saxlanılan dəyəri, bir qayda olaraq, təsbit edilmiş yüksək həddə müəyyən olunur və ödənişdə vətəndaşların özləri də iştirak edir. Nəzərə alsaq ki, ölkədə pensiyaların məbləği yüksəkdir, onda belə xərclərə yaşlı şəxslərin 2/3-nin imkanı çatır. Əgər həmin şəxsin öz gəliri kifayət etmirsə, onun saxlanılması dövlət tərəfindən ailənin iştirakı olmadan maliyyələşdirilir (14, 59).

Sosial xidmət və dövlətin sosial funksiyasının qarşılıqlı əlaqəsindən danışarkən göstərmək lazımdır ki, sosial funksiyasını prioritet elan edən sosial dövlət özünün daxili siyasətinin sosial proqramlarda və təcrübədə təcəssümünü tapan tərkib hissəsi olan sosial siyasətinin reallaşdırılması yolu ilə vətəndaşların sosial müdafiəsini, o cümlədən onlara sosial xidmət göstərilməsini həyata keçirir. Bu zaman dövlət cəmiyyətdəki münasibətləri, bir qayda olaraq, əhalinin əsas sosial qruplarının mənafeləri naminə tənzimləyir.

Ölkədə sosial yönümlü vergi siyasətinin həyata keçirilməsi əldə edilən vergi gəlirləri hesabına aşağı gəlirli cəmiyyət üzvlərinin sosial xidmət sahəsindən istifadə etməsinə və onların layiqli həyat səviyyəsinin daha səmərəli təmin olunmasına imkan yarada bilər.

Ölkədə daha yaxşı bir sosial xidmət sistemi yaradılması üçün dövlət, ilk növbədə, insan iradəsindən asılı olan sosial risk yaradan amilləri müəyyənləşdirməlidir ki, gələcəkdə belə risk yaradan amillərin imkan daxilində qarşısı alına bilsin. Sosial xidmət kimlərə tətbiq olunması istiqamətində mütləq dəqiqləşdirilmə aparılmalı, bundan sonra sosial vəziyyətə uyğun ədalətli sosial xidmət tətbiq olunmalıdır. Sosial xidmət sahəsini tənzimləyən qanunvericilik beynəlxalq təcrübədən istifadə etməklə formalaşdırılmalıdır. Dövlətdən kənar özəl müəsissələrin də sosial xidmət sferasına yönləndirilməsinə şərait yaradılmalı və onlara dövlət tərəfindən dəstək verilməlidir. Bu, həm dövlətin işini yüngülləşdirər, həm də insanların sosial xidmətlərdən yararlanma imkanlarını və səviyyəsini yüksəldər.

Dövlətin sosial və ya sosial yönümlü elan olunması, sosial xidmətlərin qanunvericiliklə təsbit və tənzim edilməsi insanın bu xidmətlərlə təmin olunmasının yeganə və mütləq şərti deyildir. Burada başlıca meyar (şərt) onun təcrübədə həyata keçirilməsidir. Bu isə əhəmiyyətli dərəcədə dövlətin iqtisadi imkanlarından asılıdır. Bazar iqtisadiyyatına keçid özü ilə birlikdə ciddi sosial problemlər gətirmişdir ki, belə problemlərdən biri də insanların lazımi sosial xidmətlərlə təmin olunması imkanı ilə bağlıdır. Aparılan tədqiqatların nəticəsi göstərir ki, bu imkanın realizəsi yalnız sosial-iqtisadi normaların birgə fəaliyyətinin nəticəsi ola bilər.

Digər sosial və iqtisadi hüquqlar kimi, sosial xidmətlərin təmin olunması hüququna nəzarət edilməsi də çətindir. Ənənəvi olaraq, iqtisadi, sosial və mədəni hüquqlar müdafiə olunmayan hesab olunurdular, belə ki, onlar nə məhkəmə icraatının başlanması üçün əsas hesab olunmurdular, nə də məhkəmələr üçün müdafiə olunan hesab olunmurdular. Lakin sosial, iqtisadi və mədəni hüquqların hüquqi əsaslarını tapması yerli, regional və beynəlxalq səviyyələrdə artmaqda olan presedent hüququ ilə daha da möhkəmlənir və sosial, mədəni və iqtisadi hüquqların böyük bir hissəsinin həqiqətən də mühakimə oluna bilməsini nümayiş etdirir. Bu hüquqların həyata keçirilməsi üçün əsas mexanizmlərdən biri hamı üçün geniş şərait yaratmaq və onlardan istifadə etmək imkanlarının verilməsidir. İqtisadi, sosial və mədəni hüquqların həyata keçirilməsi üçün beynəlxalq səviyyədə əsas maneə bu hüquqların pozulmasına görə

fərdi şikayətlər prosedurlarının olmamasıdır. Universal səviyyədə müasir dövrün əsas nəzarət mexanizmləri İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitə və Uşaq hüquqları üzrə Komitədir.

1986-cı ildə Linburqda (Niderlandda) ekspertlərin beynəlxalq müşavirəsi keçirilmişdir. Həmin müşavirədə ekspertlərin gəldikləri əsas nəticələr isə aşağıdakılardan ibarət olmuşdur:

1. İnsanın bütün əsas hüquq və azadlıqları, o cümlədən sosial-iqtisadi hüquqları kompleksi beynəlxalq hüququn ayrılmaz hissəsini təşkil edir.

2. Pakt iştirakçı dövlətlərin üzərinə hüquqi öhdəliklər qoyur. Buna görə də göstərilən hüquqların realizəsini təmin etmək üçün bütün mümkün tədbirləri (qanunvericilik və inzibati tədbirlər də daxil olmaqla) görmək lazımdır. Hər bir şəxsin sosial-iqtisadi hüquqlarının məhkəmə müdafiəsinə təminat verilməlidir.

3. Paktda iştirak edən dövlətlər, iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq hamı üçün bütün sosial-iqtisadi hüquqların minimum səviyyəsini təmin etməyə borcludurlar (9, 19).

İnsanın sosial xidmət hüququnun səmərəli təmin olunması üçün hər bir cəmiyyət üzvü və dövlət bir-birləri ilə sıx surətdə əməkdaşlıq etməlidirlər. Bu o deməkdir ki, sosial xidmət hüququnun səmərəli təmin olunmasında dövlət təkbaşına deyil, ictimai birliklər və cəmiyyət üzvləri ilə birlikdə, sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərməlidir. Məsələn, dövlət sosial xidmətlərindən başqa xarici ölkələrdə dini və s. fondlar daxil olmaqla yerli fondlar tərəfindən maliyyələşdirilən könüllü qeyri-kommersiya sosial xidmətləri və xüsusi şəxslərin himayə etdiyi özəl kommersiya təşkilatların maliyyələşdirilməsi hesabına sosial xidmətlər həyata keçirilir. Eyni zamanda peşəyə görə birləşən təşkilatlar da mövcuddur. A.Y.Nekrasovun haqlı olaraq qeyd etdiyi kimi qeyri-hökumət təşkilatlarının fəaliyyətində, xüsusilə qiymətli olan odur ki, onlar öz fəaliyyətində peşəkar ödənişli xidmətlərlə könüllü xidmətləri əlaqələndirirlər, həmçinin onlar həmin xidmətləri əhaliyə bilavasitə, çətin inzibati prosedurlara əl atmadan təqdim edirlər. Onlar, xüsusilə böhran vəziyyətlərində (təbii fəlakətlər, qəzalar və s.) yeni tələbatların meydana gəlməsinə düzgün və operativ reaksiya vermək və hökumət proqramlarını tamamlayaraq əhaliyə təxirəsalınmaz yardım göstərmək imkanındadır (11, 75).

İsveçrədə sosial xidmət müəssisələri özəl və ya kilsə müəssisələri kimi fəaliyyət göstərirlər. Tarixi ənənələrdən asılı olaraq onlar 3 səviyyədə - konfederasiya, kanton və kommuna (icma) səviyyələrində fəaliyyət göstərirlər. Bununla əlaqədar sosial xidmətlər “dövlətin mümkün qədər az müdaxilə etməsi” prinsipi üzrə idarə olunurlar. Ölkədə sosial xidmətlərin inkişaf tarixi göstərir ki, onlar əsas etibarilə özəl təşəbbüs nəticəsində meydana gəlmişlər və ittifaqlar, fondlar və cəmiyyətlər tərəfindən idarə olunurlar. Ancaq xüsusi sosial xidmətlərin hamısı bu gün dövlətin, kantonun və ya icmanın verdiyi maliyyə dotasiyaları olmadan mövcud ola bilməz.

Beləliklə, bütün yuxarıda qeyd olunanlar aşağıdakı nəticələrə gəlməyə imkan verir:

I. Vətəndaşın sosial təminatın konkret növünü, o cümlədən sosial xidmət növünü almaq hüququ və onun sosial təminat və sosial xidmət orqanı tərəfindən qanunla müəyyən edilmiş qaydada həyata keçirilməsi sosial təminat münasibətlərinin iştirakçılarının əsas davranış qaydasını təşkil edir.

Sosial xidmət institutu başlıca olaraq sosial alimentləşdirmə metodundan istifadə edir, çünki onun mənbəyini əsasən dövlət vəsaitləri təşkil edir.

Sosial xidmət üzrə hüquq münasibətlərinin əksəriyyəti özünün hüquqi təbiəti etibarilə qeyri-müqavilə xarakterli sosial öhdəlik hüquq münasibətləridir.

Sosial xidmət üzrə hüquq münasibətlərini qüvvədə olma müddətinə görə üç qrupa ayırmaq olar:

1) vəzifələrin bir dəfə icrası ilə xitam olunan hüquq münasibətləri;

2) zamana görə qüvvəsinin mütləq müddəti müəyyən edilmiş hüquq münasibətləri;

3) zamana görə qüvvəsinin nisbətən qeyri-müəyyən olduğu hüquq münasibətləri.

II. Sosial xidmət və dövlətin sosial funksiyasının qarşılıqlı əlaqəsindən danışarkən göstərmək lazımdır ki, sosial funksiyasını prioritet elan edən sosial dövlət özünün daxili siyasətinin sosial proqramlarda və təcrübədə təcəssümünü tapan tərkib hissəsi olan sosial siyasətinin reallaşdırılması yolu ilə vətəndaşların sosial müdafiəsini, o cümlədən onlara sosial xidmət göstərilməsini həyata keçirir. Bu zaman dövlət cəmiyyətdəki münasibətləri, bir qayda olaraq, əhalinin əsas sosial qruplarının mənafeləri naminə tənzimləyir.

Ölkədə daha yaxşı bir sosial xidmət sistemi yaradılması üçün dövlət, ilk növbədə, insan iradəsindən asılı olan sosial risk yaradan amilləri müəyyənləşdirməlidir ki, gələcəkdə belə risk yaradan amillərin imkan daxilində qarşısı alına bilsin. Sosial xidmət kimlərə tətbiq olunması istiqamətində mütləq dəqiqləşdirilmə aparılmalı, bundan sonra sosial vəziyyətə uyğun ədalətli sosial xidmət tətbiq olunmalıdır. Sosial xidmət sahəsini tənzimləyən qanunvericilik beynəlxalq təcrübədən istifadə etməklə formalaşdırılmalıdır. Dövlətdən kənar özəl müəssisələrin də sosial xidmət sferasına yönlənməsinə şərait yaradılmalı və onlara dövlət tərəfindən dəstək verilməlidir. Bu həm dövlətin işini yüngülləşdirər, həm də insanların sosial xidmətlərdən yararlanma imkanlarını və səviyyəsini yüksəldər.

III. Dövlətin sosial və ya sosial yönümlü elan olunması, sosial xidmətlərin qanunvericiliklə təsbit və tənzim edilməsi insanın bu xidmətlərlə təmin olunmasının yeganə və mütləq şərti deyildir. Burada başlıca meyar (şərt) onun təcrübədə həyata keçirilməsidir. Bu isə əhəmiyyətli dərəcədə dövlətin iqtisadi imkanlarından asılıdır. Bazar iqtisadiyyatına keçid özü ilə birlikdə ciddi sosial problemlər gətirmişdir ki, belə problemlərdən biri də insanların lazımi sosial xidmətlərlə təmin olunması imkanı ilə bağlıdır. Aparılan tədqiqatların nəticəsi göstərir ki, bu imkanın realizəsi yalnız sosial-iqtisadi normaların birgə fəaliyyətinin nəticəsi ola bilər.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2015
2. İbrahimova A.N. Sosial funksiya və sosial hüquqların təmin olunmasında onun əhəmiyyəti // Məhkəmə Ekpertizası, Kriminalistika və kriminologiyanın aktual məsələləri, Bakı, 2014, № 60, s. 222-231
3. Nagel G, Kessler F. Social Security Law. Council of Europe. Kluwer Law International, 2010, 146 p.
4. Yazgan T. Türk Sosyal Güvenlik Sistemi ve Meseleleri. İstanbul: Türk Dünyası Araştırmaları Vakfı Yay., 1981, 111 s.
5. Батыгин К.С. Право социального обеспечения. Общая часть: Учебное пособие. М., 1995
6. Захаров М.Л., Тучкова Э.Г. Право социального обеспечения. М.: Вольтер Клювер, 2005
7. Иосифиди Д.Г. Право социального обеспечения Российской Федерации: Учебник / Под ред. проф. А.И.Бабылева. М.: Право и государство, 2003
8. Мачульская Е.Е. Право социального обеспечения. М., 1974, с. 25
9. Мачульская Е.Е. Право социального обеспечения: Перспективы развития. М.: Городец, 2000
10. Мачульская Е.Е., Горбачева Ж.А. Право социального обеспечения: Учебное пособие. М.: Книжный мир, 2000, 293 с.
11. Некрасов А.Я. Международный опыт социальной работы. М., 1994, с. 75
12. Олейникова С.С.Становление социальной функции государства в системе его внутренних функций// Вестник ВГУ, серия 5, Юриспруд., 2011, № 2(15), с. 59-62
13. Социальная функция государства/ www.pravgos.ru/index.php
14. Теория и методика социальной работы/ Под ред. И.Г.Зайчышева Ч.2. М., 1994
15. Теория и практика социальной работы: отечественный и зарубежный опыт / Отв. ред. Т.Ф.Яркина. Т.1. М., Тула, 1993,с. 220-222
16. Элементы системы социального обеспечения в условиях социально ориентированной рыночной экономики. На примере ФРГ. М., 1993


## ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ ВЗАИМООТНОШЕНИЯ СОЦИАЛЬНОГО ОБСЛУЖИВАНИЯ И СОЦИАЛЬНОЙ ФУНКЦИИ ГОСУДАРСТВА

**М.Н.АЛИЕВ**


### РЕЗЮМЕ

В статье исследованы теоретические аспекты взаимоотношения социального обслуживания и социальной функции государства. Автором взаимоотношения социального обслуживания и социальной функции государства обосновывается обеспечением государством социальной защиты, в том числе и социальной защиты граждан посредством реализации своей социальной функции. По мнению автора в настоящее время более надежное взаимоотношение социального обслуживания с социальной функцией государства связано с созданием эффективной системы социальной службы основанной на принципе рыночной экономики.


**Ключевые слова**: государство, право, норма, функция, деятельность, роль, взаимоотношения

**THEORETICAL ASPECTS OF THE RELATIONSHIP BETWEEN SOCIAL SERVICE AND SOCIAL FUNCTION OF THE STATE**

**M.N.ALIYEV**

**SUMMARY**

The article studies theoretical aspects of the relationship between the social service and social function of the state. The author proves the relationship between the social service and social function of the state by ensuring social protection by the state including social protection of citizens by means of realization of the social function. According to the author, presently, a more reliable relationship of the social service with the social function of the state is connected with the creation of the effective system of social service based on the principles of the market economy.

**Key words:** law, standards of social service, warranty, difficult living conditions, situation, social

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2017*

**UOT 342.553:352**

# YERLİ RƏY SORĞUSU (REFERENDUM)

**Q.R.XƏLİLOV**
***Bakı Dövlət Universiteti***
***gadirkhalilov@yahoo.com***

*Məqalə yerli rəy sorğusuna (referenduma) həsr edilib. Azərbaycan Respublikası qanunvericiliyində yerli özünüidarəetmə hakimiyyəti üçün bir qayda olaraq "yerli rəy sorğusu" terminindən istifadə edilir. Qeyd edilir ki, müvafiq anlayış bəsit formada ifadə edilib. Yerli özünüidarəetmənin birbaşa forması kimi yerli referendumun Konstitusiyada göstərilməsinə zərurət var. Belə normanın Konstitusiyada göstərilməsi vətəndaşların idarəçilik hüquqlarının daha geniş çərçivədə təminatlandırılması olardı. Yerli referendum yerli əhalinin hakimiyyətinin birbaşa forması olması onlar tərəfindən həyata keçirilən bilavasitə tədbirlərlə bağlıdır. Bilavasitə tədbirlər bir halda operativ (əməli) tədbirlərlə bağlıdırsa, digər halda isə onların hüquqyaratma funksiyasını ehtiva edir. Qeyd edilir ki, yerli referendum əməli xarakterli iradə fəaliyyətinin nəticəsi olsa da, daha çox hüquqyaratma prosesi kimi təzahür edir.*

**Açar sözlər:** yerli özünüidarəetmə, dövlət və bələdiyyə orqanları sistemi, vətəndaşların qanunvericilik təşəbbüsü, referendum, dövlət və bələdiyyə idarəçiliyinin səmərəliliyi, vətəndaş iştirakçılığı, birbaşa bələdiyyə hakimiyyəti, siyasi qərar, bələdiyyə hüququ

İnsan cəmiyyətinin ən qədim idarəetmə institutlarından biri də yerli rəy sorğusudur. Yerli rəy sorğusu müxtəlif terminlərlə ifadə edilməkdədir. Tarixən plebissit (latınca – plebiscitum, plebs – sadə xalq və seitum – qərar, sərəncam) əhali arasında aparılan sorğu; bir qayda olaraq, müəyyən ərazinin taleyini müəyyən etmək məqsədilə aparılır. Bir sıra ölkədə (məs., Fransada) referendumun sinonimidir. Formal hüquqi baxımdan plebissitin keçirilməsi proseduru (həll olunan məsələdən asılı olmayaraq) referendum prosedurundan fərqlənmir [1].

Ümumi anlamda referendum ictimai-siyasi təşkilatın təklif edilmiş qərar barəsində seçicilərə sual verilən səsvermədir. Əvvəllər xalq referendumu seçicilər tərəfindən tələb edilən səsvermə olub. Hazırda nümayəndəli təşkilatlar təklif edilən tədbirin statusunu qanuna qədər qaldırmağa məcburən referendum keçirirlər. Referendum zamanı seçicilərdən ictimaiyyət tərəfindən edilmiş qanunverici təklifin təsdiq və ya rədd edilməsi tələb olunur. Xalq referendumu hal-hazırda minimum sayda vətəndaşların qanunlar təklif etmək və ya digər təkliflər etmək təşəbbüsünü göstərmək hüququ kimi müəyyən olunur. Xalqın

iştirakının bu formasının müxtəlif variantları da var, sonda təklif adətən xalq səsverməsinə qoyulmaqla həll edilir.

Bir çox ölkələrdə referendumun çoxəsrlik ənənəsi var. Referendum iştirakın digər iki formalarından həm təcrübədə, həm də nəzəriyyədə inkişafın daha qabaqcıl mərhələsinə çatmışdır. Bunu referendumların müxtəlif formalarının fərqləndirilə bilməsi faktı nümayiş etdirir. Demokratik inkişaf səviyyəsi zəif olan ölkələrdə yerli səviyyədə referendum terminindən qaçılması diqqət çəkməkdədir.

Referendum (lat. referendum – xəbər verməli şey) dövlət hüququnda konstitusiya, qanunvericilik, yaxud daxili və xarici siyasət məsələlərinə dair qəti qərar qəbul edilməsi üçün seçki korpusuna müraciət anlamı kəsb edir. Referendumun keçirilməsi şərtləri və onun üsulu (proseduru) müvafiq ölkələrin və ya federasiya subyektlərinin konstitusiyaları və qanunvericiliyi ilə nizamlanır. Predmetindən asılı olaraq aşağıdakı referendumlar fərqləndirilir: Konstitusion referendum (konstitusiya layihəsi və yaxud konstitusiyada edilməli düzəlişlər ümumxalq müzakirəsinə çıxarılır – Fransada, İsveçrədə, İspaniyada); qanunvericilik referendumu (qanun layihəsi ümumxalq müzakirəsinə çıxarılır – İtaliyada); məşvərətçi referendum (hər hansı mühüm prinsip referendumun predmeti ola bilər və hökumətin siyasəti bu prinsipin bəyənilməsindən asılıdır).

Siyasi-hüquqi institut kimi rəy sorğusu dövlətçiliyin əhəmiyyətli prinsipinə çevrilməklə müvafiq cəmiyyətlərin xarakterini də müəyyən etmiş, demokratiyanın inkişaf səviyyəsini də şərtləndirmişdir. Müasir dövrün əksəriyyət dövlətlərində referendum ictimai-siyasi həyatın ayrılmaz elementinə çevrilməkdədir. Dövlət rejiminin, bütövlükdə siyasi rejimin sosial xarakteri xalqın birbaşa hakimiyyətilə bağlanmaqdadır. Referendumu tənzimləyən normalar vətəndaşların konstitusiya hüququ seçki hüququnun mühüm tərkib hissəsi kimi çıxış edir.

Müxtəlif faktorlardan asılı olaraq öz hüquqi mənasına görə, referendumlar həm qeyri-rəsmi, həm də rəsmi ola bilər. Sonuncuda səsvermə həlledici olduğu halda, birincidə nəticə ictimai-hüquqi təşkilat üçün məcburi deyil. Hüquqi əsasına görə də fərq qoyula bilər. Məcburi referendum prosedurla müəyyən edildiyi halda, azad referendum səlahiyyətli orqanların, qurumlar, qrupların tələbi ilə keçirilə bilər. Digər əlamətlərlə yanaşı, məsələnin referenduma necə qoyulduğuna görə də fərqləndirmə edilə bilər. Nəzəriyyə və təcrübədə çoxseçimli və təkseçimli referendumlara rast gəlinir. Çoxseçimli referendumlara müəyyən təklifin təsdiqi və ya rədd edilməsi daxil deyil, bu, daha çox bir neçə alternativdən birinin seçilməsidir. Bu zaman əhalinin təşkilatlanmasının təmin edilməsi vacibdir.

Referendumla bağlı məsələlər həm konstitusiya, həm də ayrı-ayrı qanunvericilik aktlarında öz əksini tapıb. Bəzi ölkələrdə vətəndaşlara referendum tələb etmək hüququ verən milli qanunvericilik aktı da yoxdur. Referendumun statusunun konstitusiya hüququna qədər qaldırılmasına lüzum görülmür. Hesab edilir ki, həm milli hökumət, həm də yerli hakimiyyət orqanları ictimaiyyəti

qeyri-rəsmi məsləhət referendumunun keçirilməsinə sadə səs çoxluğu ilə qərar verə bilərlər. Buna misal kimi 2005-ci il iyunun 1-də Avropa İttifaqı üçün Konstitusiyanın yaradılmasına dair Saziş üzrə Hollandiyada keçirilən referendumu göstərmək olar. Bələdiyyə orqanlarının təxminən 10 %-i vətəndaşlara referendum təşəbbüsü irəli sürmək hüququna imkan verən yerli referendum üçün qaydalar qəbul etmişdi. Bu referendum əsasən bələdiyyə şurasının qəbul etdiyi və ya təklif etdiyi qərarlar üzrə mümkündür. Bələdiyyə orqanları referendumu özlərinin uyğun gördükləri kimi keçirməkdə azad olduqları halda Hollandiya Konstitusiyası və bələdiyyə Aktında məcburi referendumun keçirilməsi qadağan olunur və bələdiyyə orqanlarının üzərinə xalq nümayəndələrinin müstəqil səsverməsi və heç bir təlimatla bağlı olmadıqları barədə konstitusiya tələbinə əsasən fərdi referendum təkliflərini rədd etmək azadlığını saxlamağa məcbur edir.

Azərbaycan Respublikası Konstitusiyasının 54, 55, 56, 148.I (2) və d. Maddələrində referendumla qəbul edilən aktlardan bəhs edilir. Eyni zamanda Referendum haqqında AR Qanunu, Yerli rəy sorğusu haqqında AR Qanunu və s. qeyd edilə bilər. Yerli rəy sorğusu haqqında Qanunun 2-ci maddəsində sorğuya çıxarıla biləcək məsələlər ümumi formada verilir. Həmin maddədə deyilir ki, Azərbaycan Respublikası Konstitusiyası və qanunvericiliyi ilə bələdiyyələrin səlahiyyətinə aid edilmiş yerli əhəmiyyətli məsələlər yerli rəy sorğusuna çıxarıla bilər.

Keçirilməsi üsuluna görə məcburi referendum (müvafiq qərar layihəsinin hökmən seçki korpusu təsdiq (ratifikasiya) etməlidir – məsələn, İspaniyanın 1978-ci il Konstitusiyasına konstitusiya düzəlişinin layihəsi; ABŞ-ın bütün ştatlarının konstitusiya düzəlişinin layihəsi) və fakültativ referendum (Konstitusion referendum və yaxud qanunvericilik referendumu keçirmək təşəbbüsünü seçki korpusu (İtaliyada, ABŞ-ın 22 ştatında), federasiya subyekti (İsveçrədə) və yaxud hakimiyyət (Fransada) irəli sürmüş) olur.

Referendum xalq hakimiyyətinin həyata keçirilməsi forması olmaqla həm ümummilli, həm də yerli əhəmiyyətli məsələlər üzrə keçirilməkdədir. Yerli referendum bəzən mahiyyət baxımından "yerli rəy sorğusu"ndan fərqləndirilir. Məsələn, Rusiya Federasiyasında yerli rəy sorğusunun əvəzinə yerli referendum anlayışından istifadə olunur. Yerli referendumda yerli rəy sorğusundan fərqli olaraq qəbul olunmuş qərar hər hansı bir dövlət orqanının və ya bələdiyyənin təsdiqinə ehtiyac olmadan bələdiyyə ərazisində mütləq icra olunmalıdır [2].

Ümumi hal ondan ibarətdir ki, yerli referendumla qəbul edilən akt bələdiyyə aktları sistemində ən yüksək hüquqi qüvvəyə malik olmaqla birbaşa tətbiq xüsusiyyəti kəsb edir [2]. Yerli rəy sorğusu (referendum) nəticəsində qəbul edilən akt hər hansı dövlət orqanının, vəzifəli şəxsin, eləcə də bələdiyyə qurumunun təsdiqinə zərurət duyulmadan hüquqi əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası qanunvericiliyində isə yerli rəy sorğusunun əksinə bələdiyyə başqa bir qərar qəbul edə bilər. Yerli rəy sorğusu haqqında

Qanunun 4-cü maddəsində deyilir ki, Yerli rəy sorğusunun nəticələrinin hüquqi qüvvəyə minməsi üçün bələdiyyə müvafiq qərar qəbul etməlidir. Həmin qərarın əsasını yerli rəy sorğusunun nəticələri təşkil edir. Bələdiyyənin qərarı bələdiyyə ərazisində məcburi hüquqi qüvvəyə malikdir.

Azərbaycan Respublikası qanunvericiliyində yerli özünüidarəetmə hakimiyyəti üçün bir qayda olaraq "yerli rəy sorğusu" terminindən istifadə edilir. Yerli rəy sorğusu haqqında Qanunda yerli rəy sorğusu – yerli əhəmiyyətli məsələlər barəsində bələdiyyə ərazisində yaşayan vətəndaşların rəyinin öyrənilməsidir. Qeyd etmək lazımdır ki, müvafiq anlayış bəsit formada ifadə edilib. Burada yerli referendum elementləri əks etdirilməyib. Ədəbiyyatda yerli referendumun daha dolğun anlayışına rast gəlinməkdədir. Yerli referendum – referendumda iştirak etmək hüququ və bələdiyyə ərazisində yaşayış yerinə malik olan vətəndaşların səsverməsilə yerli əhəmiyyətli məsələlər üzrə qərar qəbul etmək məqsədilə həyata keçirilən birbaşa iradə formasıdır [3].

Yerli rəy sorğusu yerli əhalinin səmərəli demokratik idarəçilik formalarından biridir. Bu yerli əhali ilə mərkəzi hakimiyyət arasında yerli məsələlərlə bağlı səmərəli əməkdaşlığın nümunəsidir [4]. AR Konstitusiyasında yerli özünüidarəetmənin birbaşa forması kimi yerli referendum ifadə edilməsə də qanunvericilik aktlarından Bələdiyyələrin statusu haqqında Qanunda (m.26), Yerli rəy sorğusu haqqında Qanunda bu məsələyə aydınlıq gətirir.

Bələdiyyələrin statusu haqqında Qanunun IV fəsli "Vətəndaşların öz iradəsini birbaşa ifadə etməsi və yerli özünüidarəetmənin həyata keçirilməsinin digər formaları" adlandırılsa da Yerli rəy sorğusu haqqında Qanunda vətəndaşların "birbaşa iradə formasına" istinad edilməməkdədir. Qeyd etdiyimiz (IV) fəsildə yerli özünüidarəetmənin bilavasitə formaları olan yerli rəy sorğusu bələdiyyələrə seçkilər, vətəndaşların yığıncaqları, əhalinin bələdiyyə aktlarını yaratmaq təşəbbüsü, vətəndaşların bələdiyyələrə, bələdiyyə orqanlarına müraciətləri və başqalarından bəhs olunur.

1999-cu ildə Yerli rəy sorğusu haqqında AR Qanununda deyilir ki, yerli rəy sorğusu yerli əhalinin tələbi ilə və bələdiyyə nizamnaməsinə uyğun olaraq bələdiyyələrin təşəbbüsü əsasında həyata keçirilir. Bələdiyyə ərazisində yaşayan və seçki hüququ olan bütün vətəndaşların yerli rəy sorğusunda iştirak etmək hüququ var. Yerli rəy sorğusunda vətəndaşlar bilavasitə könüllülük əsasında iştirak edirlər və səsvermə gizli keçirilir. Yerli rəy sorğusunun nəticələrinin hüquqi qüvvəyə minməsi üçün bələdiyyə müvafiq qərar qəbul etməlidir. Həmin qərarın əsasını yerli rəy sorğusunun nəticələri təşkil edir.

Konstitusiyada vətəndaşların referendumda iştirak etmək hüququ ümumi formada yalnız Konstitusiyanın 56.II maddəsində (Məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə, habelə referendumda iştirak etmək hüququ yoxdur) ifadə edilib. Yerli özünüidarəetmənin birbaşa forması kimi yerli referendumun Konstitusiyada göstərilməsi vətəndaşların siyasi hüquqlarının daha geniş çərçivədə təminatlandırılması olardı. Yerli referendum yerli əhalinin hakimiyyətinin birbaşa forması olması onlar tərəfindən

həyata keçirilən bilavasitə tədbirlərlə bağlıdır [5]. Bilavasitə tədbirlər bir halda operativ (əməli) tədbirlərlə bağlıdırsa, digər halda isə onların hüquqyaratma funksiyasını ehtiva edir. Yerli referendum əməli xarakterli iradə fəaliyyətinin nəticəsi olsa da, daha çox hüquqyaratma prosesi kimi təzahür edir.

## ƏDƏBİYYAT


1. Hüquq ensiklopedik lüğəti. Bakı: Azərbaycan Ensiklopediyasının Baş redaksiyası, 1991, (544s.) s.353
2. Баглай М.В. Конституционное право Российской Федерации. М.: НОРМА-ИНФА М. 2007, с.762, (784с.)
3. Кутафин О.Е., Фадеев В.И. Муниципальное право Российской Федерации: учеб. 3-е изд., перераб. и доп. М.: Проспект, 2010, с.142 (672с.)
4. Kyiv Declaration. Local Government in Critical Times: Policies for Crisis, Recovery and a Sustainable Future. Council of Europe texts Edited by Kenneth Davey 2011 / Printed at the Council of Europe in Strasbourg, France, 2012 p.26. (152p.)
5. Jackiewic Z.A. The Constitutional and Statutory Basis for a local Referendum in Poland. [in:] Evolution on Constitutionalism in the Selected States on Central and Eastern Europe, ed. J.Matwiejuk, K.Prokop, Bialystok 2010 / Journal of Laws, No.88, p.177-191


## МЕСТНЫЙ ОПРОС (МЕСТНЫЙ РЕФЕРЕНДУМ)


**Г.Р.ХАЛИЛОВ**


## РЕЗЮМЕ


Статья посвящена местному опросу (местному референдуму). Как правило, в законодательстве Азербайджанской Республики для власти местного самоуправления используется термин "местный опрос". Отмечается, что соответствующее понятие было выражена в примитивной форме. Существует необходимость отображение местного референдума в Конституции как прямая форма местного самоуправления. Отображение этих норм в Конституции обеспечило бы права на управление граждан в более широком контексте. Как прямая форма власти местного населения местный референдум связан с осуществляемым непосредственными мерами с их стороны. Если непосредственно меры в одном случае связанны с оперативными (практическими) мерами, то в другом случае содержит их правотворческую функцию. Отмечается, что, хотя местный референдум является результатом деятельности воли практического характера, больше всего оно проявляется в правотворческом процессе.



**Ключевые слова:** местное самоуправление, система государственной и муниципальной власти, правотворческая инициатива граждан, референдум, эффективность государственного и муниципального управления, участие граждан, непосредственная муниципальная демократия, политическое решение, муниципальное право

**LOCAL SURVEY (LOCAL REFERENDUM)**

**G.R.KHALILOV**

**SUMMARY**

The article is devoted to the local survey (local referendum). As a rule, the term "local survey" is used in the legislation of the Azerbaijan Republic for the power of local self-government. It is noted that the corresponding concept is expressed in a primitive form. There is a need for a displaying of a local referendum in the Constitution as a direct form of local government. Showing these norms in the constitution would provide the management rights of citizens in a wider context. As a direct form of power of the local population, local referendum is connected with the measures implemented directly on their part. If in one case actions are directly connected with the operational (practical) measures, in the other case it contains their law-making function. It is noted that, although the local referendum is the result of the will of a practical character, it mostly appears as a law-making process.

**Keywords:** local government, the system of state and municipal authorities, law-making initiative of citizens, referendum, the efficiency of state and municipal administration, citizen participation, direct municipal democracy, a political decision, municipal law

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2017*

**UOT.343.122**

# CİNAYƏT PROSESİNDƏ ZƏRƏR ÇƏKMİŞ ŞƏXSİN PROSESSUAL FUNKSİYASI

**Q.Ş.QULİYEVA**
***Bakı Dövlət Universiteti***
***qumru.quliyeva.95@mail.ru***

*Azərbaycan Respublikası Cinayət-Prosessual məcəlləsinin 87.1-ci maddəsinə görə cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində fiziki şəxsə birbaşa mənəvi, fiziki və ya maddi ziyan vurulmasına kifayət qədər əsaslar olduqda o, zərər çəkmiş şəxs qismində tanınır. Cinayət prosesində zərər çəkmiş şəxsin hüquq və vəzifələri təhlil olunmaqla onun prosessual funksiyasının müəyyən edilməsi əhəmiyyətli məsələlərdən biridir. Məqalədə cinayət prosesində zərər çəkmiş şəxsin prosessual funksiyası araşdırılır.*

**Açar sözlər:** zərər çəkmiş şəxs, xüsusi ittihamçı, cinayət təqibi, ictimai-xüsusi ittiham, ərizəçi

Zərər çəkmiş şəxsin cinayət mühakimə icraatında həyata keçirdiyi funksiyanın özünəməxsus cəhətlərini ortaya çıxarmaq üçün onun hüquqlar sisteminin təhlili, cinayət mühakimə icraatında yeri və rolunu müəyyən etmək zəruridir. Bunun üçün zərər çəkmiş şəxsin qüvvədə olan cinayət-prosessual qanunvericilikdə nəzərdə tutulan hüquqları ümumiləşdirərək qrupaşdırmaq lazımdır. Hesab edirik ki, cinayət-prosessual qanunvericilikdə də təsbit olunduğu kimi, maddi-hüquqi və prosessual-hüquqi mənada zərər çəkmiş şəxsin hüquqlarını bir-birindən fərqləndirmək olar. Belə bir fərqləndirmə həm də müvafiq haqların realizə mexanizmi ilə bağlı özünəməxsus cəhətləri ayırmağa imkan vermiş olar.

Maddi hüquqi mənada zərər çəkmiş şəxsin aşağıdakı hüquqlarını fərqləndirmək olar: özünə və yaxın qohumlarına qarşı ifadə verməmək hüququ; müdafiəçinin (vəkilin) yardımından istifadə etmək hüququ, o cümlədən istintaq hərəkətlərinin həyata keçirilməsində (CPM 19.3m);

Ərizəçi kimi: a) zərər çəkmiş şəxs qismində tanınmasının rədd edilməsi barədə cinayət prosesini həyata keçirən orqanın qərarının surətini aldığı vaxtdan 5 (beş) gün müddətində qəbul edilmiş qərardan məhkəməyə şikayət vermək; b) zərər çəkmiş şəxs qismində tanınması üçün ərizə verildiyi gündən 1 (bir) ay müddətində onun ərizəsi üzrə qərar çıxarılmadıqda, ərizəyə baxmalı olan cinayət prosesini həyata keçirən orqanın hərəkətlərindən məhkəməyə şikayət vermək və ya məhkəmə vasitəsilə zərər çəkmiş şəxs qismində tanınması

üçün məhkəməyə ərizə vermək (CPM 119.3m). Konstitusiya ilə təsbit edilmiş hüquq və azadlıqlarını qanunla qadağan edilməyən bütün üsul və vasitələrlə müdafiə etmək (CMP 12.3); qanunla qadağan olunmayan digər üsul və vasitələrdən istifadə etməklə hüquqlarını müafiə etmək; cinayət təqibinin başlanılmasını tələb etməyə, onun həyata keçirilməsində zərər çəkmiş şəxs və ya xüsusi ittihamçı qismində iştirak etməyə, habelə vurulmuş mənəvi, fiziki və maddi ziyana görə kompensasiya almaq (CPM 12.2m); təhlükəsizlik tədbirlərinin görülməsi barədə vəsatət vermək (CPM 123.4m).

Prosessual-hüquqi mənada zərər çəkmiş şəxsin hüquqlarına isə AR CPM-in 87.6, 123 və digər maddələrdə göstərilən ayrı-ayrı hüquqları aid etmək olar.

Göründüyü kimi, milli hüquq sistemi müvafiq qərar qəbul edilməklə zərər çəkmiş şəxs qismində tanınmamışdan əvvəl belə, cinayətin törədilməsindən zərər çəkən şəxsi cinayətin əlamətləri olan əməldən zərər çəkmiş şəxs, ərizəçi və ya ümumiyyətlə, fiziki və hüquqi şəxs kimi hüquqlarını tanıyır və onların təminatı üçün mexanizmi özündə əks etdirir.

Xüsusi olaraq o müddəa ilə razılaşmaq lazımdır ki, şəxsin zərər çəkmiş şəxs prosessual statusu əldə etməsi müstəntiqin qərar çıxarması ilə bağlıdır. Bu ana qədər şəxs qanun üzrə zərər çəkmiş şəxsə verilən hüquqlardan (prosessual hüquqlardan – müəl.) istifadə edə bilməz (1, s.125). Aydındır ki, burada söhbət prosessual mənada zərər çəkmiş şəxsdən gedir. Müəllif özü də, daha sonra ilkin yoxlama mərhələsində cinayət işinin başlanmasının rədd edilməsi haqqında qərardan şikayət verilməsi zamanı zərər çəkmiş şəxsin hüquqlarının məhdudluğu və bunun aradan qaldırılması ilə bağlı təkliflər verir ki, bu halda söhbət prosessual mənada zərər çəkmiş şəxsin hüquqlarından deyil, maddi hüquqi mənada zərər çəkmiş şəxsdən gedir. Eyni mövqe AR Konstitusiya Məhkəməsinin qərarında da öz əksini tapır. Qərarda Məhkəmə göstərir ki, "tədqiqatçı, müstəntiq, prokuror və hakimin qərarı və yaxud məhkəmənin qərardadı ilə zərər çəkmiş şəxsin prosessual hüquq və vəzifələri yaranır" (2). Lakin bütün bunla onu deməyə əsas vermir ki, cinayət-prosessual fəaliyyəti tənzimləyən qanunvericilikdə nəzərdə tutulduğu kimi zərər çəkmiş şəxs əmələ gəlmədiyi halda heç bir hüquqa malik deyildir (3, s.40). Yuxarıda da, göstərildiyi kimi, qanun bu halda da zərər çəkmiş şəxsin müəyyən subyektiv hüquqlarını təsbit etmişdir.

Elmi ədəbiyyatda zərər çəkmiş şəxsin hüquqlarının müxtəlif təsnifatları mövcuddur. 1) əhəmiyyət dərəcəsinə (zəruriliyinə) və hüquqi təsbit formasına görə; 2) realizə subyektinə görə; 3) məqsədlərinə görə.

1) əhəmiyyət dərəcəsinə (zəruriliyinə) və hüquqi təsbit formasına görə zərər çəkmiş şəxsin hüquqlarını beynəlxalq-hüquqi, konstitusion və sahəvi (cinayət-prosessual).

2) realizə subyektinə görə zərər çəkmiş şəxsin hüquqlarını yalnız zərər çəkmiş şəxsin özü tərəfindən həyata keçirilə bilən hüquqlar, həm özü, həm də qanuni nümayəndəsi tərəfindən həyta keçirilə bilən hüquqlar.

3) məqsədlərinə görə zərər çəkmiş şəxsin hüquqlarını

a) zərər çəkmiş şəxsin sübutetmədə iştirakını təmin edən hüquqlar; b) zərər çəkmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi və zərərin kompensasiyasına yönələn hüquqlar və c) ittiham funksiyasının təmini və öz maraqlarının təmininə yönələn hüquqlar (5, s.16-23).

Əhəmiyyətli məsələlərdən biri qanunvericilikdə bu hüquq və vəzifələrin balansının necə müəyyən olunmasıdır. Məhz bunu müəyyən etmək üçün zərər çəkmiş şəxsin cinayət mühakimə icraatında yeri və rolunu aydınlaşırmaq vacibdir. Zərər çəkmiş şəxsin funksiyasıın müəyyən olunmasında bu məsələnin əhəmiyyəti vardır.

Qüvvədə olan AR CPM-in konsepsiyasına görə cinayət prosesi iştirakçıları çəkişmə prinsipi əsasında ittiham, müdafiə tərəflərinə ayrılmış, işi həll etmə funksiyası isə müstəqil, obyektiv və həqiqəti müəyən etmək imkanına malik olan məhkəməyə həvalə olunmuşur. Qanunda cinayət prosesi iştirakçılarının hüquq və vəzifələri bu prosessual funksiya bölgüsünə müvafiq olaraq təsbit olunmuşdur.

Zərər çəkmiş şəxsin cinayət prosesində hüquqları ilə bağlı bu məqam AR Konstitusiya Məhkəməsinin "Cinayət mühakimə icraatında zərər çəkmiş şəxsin iştirakı haqqında" 4 iyun 1999-cu il tarixli qərarında da xüsusi olaraq qeyd olunur: "Məhkəmə prosesində çəkişmə zamanı tərəflərin işin bütün hallarını müxtəlif mövqelərdən açıq və hərtərəfli təhlil etmək imkanlarının yaranması hakimlərin iş üzrə daxili inamının formalaşmasına, toplanmış sübutların obyektiv və düzgün qiymətləndirilməsinə, qəbul ediləcək qərarın qanuniliyinə və əsaslılığına müsbət təsir edir."

Bu baxımdan ARCPM-in 7.0.21-ci maddəsinə görə ittiham tərəfi dedikdə, birlikdə götürülmüş təhqiqatçı, müstəntiq, prokuror, həmçinin zərər çəkmiş şəxs, xüsusi ittihamçı, mülki iddiaçı başa düşülür. Məsələnin mahiyyəti baxımdan əhəmiyyət kəsb edən cəhətlərdən biri burda mövcud olan "birlikdə" ifadəsidir. Fikrimizcə, birlikdə götürülmüş dedikdə, onların hər birinin ümumi funksiyasının ittiham olduğu əsas götürülür. Başqa sözlə, irəli sürülmüş ittiham təkcə dövlətin mənafeyini deyil, həmçinin ictimai və şəxsi mənafeni təmsil etməyi tələb kimi özündə əks etdirir. Aşkar şəkildə görünür ki, dövlət ittihamı formulə olunarkən cinayətin törədilməsindən bilavasitə zərər çəkmiş şəxsin ittihamla bağlı mövqeyi hökmən nəzərə alınmalıdır. Bunu ittiham tərəfinə aid olan ciayət prosesi iştirkaçısı kimi hüquqları və vəzifələr sistemində müşahidə etmək olar. Qeyd olunanlar ən azı ictimai-xüsusi ittihamlı işlərə aiddir. Həmçinin bu həm də o anlama gəlir ki, zərər çəkmiş şəxs ittiham tərəfinə aid olsa da, onun müdafiə etdiyi ittiham dövlət ittihamı deyil, özünün müstəqil formulə edib müdafiə etdiyi ittiham ola bilər. Lakin istisna deyil ki, zərər çəkmiş şəxs, ümumiyyətlə, irəli ürülmüş ittihamla razılaşmasın, tamamilə müdafiənin mövqeyini müdafiə etsin.

İttiham tərəfinə aid olan iştirakçı kimi zərər çəkmiş şəxsin aşağıdakı hüquqlarını göstərmək olar: şəxsləri şahid qismində dindirmək (CPM 95.1m.); təqsirləndirilən şəxsin əməlinin hüquqi tövsifinə və məhkəmənin yekun qəra-

rına dair öz təkliflərini vermək; məhkəmə istintaqında sübutların tədqiqində iştirak etmək; ibtidai araşdırmanın böyük ictimai təhlükə törətməyən aşkar cinayətlər üzrə məhkəməyədək sadələşdirilmiş icraat şəklində aparılmasına etiraz etmək və s.

Zərər çəkmiş şəxsin xüsusi, ictimai-xüsusi və ictmai ittihamlı işlər üzrə hüquqları və vəzifələrində fərqlərin olduğunu müşahidə etmək olur. AR CPM-in 37-ci maddəsinə görə cinayət təqibinin üç növə bölgüsündə meyar kimi cinayətlərin xarakteri və ağırlıq dərəcəsi elan olunsa da, əslində burada meyar kimi zərər çəkmiş şəxsin iradəsi çıxış edir. Belə ki, xüsusi ittihamlı işlərdə ittihamın müqəddəratı tam şəkildə, ictima-xüsusi ittihamda qismən, ictimai ittihamda isə daha cüzi olaraq zərər çəkmiş şəxsin iradəsindən asılıdır.

Xüsusi ittihamlı işlərdə müvafiq cinayət təqibi yalnız zərər çəkmiş şəxsin şikayəti əsasında başlayır və məhkəmə müşavirə otağına gedənədək təqsirləndirilən şəxslə zərər çəkmiş şəxs barışırsa, təqibə xitam verilir. Bu növ cinayət təqibində ittihamçının funksiyaları xüsusi ittihamçının üzərinə düşsə də, onun hüquqları ilə dövlət hakimiyyət səlahiyyətlərinə malik olan dövlət ittihamçısının hüquqları üst-üstə düşmür və bu roman-german hüquq sistemində normal hal sayılır.

İctimai-xüsusi ittiham qaydasında həyata keçirilən müvafiq cinayətlər üzrə təqib zərər çəkmiş şəxsin şikayəti əsasında başlasa da, onunla təqsirləndirilən şəxsin barışması əsasında xitam verilmir. AR Konstitusiya Məhkəməsinin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 37.4, 39.1.9, 40.2 və 41.7-ci maddələrinin şərh edilməsinə dair 15 iyul 2011-ci il tarixli qərarı ilə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 37.4-cü maddəsinə görə 37.3-cü maddəsində sadalanan ilk dəfə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxs zərər çəkmiş şəxslə barışdıqda və ona dəymiş ziyanı ödədikdə və ya vurulmuş zərəri aradan qaldırdıqda ictimai-xüsusi ittiham qaydasında cinayət təqibinə xitam verilməsi imkanı nəzərdə tutsa da, az ağır və ya ağır cinayətlər üzrə ictimai-xüsusi ittiham qaydasında cinayət təqibinə zərər çəkmiş şəxsin təqsirləndirilən şəxslə barışması ilə əlaqədar xitam verilə bilməz. Bununla da, az ağır və ağır cinayətlər üzrə zərər çəkmiş şəxsin təqsirləndirilən şəxslə barışması onun cinayət işinin başlanması mərhələsindəki vəziyyəti ilə eyni hüquqi nəticələrə səbəb olmur. Hesab edirik ki, bu cinayətlərin mahiyyəti və cinayət təqibinin ictimai-xüsusi ittiham mahiyyəti belə bir qaydanın əsaslı olmadığı qənaətinə gəlməyə imkan verir. Nəzərdən qaçırmaq olmaz ki, burada 37.5-ci maddədə sadalanan əsaslar olmadıqda təqibin zərər çəkmiş şəxslə təqsirləndirilən şəxsin barışması şəraitində davam etdirilməsi təqibin xüsusi cəhətinə uyğun deyildir. Cavabı olmayan belə bir sual ortaya çıxır ki, cinayəti başlamaq üçün zərər çəkmiş şəxsin şikayəti lazım idisə, yəni zərər çəkmiş şəxsin iradəsi zəruri idisə, belə bir şikayət aradan qalxdıqda dövlətin bu ittihamı davam etdirməsi və məhkəmə qarşısına çıxarmasının məqsədi nədən ibarətdir? Əgər burada cinayətlərin az ağır və ağır kimi ictimai təhlükəlilik dərəcəsi və xarakteri əsas götürülürsə, bunu doğru saymaq olmaz. Qanunverici

cinayətin az ağır və ağır olduğunu bildiyi halda onun başlanması üçün zərər çəkmiş şəxsin iradəsindən asılı etmişdir ki, bu da həmin ictimai münasibətlərin mahiyyəti ilə bağlıdır. Qeyd olunanları nəzərə alaraq hesab edirik ki, AR CPM-in 37.4-cü maddəsi qanundan çıxarılmalıdır. Maraqlıdır ki, ictimai ittihamı müdafiə etməli olduğu işlər üzrə, yəni zərər çəkmiş şəxsin şikayətinin başlanması zəruri olmayan işlər üzrə zərər çəkmiş şəxslə təqsirləndirilən şəxs barışdıqda AR CM-in 73-cü maddəsinə uyğun olaraq cinayət təqibinə xitam verilə bilər. İctimai ittihamlı işlərdə isə zərər çəkmiş şəxsin iradəsi təqibin başlanması və bitməsi üçün xüsusi əhəmiyyətə malik deyildir.

Dediklərimizi əsaslandırmaq üçün zərər çəkmiş şəxsin cinayət təqibinin həyata keçirilməsindəki roluna qısaca retrospektiv nəzər yetirmək istərdik.

Tarixi qaynaqlardan məlumdur ki, hələ Qədim Yunanıstanda cinayət işləri də daxil olmaqla bütün işlər iki növə bölünürdü: a) dövlət, hansı ki, dövlət maraqlarına toxunan işlərə aid idi və b) kiminsə şəxsi araqlarına toxunan özəl işlər. Dövlət marağına toxunan işlər üzrə prosesi istənilən vətəndaş başlaya bilərdi, özəl prosesi isə yalnız maraqlı şəxs və ya onun qanuni nümayəndəsi başlaya bilərdi. Onu da qeyd etmək lazımdır ki, dövlət və özəl proses bir-birindən ciddi şəkildə fərqləndirilmirdi, prosesin bu və ya digər növünün seçimi daha çox ittihamçıdan asılı idi. İlkin feodalizm cəmiyyətində ittiham özəl təşəbbüs əsasında həyata keçilir və məhkəmə icraatı ittiham və təqsirləndirilən şəxsin çəkişməsinə əsaslanırdı. Dövlət hakimiyyəti gücləndikcə cinayət təqibini həyata keçirmək təşəbbüsü tədricən vəzifəli şəxslərin əlinə keçmiş oldu. İngiltərə istisna olmaqla tədricən əksər Avropa ölkələrində dövlət fərdlərin ittiham fəaliyyətinin həyata keçirməsi ilə bağlı hüquqlarını məhdudlaşdırmaq üçün ayrı-ayrı tədbirlər görürdü (6, s.6, 8). Bu sonda gətirib ona çıxardı ki, ictimai mənafelərlə bağlı bütün işlərdə cinayət təqibini yalnız dövlət həyata keçirmək hüququ əldə etdi və nəticədə zərər çəkmiş şəxsin hüquqları tam olaraq dövlətə keçdi.

İctimai-xüsusi ittihamlı işlər üzrə xüsusi ittihamçı kimi işdə iştirak edən zərər çəkmiş şəxsin cinayət təqibini həyata keçirmək və ondan imtina etmək səlahiyyəti olmasa da, onun mövqeyinin dövlət ittihamçısı tərəfindən nəzərə alınmasının zəruriliyi bir çox maddəalarin təhlilindən irəli gələn məntiqi nəticədir. Hesab edirik ki, elmi ədəbiyyatda belə bir fikirlə tam mənasında razılaşmaq mümkün deyil ki, ictimai itihamın həyata keçirilməsi zamanı zərər çəkmiş şəxsin mövqeyinə müəyyəedici əhəmiyyət verilməməlidir (8).

Bu kontekstdə cinayət-prosessual qanunvericilikdə məhkəmə baxışının həddini müəyyən edən 318-ci maddəyə edilən son dəyişikliklər diqqəti cəlb edir.

Maddənin təhlili belə bir qənaətə gəlməyə əsas verir ki, məhkəmə baxışında dövlət ittihamı ilə zərər çəkmiş şəxsin müdafiə elədiyi ittiham arasında uyğunsuzluğun olmaması və bununla bağlı yarana biləcək problemlərin aradan qaldırılması üçün irəli sürülən ittihama zərər çəkmiş şəxsin yanaşması da

müəyyən olunmalıdır. Bu ən azı taktiki baxımdan mühüm əhəmiyyət kəsb edən məsələdir.

Burada xüsusi olaraq qeyd etmək istədiyimiz məqam Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnda məsələyə yanaşmasıdır. Yaddan çıxarmaq olmaz ki, AİHM-in presedent hüququ Avropa Şurası üzvlərinin hüquq sisteminə güclü təsir göstərən əsas beynəlxalq mexanizmlərdən biridir. İttiham tərəfinə aid olsa da, zərər çəkmiş şəxsin prosessual funksiyası ikili xarakter daşıyır. Onun prosesdə yeri həm də şəxsi mənafelərinin təmin edilməsi və özünün hüquqlarını realizə etmək və qanuni maraqlarının təmin olunmasından ibarətdir. Berger Fransaya qarşı işində Məhkəmə göstərir ki, onların mövcud rolu və məqsədləri tam fərqli olduğu üçün mülki iddiaçını (zərər çəkmiş şəxs) nə ittiham tərəfinin opponenti, nə də onun tərəfdaşı kimi nəzərdən keçirmək olmaz (§38, 2002-ci il) (9).

Doğurdan da, cinayət prosesində zərər çəkmiş şəxsin özünün spesifik funksiyası vardır. Ittiham funksiyasını həyata keçirən şəxslərin fəaliyyəti və zərər çəkmiş şəxsin fəaliyyət istiqamətinə görə fərqlənir, bunun səbəbi bu fəaliyyət istiqamətlərinin məqsədlərinin eyni olmamasıdır. Bununla razılaşmamaq mümkün deyildir. Lakin o fikirlə də razılaşmaq mümkün deyildir ki, zərər çəkmiş şəxsin funksiyası ittihamın funksiyasından fərqlənir. Zərər çəkmişin funksiyası ittiham deyil, cinayətlə pozulmuş hüquqları və qanuni maraqlarını müdafiə etməkdir (10). Fikrimizcə, zərər çəkmiş şəxs təqsirləndirilən şəxsi ittiham etmədən özünün hüquqlarının təminatına yönələn fəaliyyəti həyata keçirə bilməz.

Razılaşmaq lazımdır ki, dövlət ittihamı özlüyündə zərər çəkmişin öz maraqlarını müdafiə etmə funksiyasını nəzərə almalıdır. Bu baxımdan zərər çəkmiş şəxs isə ittiham funksiyasından özünün maraqlarının təmini vasitəsi kimi istifadə edə bilər.

Hesab edirik ki, zərər çəkmiş şəxsin funksiyaları barədə aşağıdakı fikirlərlə razılaşmaq olar:

1. Cinayət prosesində zərər çəkmş şəxsin əsas məqsədi özünün cinayət-hüquqi və mülki-hüquqi maraqlarını təmin etməkdir. 2. Bu məqsədə iki prosessual funksiya xidmət edir: a) özəl cinayət-hüquqi maraqların müdafiəsi; b) özəl mülki-hüquqi maraqların müdafiəsi. 3. Bu funksiyaların həyata keçirilməsi üçün ziyan çəkən ya zərər çəkmiş şəxs, ya da mülki iddiaçı statusuna və seçmək hüququna malik olmalıdır; 4. Ziyan çəkən şəxsin iddiaları sırf barışıq, barışıq-kompensasiya və cəza-kompensasiya xarakterli ola bilər; 5. Barışıq və barışıq-kompensasiya iddialarının təmin edilməsi özəl cinayət-hüquqi maraqların müdafiəsi funksiyası çərivəsində mümkündür; 6. Təmiz kompensasiya iddialarının təmin edilməsi özəl mülki-hüquqi maraqların müdafiəsi funskiyası çərçivəsində mümkündür; 7. Kompensasiya-cəza və cəza-kompensasiya iddialarının təmini özəl cinayət-hüquqi maraqların müdafiəsi funksiyası çərçivəsində mümkündür (7, s.56-57).

Hüquq nəzəriyyəsindən bəlli olduğu kimi, hüquq münasibətləri subyektiv hüquq və vəzifələr mexanizmi vasitəsilə tənzimlənir. Bu hüquq və vəzifələr müəyyən hüquq münasibətləri çərçivəsində bir-biri ilə qarşılıqlı əlaqədə olmaqla onun məzmununu təşkil edir (4, s.191). Yəni hər hansı bir hüququn qarşısında onun realizəsini təmin edən müvafiq vəzifə dayanır. Bu vəzifənin mövcudluğu müvafiq subyektiv hüququn təminatı kimi çıxış edir. Bu vəzifə mövcud olmasa, subyektiv hüququn heç bir önəmi qalmamış olacaqdır. Bu baxımdan zərər çəkmiş şəxsin hüquq və vəzifələrinə təsir göstərən digər faktor onunla olan münasibətlərin subyekti olan cinayət prosesi orqanlarının vəzifələri daxildir. Zərər çəkmiş şəxsin hüquqları və vəzifələri sistemi ikili xarakterə malikdir. O bir tərəfdən müdafiə tərəfinə münasibətdə ittiham tərəfi kimi çıxış edir, onunla çəkişmə üçün "silah bərabərliyinə" malik olmalı, digər tərəfdən onun bu hüquqlarını təmin edən əsas subyektlər məhz dövlət orqanları kimi cinayət prosesini həyata keçirən orqanlardır.

Bu baxımdan zərər çəkmiş şəxsin hüquqları ilə bağlı aşağıdakı məsələləri qeyd etmək istərdik.

AR CPM-in 41.6-cı maddəsinə görə dövlət ittihamçısı cinayət təqibinin həyata keçirilməməsinə imkan verən halları məhkəmədə aşkar edərsə, təqsirləndirilən şəxsin barəsində cinayət təqibindən imtina edilməsini bildirə bilər. Bu halda xüsusi ittihamçı kimi zərər çəkmiş şəxs təqsirləndirilən şəxsin barəsində cinayət təqibini davam etdirə və ittihamı müdafiə edə bilər. Yəni zərər çəkmiş şəxsin ictimai və ictimai xüsusi ittihamlı işlərdə məhkəməyə hazırlıq iclasında ittihamı formalaşdırmaq və onu dəyişdirmək imkanı mövcuddur. Belə bir nəticəyə CPM-in ayrı-ayrı müddəalarının təhlili əsasında gəlmək olar.

AR CPM-in 299.4.1-ci maddəsinə görə zərər çəkmiş şəxs vəsatətlər verə bilər ki, bu vəsatətlərdə əks olunan hallarda cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraatın materiallarının baxılmasına xitam verilməsi və onun prokurora qaytarılması barədə qərarın qəbulu ilə bağlı ola bilər. Belə ki, işin prokurora geri qaytarılmasının kobud pozuntularından biri cinayət işi üzrə ittiham aktının və ya məhkəməyədək sadələşdirilmiş icraatın nəticələrinə dair yekun protokolunun müvafiq olaraq bu Məcəllənin 289 və 290.3.2-ci maddələrinin və ya 296.2-ci maddəsinin tələblərinə uyğun olmamasıdır (303.3.6m.). 289-cu maddədə ittiham aktının qanunilik şərtləri və 290.3.2-ci madədə isə ittihamın dəyişdirilməsi halları öz əksini tapmışdır ki, hər iki halda ittihamın formulə olunması ilə bağlıdır. Ona görə də zərər çəkmiş şəxs məhkəməyə hazırlıq mərhələsində ittihamın formulə edilməsində aktiv iştirak edə bilir.

Maraqlı cəhətlərdən biri də, zərər çəkmiş şəxsin baxış mərhələsində ittihamın formulə edilməsində iştirak etmək hüququ ilə bağlıdır. AR CPM-in 318.2-ci maddəsinə edilən son dəyişikliklərə görə məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsin hərəkətlərində daha ağır cinayətin əlamətlərinin mövcudluğu müəyyən edildikdə, dövlət ittihamçısının vəsatəti əsasında məhkəmə irəli sürülmüş ittiham üzrə cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və təqsirləndirilən şəxsə başqa

ittihamın irəli sürülməsi məsələsinə baxılması üçün işin ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması barədə əsaslandırılmış qərar çıxarır. Məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsin hərəkətlərində daha ağır cinayətin əlamətlərinin mövcudluğu barədə **zərər çəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin** (qaralama bizə aiddir – müəl.) vəsatəti əsasında məhkəmə bu maddədə nəzərdə tutulmuş qaydada qərar çıxara bilər.

Bu maddəni təhlil etsək, belə nəticəyə gəlmək olar ki, ibtidai araşdırma zamanı formulə olunmuş ittihamı məhkəmə hazırlıq və baxışda zərər çəkmiş şəxs tərəfindən müdafiə edilməməsi mümkündür və zərər çəkmiş şəxs bu hüququnu əsaslandırılmış vəsatətləri ilə həyata keçirə bilir. Fikrimizcə, qərəzsiz və müstəqil məhkəmənin belə bir vəsatəti təmin etməsi imkanının qanunda nəzərdə tutulmasında qeyri-adi heç bir şey yoxdur. Lakin ittihamın daha effektiv müdafiəsini təmin etmək üçün yaxşı olardı ki, irəli sürülmüş ittihamla bağlı zərər çəkmiş şəxsin mövqeyi ibtidai araşdırmada müəyyənləşdirilmiş olunsun və əgər əsaslı bir hal vardırsa, onu məhkəməyədək aradan qaldırılması və ya ittihamın formulə edilməsində nəzərə alınması üçün tədbirlər görülsün. Bu baxımdan fikirləşirik ki, qanunvericilik səviyyəsində olmasa da, ibtidai araşdırmanın zərər çəkmiş şəxsin irəli sürülmüş ittihamla bağlı mövqeyini müəyyənləşdirmək ibtidai araşdırmaya prosessual rəbərliyi həyata keçirən prokurorun taktiki baxımdan vəzifəsi olmalıdır və bu müddəa AR Baş Prokurorun müvafiq əmrində öz əksini tapmalıdır.

Qeyd olunanları ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, zərər çəkmiş şəxsin prosessual funksiyası nə qədər də ittiham olsa, onun öz şəxsi mənafelərinin müdafiəsi ilkin, əsas rola malikdir. Onun bütün prosessual funksiyasının, mövqeyinin əsasında onun şəxsi maraqları durur. İrəli sürülmüş ittihamla razılaşırsa, onun fəlaiyyətini ittiham funksiyasına aid etmək olar, razılaşmadıqda onun funksiyası ittiham olsa da, dövlət ittihamından fərqlənəcək, öz maraqlarını müdafiə etmək funksiyası adlanacaqdır.

**ƏDƏBİYYAT**


1. Qəfərov M.S. Azərbaycan Respublikasının cinayət prosesində şəxsiyyətin hüquqi vəziyyəti: nəzəri və təcrübi məsələlər. Bakı: Qanun, 2008, 340 s. s.125
2. Cinayət mühakimə icraatında zərər çəkmiş şəxsin iştirakını tənzimləyən qanunların tətbiqi haqqında Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 27 dekabr 1996-cı il tarixli 5 saylı qərarı http://supremecourt.gov.az/post/view/134
3. Гавло В.К., Давыдов С.И., Петухов Е.Н. Система обстоятельств (факторов), влияющих на формирование поведения потерпевшего в ходе выполнения возложенных на него уголовно-процессуальных обязанностей // Известия Алтайского Государственного университета, 2016, №3(91), с.38-42, S.40
4. Матузов Н.И., Малько А.В. Теория государства и права: учебник. М.: Юритсть, 2004, 512 с.
5. Парфенова М.В. Процессуальные права потерпевшего и их реализация в досудебных стадиях уголовного судопроизводства; М.: Экзамен, 2006, 191 с., с. 16-23

6. Петрова Н.Е. Частное и субсидиарное обвинение. Самара: Самарский университет, 2004, 213с.
7. Танцерев М.В., Стойко Н.Г. Потерпевший и его функция в уголовном процессе Российской Федерации: Монография / Красноярск, 2003, 101 с., s.56-57
8. Ягофаров С.М. Международные стандарты по правам человека и российское уголовное судопроизводство:учебное пособие Оренбург: Издательский центр ОГАУ, 2006, 91 с. http://kalinovsky-k.narod.ru/b/yago2006/1-2.htm
8.hudoc.echr.coe.int/eng#{"fulltext":["berger"],"documentcollectionid2":["GRANDCHAMBE",CHAMBER"],"itemid":["001-60806"]}
10. http://law.edu.ru/article/article.asp?articleID=1238425

## ПРОЦЕССУАЛЬНАЯ ФУНКЦИЯ ПОТЕРПЕВШЕГО В УГОЛОВНОМ ПРОЦЕССЕ

**Г.Ш.КУЛИЕВА**

**РЕЗЮМЕ**

В ст.87.1 УПК АР потерпевшим признается физическое лицо, в отношении которого имеется достаточно оснований полагать прямое причинение ему морального, физического или материального ущерба деянием, предусмотренным уголовным законом. В уголовном процессе, наравне с разбором прав и обязанностей потерпевшего, одной из важнейших задач является определение его процессуальной функции. В статье разбирается процессуальная функция потерпевшего в уголовном процессе.

**Ключевые слова:** потерпевший, частный обвинитель, уголовное преследование, общественно-частное обвинение, заявитель

## PROCEDURAL FUNCTION OF VICTIMS IN CRIMINAL PROCEDURE

**G.Sh.GULIYEVA**

**SUMMARY**

The Criminal Procedural Code of Azerbaijan (Article.87.1) recognizes an individual a victim when there are sufficient grounds of direct infliction of moral, physical or property damage. In criminal proceedings, along with the analysis of the rights and obligations of the victim, one of the most important tasks is to determine its procedural function. The article deals with the procedural function of the victim in criminal proceedings.

**Key words:** the victim, the private prosecutor, criminal prosecution, public-private prosecution, the applicant

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2017*

**UOT 341.2; 341.231.14**

# BİRLƏŞMƏK HÜQUQU KONTEKSTİNDƏ İNSAN VƏ VƏTƏNDAŞ HÜQUQLARININ SƏRHƏDLƏRİ

**D.M.QƏNBƏROV**
***Bakı Dövlət Universiteti***
***bsu_istuc@rambler.ru***

*Elmi məqalədə insan və vətəndaş hüquqlarının qarşılıqlı nisbət məsələləri təhlil olunur. Öncə qeyd olunur ki, təbii hüquqlar bu iki anlayışın universal əsasını təşkil edir. Əsaslandırılır ki, insan və vətəndaş hüquqları arasında qarşılıqlı əlaqə ilə bağlı müxtəlif baxışlar və yanaşmalar mövcuddur. Qeyd olnur ki, əsas insan hüquqları şəxsi, siyasi, sosial, iqtisadi və mədəni hüquqlara bölünür. Yanaşmaların və baxışların müxtəlifliyinə səbəb kimi ideoloji baxışlar da əhəmiyyətli rol oynayır. Vurğulanır ki, müasir hüquq elmində insan və vətəndaş hüquqları ətrafında vahid bir mövqe yoxdur. Baxmayaraq ki, əksər ölkələrin konstitusiyalarında insan və vətəndaş hüquqlarının sərəhədləri aydın şəkildə qeyd olunub. Konstitusiyaların əhatə dairəsinə görə bəzi hallarda insan hüquqları və bəzi hallarda isə vətəndaş hüquqları kimi ifadələrdən istifadə olunur.*

*Avropa ölkələrinin əksəriyyətinin konstitusiyasında bu iki (insan və vətəndaş) ifadə ümumiləşdirilərək "subyekt" kimi yazılır.*

**Açar sözlər:** hüquq, cəmiyyət, insan hüquqları, vətəndaş hüquqları, konstitusiya, azadlıq, siaysi hüquqlar, mədəni hüquqlar, hüquq sərhədi.

Öncə qeyd edək ki, insan hüquqlarının universal əsaslandırılması əsasən təbii hüquqlara söykənir. İnsan və vətəndaş hüquq və azadlıqlarının təsnifatı ilə bağlı olduqca müxtəlif yanaşmalar mövcuddur. Bununla yanaşı, ümumi qəbul olunan məqam ondan ibarətdir ki, əsas insan hüquqları ənənəvi olaraq şəxsi, siyasi, sosial, iqtisadi və mədəni hüquqlar kateqoriyalarına bölünürlər. Baxışların, nəzəriyyələrin, yanaşmaların və davranışların müxtəlifliyi müvafiq olarq ideoloji rəngarəngliyi şərtləndirir. Bu məqamda informasiya üçün qeyd edək ki, ideologiya dedikdə, ictimai inkişaf qanunauyğunluqlarına və cəmiyyətin təkmilləşdirilməsi yollarına fəlsəfi, siyasi və dini baxışlar sistemi başa düşülür. Müxtəlif ictimai birliklərin mövcudluğu fərdlərin ən müxtəlif tələbatlarını ifadə etməyə və reallaşdırmağa imkan verir. İdeoloji və siyasi plüralizm prinsipi dövlətdə mütləq ideologiyanın və hər hansı bir təşkilatın siyasi hakimiyyətinin həyata keçirilməsinə yol verməməklə yanaşı, həm də xalq hakimiyyətinin mövcudluğunu və əhalinin geniş təbəqəsinin siyasi fəaliyyətə cəlb olunmasını şərtləndirir.

## İnsan hüquqlarının təbiəti

Xüsusi olaraq vurğulamaq lazımdır ki, müasir mərhələdə təbii hüququn mənbəyi kimi insanın təbiəti deyil, insanların sosial həyat şəraitləri, üstünlük verdikləri dəyərlər və mənəvi keyfiyyətlər nəzərdən keçirilir. Hazırkı təbii-hüquqi baxışlar dünyagörüşü ideyallarına söykənirlər ki, bu da hər bir kəsdə fərqli ola bilər. İnsan hüquqlarının hər bir cəmiyyət üzvünün həyatı ilə, bu və ya digər fəaliyyət sahəsində onların özlərini təsdiq və ya reallaşdırmaq imkanları ilə qırılmaz şəkildə bağlı olduğunu əsaslandırmaq üçün əlavə arqumentlərə ehtiyac yoxdur. İnsan hüquqlarının tanınması və qorunması məsələsinin artıq çoxdan milli səviyyənin hüdudlarını aşması ondan xəbər verir ki, bu məsələ qlobal xarakter almışdır. Təsadüfi deyildir ki, milli qanunvericilikdə insan hüquqlarının tanınması və qorunması ilə bağlı olan məqamlar məhz müvafiq beynəlxalq normativ hüquqi aktların təsiri altında formalaşırlar və inkişaf edirlər. Hazırda istənilən cəmiyyətin və dövlətin inkişafını demokratiyasız və insan hüquqları gözlənilmədən təsəvvür etmək qeyri-mümkündür. Müasir dünyada insan hüquqları insanların və cəmiyyətin birliyinin əsas kriteriyası rolunda çıxış edir. Bəşər sivilizasiyansının inkişafının hər bir mərhələsində insanın təbii tələbatlarının nəzərə alınması ilə beynəlxalq və milli qanunvericilik aktlarında insanın və vətəndaşın hüquq və azadlıqları təsbit olunmuşdur. Müasir cəmiyyətlərdə əsas hüquq və azadlıqların gözlənilməsi səviyyəsi cəmiyyətin xarakterini açan əsas göstərici kimi qəbul olunur. Hər bir dövrdə olduğu kimi, müasir dövrümüzdə də insanın əsas hüquq və azadlıqları müəyyən amillərin təsirinə məruz qalır.

Qeyd edə bilərik ki, təbii hüquq kifayət qədər unikal və mürəkkəb ictimai zəruri fenomendir və əsrlər boyu ona olan maraq səngiməmişdir, əksinə, daha da artmışdır. Bununla yanaşı, bu anlayışın mahiyyətini fəlsəfi və hüquqi müstəvilərdə təhlil edərkən, onu insanın təbiətinin diktə etdiyi prinriplərin, ideyaların, mənəvi normaların insanların dəyərlərinin məcmusu kimi müəyyənləşdirmək olar. Bu ideyalar, dəyərlər və normalar hər dövr üçün özlərinin müəyyən xüsusiyyətləri ilə fərqlənmişlər. Bu, yuxarıda qeyd etdiyimz məqamı sübut edir. Yəni təbii hüquqlar daha çox insanların fərqli dünyagörüşləri ilə bağlıdır. Müasir təbii hüquq nəzəriyyələri hüquq və mənəviyyatın ayrılmaz olduğunu əsaslandırırlar. Hüquqla mənəviyyat arasındakı məntiqi və konseptual əlaqə hüququ və mənəviyyatı müəyyənləşdirməyə imakn verir. Azadlıq, ədalət və bərabərlik hüquqların dəyərləri kimi qiymətləndirilir. Yeni nəzəriyyəyə uyğun olaraq, yalnız rəsmi qəbul olunmuş hüquq real hüquq sayılır. Belə olan halda hüquq dövlət və hakimiyyət tərəfindən qəbul olunur, qorunur və qanuni gücə malik olur [6, s.200]. Bu məqamlardan çıxış edərək belə qənaətə gəlmək olur ki, müasir təbii hüquq bərabər subyektlərin azadlığını ifadə edir. Azadlıq, əsasını insanın hüquqları və öhtəliklərinin təşkil etdiyi ədalət prinsipinə söykənir. Beləliklə, təbii hüquq nəzəri və praktiki cəhətdən humanizmlə əsaslandırılan vicdan azadlığı, dözümlülük kimi də nəzədən keçirilə bilər. Humanizm də öz növbəsində təbii hüququn dərk edilməsidir.

## İnsan və vətəndaş hüquqlarının nisbəti

Qeyd etmək lazımdır ki, hüquq elmində insan və vətəndaşın hüquq və azadlıqlarının təsnifatına dair vahid bir yanaşma tapmaq çətindir. Təsnifatın əsaslandırılmasında kifayət qədər müxtəlif yanaşmalara rast gəlmək mümkündür. Bununla yanaşı, ictimai həyatda hüquq və azadlıqların təsnifatının əsaslandırılması kifayət qədər geniş yayılmışdır. Belə əsaslandırmaya görə insan və vətəndaşın konstitusion hüquqları şəxsi, siyasi, sosial, iqtisadi, mədəni və s. kimi təsnif olunur. Tədqiqatçıların əksəriyyəti bu cür yanaşma tərzi ilə razılaşırlar [7, s.68]

Ayrılmaz xarakterli olan və anadangəlmə hamıya məxsus fərdi hüquq və azadlıqlardan fərqli olaraq, siyasi hüquqlar və azadlıqlar vətəndaşlığa malik olmağı tələb edir. Bu fərqi hər şeydən öncə konstitusiya ifadə edir. Belə ki, dövlətin konstitusiyası fərdi hüquqları hamıya aid etdiyi halda, siyasi hüquqları yalnız vətəndaşlara şamil edir. Siyasi hüquq və azadlıqların vətəndaşlıqla bağlı olması, onun ikincidərəcəli əhəmiyyət daşıması kimi qəbul olunmamalıdır. Siyasi hüquqlar azadlıqlar demokratik dövlətin hər bir vətəndaşının təbii hüquqları kimi tanınır. Xalq kimi assosiyasiya olunmuş vətəndaşlar hakimiyyəti həyata keçirirlər. Deməli, müvafiq olar ki, vətəndaşı səciyyələndirən başlıca əlamət ondan ibarətdir ki, o, siyasi hakimiyyətin reallaşdırılmasında birbaşa iştirak edir. Elə siyasi hüquq və azadlıqları fərqləndirən başlıca əlamət də bundan ibarətdir.

İnsan hüquqlarının anadangəlmə və ayrılmaz olması haqqında təbii-hüquqi ideyalar çərçivəsində meydana gəlmiş təsəvvürlər müasir mərhələdə insan və vətəndaş hüquqları haqqında müddəaların əsasında dayanır. Məhz bu ideyalar həm də insanın və vətəndaşın hüquqi statusları haqqında, hüququn aliliyi, vətəndaş cəmiyyəti və hüquqi dövlət haqqında müasir konsepsiyaların əsasında dayanırlar. Müasir dünya dövlətlərinin konstitusiyalarına nəzər salsaq, bu təbii-hüquqi yanaşmanın onlarda tam əskini tapdığını görmüş olarıq. Təbii-hüquqi yanaşmanın mərkəzi tezisi ondan ibarətdir ki, məhz insan, onun hüquq və azadlıqları ali dəyərdir. İnsan hüquq və azadlıqları sahəsində keçmiş zəngin nəzəriyyəsi və praktikası müasir mərhələdə bu istiqamətdə inkişafın məntiqini daha dərindən dərk etməyə imkan verir.

Əsas insan hüquqları təbii, vətəndaş, siyasi, iqtisadi, sosial və mədəni hüquqlara bölünürlər. Əsas insan hüquqlarının bu qruplarının hər birinin ayrı-ayrılıqda səciyyəvi xüsusiyyətlərinin təhlil edilməsi onların mahiyyətinin dərindən dərk edilməsi baxımından olduqca əhəmiyyətlidir.

Qeyd edək ki, dünya ölkələrinin əksəriyyətinin konstitusiyalarında insan hüquqları ilə vətəndaş hüquqları arasında sərhədlər dəqiq müəyyənləşdirilir. Bu konstitusiyaların müvafiq maddələrində nəzərə alınır. Diqqət yetirsək görərik ki, insan hüquqlarının subyektlərini ifadə etmək üçün konkret sözlərdən istifadə olunur. Məsələn, "hər kəs", hər bir insan", "heç kimi", "heç bir insan" və s. Belə sözlər hər kəsə şamil olunur. Eyni səviyyədə həm insan, həm də vətəndaş tərəfindən reallaşdırılan hüquqlar üçün isə "hər" söz daha geniş

tətbiq olunur. Məsələn, Azərbaycan Respublikasının Konstitusiyasının 58-ci maddəsinin birinci bəndində qeyd olunur: "Hər kəsin başqaları ilə birləşmək hüququ vardır." Bundan başqa, Konstitusiyanın eyni maddəsinin ikinci bəndi "Hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir" kimi göstərilmişdir. Bu məqama istinad edərək, həm də vurğulaya bilərik ki, bu kimi ifadələr əsasən siyasi mühitdə və siyasi münasibət sahəsində tətbiq olunur.

Vətəndaşın hüquqlarından bəhs olunan zaman isə, konstitusiyaların mətnində bir qayda olaraq "vətəndaşın hüququ vardı", "vətəndaş edə bilər" kimi ifadələr daha çox işlədilir. Əsasən Avropa ölkələrinin konstitusiyalarına diqqət yetirsək, onların bir çoxunda "vətəndaş" ifadəsinin əvəzinə subyekt milli mənsubiyyətinə uyğun olaraq ifadə edilir. Məsələn, Almaniya Federativ Respublikasının Konstitusiyasında "hər bir alman" ifadəsi işlədilir. Belə olan halda etnik deyil, siyasi-dövlət ümumilik nəzərdə tutulur. Müxtəlif ölkələrin konstitusiyalarında insan hüquq və azadlıqları ilə bağlı məsələlər ənənələrdən, əsas ideologiyadan asılı olaraq fərqli şəkildə həll olunur.

Əsas insan hüquqları kateqoriyasına aid olan vətəndaş hüquqları onun subyektlərinin dövlət tərəfindən qorunan və təminat verilən hüquqlara və öhdəliklərə malik olmasını ifadə edir. Vətəndaş hüquqları pozulduqda onun daşıyıcıları məhkəmə yolu ilə hüquqlarını müdafiə edə bilərlər. Vətəndaş hüquqlarının başlıca səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, dövlətin və bu hüquqların daşıyıcılarının iradəsi ifadə olunur. Dövlət hüquq daşıyıcılarının davranışlarını tənzimləyən qaydaları müəyyənləşdirir. Vətəndaş hüquqları digər əsas insan hüquqları ilə ümumi cəhətlərə malikdir. Vətəndaş hüququ dedikdə, hər bir insanın deyil, yalnız konkret dövlətlə sabit, dayanıqlı hüquqi əlaqəyə malik olan insanların maraqlarının təmin olunmasına istiqamətlənmiş mümkün davranışlarının hüquqi tənzimlənməsidir. İnsan hüquqları isə universal kateqoriyadır. İnsan hüquqları insanın öz təbiətindən irəli gələn elementar, daha vacib rifahlardan istifadə imkanlarını və şəxsiyyətin təhlükəsiz, azad mövcudluğunu ifadə edir [5]. Ümumiyyətlə, vətəndaş hüququnun bir sıra səciyyəvi xüsusiyyətlərini qeyd etmək mümkündür:

-vətəndaş hüquqları bərabər iştirakçıların əmlak və qeyri-əmlak münasibətlərinin tənzimlənməsinin nəticəsi olaraq meydana çıxırlar;

-vətəndaş hüquq münasibətlərinin subyektləri və obyektləri fərqli xarakterlərə malik olurlar;

-pozulmuş vətəndaş hüquqlarının qorunması yalnız məhkəmə yolu ilə həyata keçirilir. Bu zaman məhkəmədə müvafiq iddianın qaldırılması tələb olunur.

İnsanın konstitusion hüquq və azadlıqları sistemində siyasi hüquqlar xüsusi yerə malikdirlər. Siyasi hüquqların əsas səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, dövlət bu hüquqların reallaşdırılması prosesinə müdaxilə etməməlidir [3, s.32]. Dövlət insanın siyasi hüquqlarının ancaq qorunması ilə məşğul ola

bilər [2, s.55]. Qeyd edək ki, siyasi hüquqların mahiyyəti və elementləri haqqında çoxsaylı yanaşmalara rast gəlmək mümkündür. Tədqiq etdiyimiz yanaşmaları ümumiləşdirərək, qeyd edə bilərik ki, insan istənilən halda bu və ya digər dövlətin vətəndaşıdır, cəmiyyətin üzvüdür və müvafiq olaraq, siyasi prosesin iştirakçısıdır. Bununla da, hər bir vətəndaş bu və ya digər səviyyədə dövlətə və cəmiyyətin siyasi həyatına müxtəlif üsullar və metodlarla təsir edir. Təbii ki, bu metodların və üsulların yaranmasını bəşəri təcrübə şərtləndirmişdir. Cəmiyyətin maraqlarının təmin olunması üçün onun hər bir üzvünün dövlət fəaliyyətinə cəlb olunması zərurəti meydana çıxır. Bu iştirakçılığı təmin etmək üçün isə vətəndaşlara müəyyən hüquqlar sistemi verilməlidir. Həyat fəaliyyətinin müəyyən sahələrində dövlətin səlahiyyətləri məhdudlaşdırılmalıdır. Belə sahələrdən biri rolunda siyasət çıxış edir. Siyasi hüquqlar sisteminə dövlət işlərində iştirak etmək, informasiya əldə etmək, seçki hüququ, müraciət hüququ, birləşmək hüququ, söz və fikir azadlığı, sərbəst toplaşma və s. hüquqlar daxildir [1, s.110]. Siyasi hüquqlar vətəndaş-cəmiyyət-dövlət qarşılıqlı münasibətlərinin vacib məqamlarını ifadə edirlər. Vətəndaşın bu münasibətlər sistemində maraqlarının təmin olunması istiqamətində fəaliyyət göstərməsini məhz siyasi hüquqlar şərtləndirir.

Qeyd edək ki, insan və vətəndaş hüquqları arasında sərhədlərin müəyyənləşdirilməsi imkanlarının olmasına baxmayaraq, onların ikisi kifayət qədər oxşar məqamları əhatə edirlər. Məsələn, onları aşağıdakı kimi nəzərdən keçirmək mümkündür:[9]

-yaşamaq hüququ;

-bərabərlik hüququ;

-azadlıq hüququ;

-toxunulmazlıq hüququ və s.

Sosial-iqtisadi və mədəni hüquqlar insanın və vətəndaşın sosial-iqtisadi və mənəvi sferalarda vəziyyətini müəyyənləşdirir. Bu hüquqların ümumi əsas insan hüquq və azadlıqları sistemində yerini və rolunu müəyyənləşdirən zaman nəzərə almaq lazımdır ki, onlar da insanın digər əsas hüquq və azadlıqları ilə qırılmaz şəkildə bağlıdırlar. Bu, o deməkdir ki, insan hüquqları sistemində daha əhəmiyyətli və az əhəmiyyətli hüquqları fərqləndirmək cəhdləri yalnışdır. Müvafiq olaraq, əsas insan hüquq və azadlıqları sisteminin digər elementləri kimi sosial-iqtisadi və mədəni hüquqlar kifayət qədər ciddi əhəmiyyət kəsb edirlər. Nəzərə almaq lazımdır ki, bu hüquqlar Ümumi insan hüquqları deklarasiyasında aydın ifadəsini tapmışlar [8]. Əlavə olaraq 1966-cı ildə qəbul olunmuş "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" beynəlxalq paktda və digər beynəlxalq sənədlərdə bu hüquqlar əks olunmuşlar [4, s.48]. Sosial-iqtisadi və mədəni hüquqlar özlərinin bir sıra səciyyəvi xüsusiyyətlərinə malikdirlər. Hər şeydən öncə vurğulamaq lazımdır ki, onlar özlərinin hüquqi məzmunlarına görə kifayət qədər fərqlidirlər. Belə ki, onların bəziləri mahiyyətləri etibarilə birbaşa fəaliyyət hüququ kimi nəzərdən keçirilir. Digəriləri isə subyektiv hüquqları ifadə edirlər. Bunların konkret məzmunu qüvvədə olan sahə qanun-

vericiliyində ifadəsini tapır və s. Sosial-iqtisadi və mədəni hüquqların vacib səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, onlar vətəndaşlıqdan asılı olmayaraq hər bir insana şamil olunur. Bir sıra hüquqların təsbit olunması birbaşa müvafiq öhdəliklərin müəyyənləşdirilməsi ilə bağlı olur.

Ayrı-ayrı ölkələrin konstitusiyalarındakı oxşar məqamlardan çıxış edərək, qeyd edə bilərik ki, konkret olaraq iqtisadi, hüquq və azadlıqlar sahibkarlıq, iqtisadi və əmək fəaliyyətinin digər formalarının sərbəstliyini (azadlığını) təmin edirlər. Bu hüquqlar kateqoriyasına aşağıdakı hüquqlar aid olunurlar:

-şəxsi mülkiyyət və vərəsəlik;

-torpaqdan və digər təbii resurslara sahib olma, istifadə etmə və onun üzərində sərancam vermə;

-azad sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq;

-əmək və əməyə görə mükafatlandırma;

Əsas insan hüquqları sistemində mühüm yer tutan sosial hüquqlar və azadlıqlar vətəndaşların layiqli həyat təminatına və onların bazar sisteminin neqativ amillərindən müdafiə olunmasına yönəlmişdir. Demək olar ki, dünya ölkələrinin əksəriyyətinin konstitusiyalarında aşağıdakı sosial hüquq və azadlıqlar təsbit olunmuşdur:

-təminatlı olaraq əməyin minimal həddinin ödənilməsi;

-işsizlikdən müdafiə;

-yaş həddinə görə sosial təminat;

-səhhətin qorunması və tibbi yardım;

-istirahət;

-təhsil;

-mənzilə sahib olma və s.

Mədəni hüquqlar və azadlıqlar insanın və vətəndaşın sərbəst inkişafını şərtləndirir. Mədəni hüquqlarla ayrıca götürdükdə sosial hüquqlar arasında ciddi eynilik vardır. Belə ki, bu hüquqlar kompleksinə də təhsil almaq, ədəbi, bədii, elmi-texniki və digər yaradıcılıq növləri ilə məşğul olmaq, mədəni dəyərlərə çıxış, mədəni həyatda iştirak və bu kimi hüquq və azadlıqlar daxildirlər.

## Nəticə

Beləliklə, apardığımız təhlillərə əsasən qeyd edə bilərik ki, əsas insan hüquqlarının təsnifatı şərtidir və yalnız müəyyən kriteriyalar əsasında mümkündür. Bu hüquqların başlıca səciyyəvi cəhətlərindən biri də ondan ibarətdir ki, onlar arasındakı sərhədlər kifayət qədər şəffafdır. Belə olan halda bu sərhədləri müəyyənləşdirmək olduqca çətin olur. Apardığımız tədqiqatlar sübut edir ki, eyni hüquq və azadlıq bir neçə hüquqlar kateqoriyasına aid edilə bilər. Xüsusilə də sosial və mədəni əsas insan hüquqları arasındakı sərhədlər ciddi mübahisələrə səbəb ola bilər. Formalaşması xarakterinə görə hüquq və azadlıqlar əsas və əlavə hüquqlar kimi nəzərdən keçirilir. Daşıyıcılarından asılı olaraq insan və vətəndaş hüquq və azadlıqları sərhədləndirilir. Subyektlərin növlərindən asılı olaraq fərdi və kollektiv hüquqlar, məzmununa görə şəxsi, siyasi, iqtisadi,

sosial və mədəni hüquqlar fərqləndirilirlər. Əsas insan hüquqları sisteminə daxil olan şəxsi, siyasi, iqtisadi, sosial və mədəni hüquqlar hüquq elmi çərçivəsində daha müntəzəm müzakirə obyekti olmaqdadır. Bütün əsas insan hüquq və azadlıqları fəaliyyət sferalarına müvafiq olaraq müəyyən sistem formalaşdırırlar. Bu fəaliyyət sferaları da dəqiq sərhədlərə malik deyillər və onların ümumi qəbul olunmuş təsnifat şərti xarakter daşıyır. Müvafiq olaraq, ayrı-ayrı fəaliyyət sahələrinə aid olan hüquq və azadlıqlar kifayət qədər oxşardırlar. Bu baxımdan, əsas insan hüquqları və azadlıqları məsələsi ətrafında elmi müzakirələrin, mübahisələrin hələ uzun müddət davam edəcəyini proqnozlaşdırmaq mümkündür.

## ƏDƏBİYYAT


1. Афанасьева С.А. Классификация политических прав и свобод человека и гражданина // Вестник Московского городского университета. Серия: Юридические науки, 2008, №2, с.110-112
2. Бабай А. Н., Колташов А.И., Нарутто С.В. Права человека и гражданина. Хабаровск, 2005, 432 с.
3. Князева И. О месте политического права граждан России нс свободу собраний в системе прав и свобод человека.//Юридическая наука, 2011, №4, с. 32-33
4. Киричёк Е. В. Социально-экономические и культурные права и свободы важнейший элемент конституционно-правового положения (статуса) человека и гражданина в Российской Федерации//Юридическая наука и правоохранительная практика, № 1, (19), 2012, с. 48-57
5. Конституционное право граждан на объединение//http://lektsii.net/2-71027.html
6. Польщикова Л.А. Философия естественного права в гуманистической педагогике// Вестник Красноярского государственного педагогического университета им. В.П.Астафьева. 2011. № 4 (18), с.196- 202
7. Beliakovich N.N. Human Rights and Politics: Philosophic and Legal Basis. Minsk: Amalfeia Publ., 2009, 412p.
8. The Universal Declaration of Human Rights //http://www.un.org/en/universal-declaration-human-rights/index.html (müraciət tarixi: 11.03.17)
9. http://www.grandars.ru/college/pravovedenie/prava-cheloveka.html (müraciət tarixi: 03.05.2017)


## ГРАНИЦА ПРАВА ЧЕЛОВЕКА И ГРАЖДАНИНА В КОНТЕКСТЕ ОБЪЕДИНЕНИЕ


**Д.М.ГАНБАРОВ**


## РЕЗЮМЕ


В научной статье определяется соотношение права человека и гражданина. Прежде всего, отмечается, что универсальное обоснование опирается на естественные права. Обосновывается, что о соотношении прав человека и гражданина существуют множества взглядов и подходов. Основные права человека делятся на личные, политические, социальные, экономические и культурные. Разнообразия подходов и взглядов обуславливает, соответственно, идеологическое разнообразие. Отмечается, что в правовой науке отсутствует единый подход к соотношению права человека и гражданина. Несмотря на это, в конституциях большинства стран четко определяется граница права человека и гражданина. Это учитывается в определенных уровнях конституции. Для

обозначения субъектов права человека используется конкретные слова. Для обозначения права гражданина применяется, в основном, слово «гражданин». В конституциях европейских стран часто употребляется слово «субъект».

**Ключевые слова:** право, общество, права человека, гражданские права, конституция, свобода, политические права, культурные права, правовые ограничения.

## LIMITS OF HUMAN AND CITIZEN RIGHTS IN THE CONTEXT OF THE RIGHT TO UNITE

**D.M.GANBAROV**

**SUMMARY**

The article defines the ratio of human and citizen rights. First of all, it is noted that universal justification relies on the natural rights. It is proved that there are sets of views and approaches about the ratio of human and citizen rights. Fundamental human rights are divided into the personal, political, social, economic and cultural rights. A variety of approaches and views causes respectively an ideological variety. It is noted that in legal science there is no uniform approach to the ratio of human and citizen rights. Despite this fact, in the constitutions of the majority of the countries the limit of human and citizen rights is accurately defined. This is considered in certain levels of the constitution. For the expression of the subjects of the human rights there are used specific words. The word "citizen" is used to express the right of the citizen generally. The constitutions of the European countries often use the word "subject".

**Key words:** right, society, human rights, civil rights, constitution, freedom, political rights, cultural rights, the legal limit.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Sosial-siyasi elmlər seriyası 2017*

UOT 343.1

# AZƏRBAYCAN RESPUBLİKASI CİNAYƏT PROSESİNİN FORMASI

**Z.N.ƏZİMOV**
***Bakı Dövlət Universiteti***
***phd82@mail.ru***

*Məqalədə Azərbaycan Respublikası cinayət prosesinin forması problemi araşdırılır. Hüquq ədəbiyyatında cinayət prosesinin çəkişmə, inkivizision və qarışıq formaları fərqləndirilir. Məqalədə Azərbaycan Respublikası cinayət prosesinin formasının xarakterik cəhətləri təhlil olunur.*

**Açar sözlər:** maddi həqiqət, hüququn prinsipi, çəkişmə, sübutetmə, məhkəmə baxışı, silahların bərabərliyi, prosessual forma.

Hər bir ölkənin hüquq sistemində mövcud olan ədalət mühakiməsi sistemi və buna uyğun hüquqi tənzimetmə mexanzmi uzun illər ərzində bir-biri ilə zəncirvari şəkildə bağlı olan müxtəlif faktorların təsiri ilə formalaşır və hüququn ayrı-ayrı formal mənbələrində və tətbiqi prosesində təzahür edir. Müvafiq hüquq sahəsinin formalaşması üçün uzun bir tarixi proses keçir, şübhəsiz ki, bu prosesdə hüquq sisteminin elementlərinin qarşılıqlı əlaqəsi də mühüm rol oynayır və yekunda onun ayrı-ayrı institutlarını özündə birləşdirən işlək mexanizmləri yaranmış olur. Tarixi inkişaf prosesində formalaşan hüquq sistemi və onun tərkib hissəsi olan cinayət-prosessual hüququn formalaşmasına təsir edən faktorlardan müəyyənedici rol hansı faktora məxsusdursa, həmin faktor daha əhəmiyyətli olur və hüquq sisteminin xarakterini müəyyən edir. Hüququn sahələrə bölgüsü tarixi bir prosesdir və əksərən ictimai münasibətlərin tarixi inkişafı zaminində xüsusi tənzimetmə predmeti və metodu ilə fərqlənir. Daima inkişaf edən və dəyişən ictimai münasibətlərin tənzimlənməsi zərurəti ölkənin cinayət-prosessual hüququnda onun ayrı-ayrı institutlarının, ümumilikdə müvafiq hüquq sahəsinin təkmilləşdirilməsi üçün bu hüquq sahəsinin xarakterinin, cinayət prosesində isə onun xarakterik, mahiyyət əlamətlərini özündə birləşdirən forması barədə yekun nəticəyə gəlmək zəruri vəzifələrdən biridir. Milli cinayət prosesinin forması barədə əsaslandırılmış nəticənin çıxarılması müasir dövrdə cinayət – hüquqi siyasətdə həyata keçirilməsi zəruri olan islahatların istiqaməti üçün də əhəmiyyətlidir. Bu baxımdan məqalədə Azərbaycan cinayət prosesinin forması barədə elmi ədəbiyyatda söylənən fikirlər və de lege lata qanunvericiliyin ayrı-ayrı müddəalarının sistemli

təhlilinə əsaslanmaqla cinayət prosesinin ideal bölgüsü və bu bölgü əsasında Azərbaycan cinayət prosesinin formasını müəyyən edəcək, bu zaman tarixi və morfoloji tipologiyanın ayrı-ayrı cəhətlərini diqqətdə saxlayacağıq. Azərbaycan cinayət prosesinin tipinin müəyyən edilməsi nəzəri və təcrübi baxımdan onun inkişafına mühüm təsir göstərə biləcək əsas prolemlərdən biridir.

Hüquq ədəbiyyatında cinayət prosesinin forması anlayışı onun tipologiyasının bir elementi kimi nəzərdən keçirilir və cinayət prosesinin tarixi tipləri, ideal formaları və morfoloji tipləri kimi təsnifatı həyata keçirilir. Bu təsnifatlarla bağlı onun ayrı-ayrı növləri arasında əlaqə mövcuddur, onların fərqləri təsnifat meyarı ilə bağlıdır.

Cinayət prosesinin tipologiyası çərçivəsində onun tarixi, ideal formaları və morfoloji tipləri fərqləndirilsə də, son iki növ bölgü meyarının hər ikisinin əsasında onun tarixi tiplərinin yaranması və inkişafı ilə bağlı meydana çıxan fərqlər dayanır. Belə ki, cinayət prosesinin ideal formaları və morfoloji tipləri çərçivəsində onun ayrı-ayrı növlərinin xüsusiyyət və cəhətləri məhz tarixi inkişaf zəminində yaranmış, inkişaf etmiş və formalaşmışdır. Buna görə də, cinayət prosesinin forması anlayşını aydın başa düşmək üçün onun tarixi tiplərinin formalaşması prosesinə geniş yer ayırmağı doğru sayırıq.

Hüquq yarandıqdan bəri onun tərkib hissəsi kimi cinayət prosesinin ayrı-ayrı dövrlərdə özünə məxsus xarakterik cəhətləri olmuşdur. Cinayət-prosessual hüququn tarixi qədimlərə gedib çıxsa da, kontinental hüquq sisteminin formalaşması Qədim Roma hüququnun ressepsiyası dövründən, XIX əsrdən formalaşmağa başlamışdır. Qeyd edək ki, cinayət prosesinin formasına (model, tipinə) müəyyənedici təsir göstərən faktorlara aşağıdakıları aid etmək olar:

1. Cəmiyyətdə siyasi qüvvələrin yerləşməsini də xarakterizə edən siyasi rejim, şəxsiyyətin sosial azadlığının səviyyəsi, onun hüquqları, azadlıqları və qanuni maraqlarının müdafiəsi;

2. ümumi və hüquqi mədəniyyətin səviyyəsi;

3. cəmiyyətin etik quruluşu;

4. ümumilikdə cəmiyyətin və hakimiyyət qollarının sosial-hüquqi yetkinlik dərəcəsi (7).

Cinayət prosesinin forması qanunun ruhundan irəli gələn və onunla müəyyən olunan bir anlayışdır. Monteksyenin qanunun ruhunun formalaşmasına təsir göstərən faktorlar kimi kimi göstərdiyi elementlərin cinayət prosesi formasına da təsir göstərdiyini müşahidə etmək olar. Mütəfəkkirə görə "qanunlar dövlət idarəetməsi, ölkənin iqlimi, xalqın həyat şəraiti, varlılığı, dini, sayı, həvəsi, ticarəti, adət-ənənələri, nəhayət, özlərinin bir-biri ilə yaranması şəraiti, qanunvericinin məqsədləri, onların təsdiq olunduğu şeylərin quruluşu ilə şərtlənir və qarşılıqlı əlaqədədirlər" (14). Mütəfəkkir müxtəlif pozitiv qanunların fərqliliyini qeyd olunan fiziki və mənəvi faktorlarla izah edirdi. Ona görə də cinayət prosesinin forması məsələsində nəticəyə gəlmək üçün onun təbiri ilə desək, qanunun özünü yox, onun ruhunu tədqiq etmək zəruridir. Cinayət pro-

sesinin forması məhz cinayət prosessual qanunvericiliklərin tarixən müxtəlif faktorların təsiri altında formalaşan ruhundakı fərqliliklərdən irəli gəlir.

Cinayət prosesinin tarixən formalaşan uzun müddət ərzində dəyişikliyə məruz qalsa da, özünün əsas xüsusiyyətlərini qoruyub saxlayan aşağıdakı növləri fərqləndirilir. 1. Çəkişmə cinayət prosesi. 2. İnkvizisiya (axtarış) cinayət prosesi. 3. Qarışıq cinayət prosesi.[1]

Cinayət prosesinin çəkişmə forması onun ən qədim forması adlandırılır. Tarixi qaynaqlardan məlumdur ki, hələ Qədim Yunanıstanda mövcud olan məhkəmə prosesi özünün xarakterik əlamətlərinə görə çəkişmə (ittiham) formasında həyata keçirilirdi.

Azad vətəndaşların işlərinə baxan bütün məhkəmələrdə proses çəkişmə xarakterli idi: tərəflərin haqları bərabər idi, sübutların təqdim edilməsi ilə bağlı vəzifələr daşıyırdılar, müstəqil məhkəmə işi adətən səsvermə yolu ilə həll edirdi. Mühakimə icraatında çəkişmə özünün aşkar şəkildə ittihamın quruluşunda büruzə verirdi. Cinayət işləri də daxil olmaqla bütün işlər iki növə bölünürdü: dövlət, hansı ki, dövlət maraqlarına toxunan işlərə aid idi və kiminsə şəxsi maraqlarına toxunan özəl işlər. Dövlət marağına toxunan işlər üzrə prosesi istənilən vətəndaş başlaya bilərdi, özəl prosesi isə yalnız maraqlı şəxs və ya onun qanuni nümayəndəsi başlaya bilərdi. Onu da qeyd etmək lazımdır ki, dövlət və özəl proses bir-birindən ciddi şəkildə fərqləndirilmirdi, prosesin bu və ya digər növünün seçimi daha çox ittihamçıdan asılı idi. İlkin feodalizm cəmiyyətində ittiham özəl təşəbbüs əsasında həyata keçilir və məhkəmə icraatı ittiham və təqsirləndirilən şəxs arasında çəkişməsinə əsaslanırdı. Dövlət hakimiyyəti gücləndikcə cinayət təqibini həyata keçirmək təşəbbüsü tədricən vəzifəli şəxslərin əlinə keçmiş oldu. İngiltərə istisna olmaqla tədricən əksər Avropa ölkələrində dövlət fərdlərin ittiham fəaliyyətinin həyata keçirilməsi ilə bağlı hüquqlarını məhdudlaşdırmaq üçün ayrı-ayrı tədbirlər görürdü (16, s.6,8). Sonda bu gətirib ona çıxardı ki, ictimai mənafelərlə bağlı bütün işlərdə cinayət təqibini yalnız dövlət həyata keçirmək hüququ əldə etdi və bu səlahiyyət mühakimə icraatının quruluş və onun xarakterində özünü büruzə verdi.

Çəkişmə cinayət prosesinin özünə məxsus bir çox mühüm əlamətləri vardır ki, onlar məcmu şəklində çəkişmə cinayət prosesini xarakterizə edir. Əslində çəkişmə prosesini inkvizisiya prosesindən fərqləndirən kifayət qədər fərqlər sadalamaq olar. Bu fərqlərin hamısını heç də çəkişmə prosesini xarakterizə edən mühüm əlamətlər kimi göstərmək olmur. Bu cəhətlər sırasında eləri mövcuddur ki, onlar əsas ideya rolunda çıxış edərək çəkişmə cinayət prosesini digər proses formalarından fərqləndirir və onun özünəməxsusluğunu əmələ gətirir. Fikrimizcə, bu sırada aşağıdakıları qeyd etmək olar.

1. Məhkəmə baxışı iki mübahisə edən ittiham və müdafiə tərəfinin mövcudluğu ilə müəyyən olunur.

---

[1] Çəkişmə cinayət prosesini tarixi tip kimi ittiham prosesi, inkvizisiya cinayət prosesini axtarış prosesi kimi adlandırırlar.

2. Hakimin sübutların toplanmasında rolu passivdir, aktiv rol tərəflərə məxsusdur. İttiham və müdafiə tərəflərinin hüquqları bərabərdir, yəni həm ittihamı müdafiə edən dövlət ittihamçısı, həm də müdafiə tərəfi məhkəmə baxışında fərqli xüsusi statusa və səlahiyyətlərə malik deyildir, onların təqdim etdiyi sübutlar eyni qüvvəyə malikdir, yalnız məhkəmə baxışında tədqiq edildikdən sonra sübuti əhəmiyyət kəsb edir. Məhkəməyədək əldə olunan materiallar məhkəmə baxışında tərəflərin iştirakı ilə tədqiq edilmədikcə sübut hesab olunmur.

3. Məhkəmə baxışının əsas vəzifəsi bərabər, mənafeləri əsasən uyğun olmayan tərəflər arasında cinayətlə bağlı yaranan mübahisənin həllidir, sosial kompromisə nail olmaqdır.

Çəkişmə cinayət prosesinin fərqli cəhətlərdən biri kimi məhkəməyədək icraatın cinayət prosessual hüquq münasibətləri sferasına aid olmaması göstərilir. Hesab edirik ki, onun bu cəhətini müəyyənedici cəhət kimi nəzərdən keçirmək olmaz. Belə ki, çəkişmə cinayət prosesində məhkəməyədək icraat cinayət-prosessual hüquqa aid olmasa da, qitə hüquq sisteminə aid olan Almaniyada da, məhkəməyədək icraat inzibati hüquq çərçivələrinə aid olunur. Burada cinayət prosesi əsasən bu sxem əsasında təşkil olunmuşdur. Rəsmi doktrinaya görə dövlətin cinayət prosesi yalnız məhkəmədə mövcud ola bilər. Polis və digər dövlət orqanlarının hərəkətləri cinayət-prosessual fəaliyyət kimi qəbul edilmir. Eyni zamanda bu “inzibati yurisdiksiyanın” nəticələri prosessual sübutlar kimi istifadə oluna bilər. Bu polis istintaqının proseduru hissəvi qanunla, məhkəmə qaydaları və presedentlərlə tənzimlənir. Ümumilikdə onlar zəif şəkildə formallaşdırılmışdır. Bu polis araşdırması müdafiəçinin iştirakına baxmayaraq bariz axtarış formasında həyata keçirilir. Barəsində araşdırma aparılan şəxs məhdud hüquqlarının olmasına baxmayaraq araşdırmanın obyekti qismində çıxış edir. Hakimin bu mərhələdə iştirakı polis orqanları tərəfindən bəzi prosessual məcburiyyət tədbirlərinin, ayrılıqda həbs qətimkan tədbirinin tətbiqi qanuniliyi üzərində nəzarəti həyata keçirir (7). Məhz ona görə də məhkəməyədək icraatın mövcud olmamasını yalnız çəkişmə cinayət prosesinə aid olan cəhət kimi nəzərdən keçirmək olmaz.

Bununla yanaşı, çəkişmə cinayət prosesini təmsil edən İngiltərə cinayət prosesinin əsas fərqləndirici cəhəti kimi təqsirin etirafının cinayət prosesində xüsusi yeri, apellyasiyanın özünəməxsus cəhətləri, məhkəməyədək mühakimə icraatının və polis təhqiqatının təşkilində olan fərqlər, zərərçəkmiş şəxsin hüquqi statusundakı fərqləri göstərmək olar (18).

Çəkişmə cinayət prosesinin əsas vəzifəsi cinayətlə bağlı irəli sürülən iddianın həlli və bu zaman tərəflərin bəraərliyinə (equality of arms) əməl olunmasının zəruri şərt olduğunu nəzərə alsaq, burada icraatın taleyi məhkəmə baxışının tərəflərinin iradəsindən asılıdır. Hətta cinayət törədilmiş olsa belə, ictimai mənafeni müdafiə edən prokuror ictimai iddianı (ittihamı) müdafiə etməkdən imtina etmək qərarına gəlsə və ya ittihamı irəli sürməsə cinayət prosesinin gedişi onun iradəsinə uyğun olaraq yekunlaşacaqdır. Məhz buna görə də ci-

nayət təqibi üzrə məhkəmədə həyata keçirilən icraat mahiyyət etibarilə iddia icraatından əsaslı şəkildə fərqlənmir.

Çəkişmə cinayət prosesi formasında cinayət mühakimə icraatının quruluşu tarixən məhz bu məqsədin realizəsinə uyğun olaraq qurulmuş, dövlətin mühakimə icraatına müdaxiləsi minimum səviyyədə olmuşdur. Belə bir vəziyyətin yaranması tarixi-coğrafi şərtlərlə bağlıdır. Məlumdur ki, İngiltərəyə ada dövləti kimi qurudan müdafiə olunmaq ehtiyacı olmadığı üçün ordu saxlamaq zəruri deyildi və bu, faktiki olaraq adada kralın hakimiyyətinin zəifliyinə gətirib çıxarmışdır ki, nəticədə kral aristokrat təbəqə ilə kompromisə getmək, razılaşmaq məcburiyyətində qalmışdı. Həmin kompromisi bitərəf məhkəmə qərarı yaradırdı. Heç şübhəsiz ki, bu hal özlüyündə məhkəmələrin mərkəzi hakimiyyətin siyasi təsirindən kənarda qalması və dövlətin mühakimə icraatına güclü müdaxiləsinin olmamasına gətirib çıxarmış, sonrakı dövrlərdə çəkişmə cinayət prosesinin özünün qədimlərdən bəri qalan əsas xüsusiyyətlərini qoruyub saxlaya bilmişdir. Məhz bu səbəbdən orta əsrlər dövründən Qitə Avropasında dövlətin cinayət mühakimə icraatına müdaxiləsi getdikcə genişləndiyi halda İngiltərədə bu proses əksinə gedirdi. Yəni mərkəzi hakimiyyət zəif olduğu üçün İngiltərə cinayət prosesində dövlətin müdaxiləsi azalır və məhdudlaşırdı.

Tərəflərin çəkişməsinə əsaslanan cinayət prosesi tipi çərçivəsində cinayət mühakimə icraatının həll olunması zəruri olan məsələlər məhz "bərabər silahlara" (equality of arms) malik olan tərəflərin çəkişməsi aspektindən həll edilmiş və cinayət prosesi iştirakçılarının mənafeləri ilə bağlı ayrı-ayrı məsələlər hüquqi tənzimetmədən kənarda qalmamışdır. Cinayət prosesinin bu tipi anlayışların ən qədimi kimi sadə anlayış olaraq insan mənafeyinin təmin edilməsinin asan qavranılan və cəlbedici üsuludur. Burada dövlət (məhkəmənin timsalında) mühakimə icraatında iştirakla bağlı məhkəmə baxışında tərəflərə bərabər imkanlar tanısa da, bu silahlardan istifadə edilməsinə qarışmır və bununla bağlı tərəflərə köməklik etmir, onların qeydinə qalmır. Hətta keyfiyyətli hüquqi yardımla bağlı pozitiv öhdəliklərinə də dövlət məhz bu fəlsəfi yanaşma əsasında həll edir.

Çəkişmə cinayət prosesinin qeyd olunan cəhətləri onu təsdiqləməyə əsas verir ki, bu cinayət prosesi tipi siyasi sistemi sağ ideoloji yanaşma əsasında formalaşan dövlətlərin hüquq sistemində mövcud ola bilir. Avropa İnsan Hüquqları Məhkməsinin presedent hüququnda ədalətli məhkəmə araşdırmasının tərkib elementi kimi tərəflərin çəkişmə imkanlarının mövcudluğu (equality of arms) zəruri tələbərindən biri sayılır və buna görə də müasir dövrdə bütün Avropa dövlətlərində çəkişmə təzahürlərinin mövcud olmadığı cinayət prosesi mövcud ola bilmir. Amma cinayət prosesinin forması kimi çəkişmə cinayət prosesindən danışarkən tarixən formalaşmış özünəməxsus xüsusiyyətləri olan cinayət prosesinin müstəqil növü nəzərdə tutulur. Cinayət prosesinin bu tipində cinayət mühakimə icraatının struktur quruluşu tam şəkildə cinayət prosesinin tərəflərinin çəkişməsinə əsaslanır. Qeyd edək ki, bu cinayət prosesinin forması

ümumilikdə ədalət mühakiməsi və məhkəmə hakimiyətinin hüquq sistemindəki yeri və rolundan irəli gəlir.

Çəkişmə cinayət prosesi forması yalnız anqlo-sakson hüquq sistemin malik olan ölkələrdə mövcud ola bilər. Rəhbər müddəalar, əsas məqsəd və təyinat və bunlara uyğun olan struktur baxımından roman-german hüquq sisteminə malik olan dövlətlərdə çəkişmə cinayət prosesi forması mövcud ola bilməz. Buna klassik nümunə kimi İngiltərə və ABŞ cinayət prosesini göstərmək olar. Bu iki dövlətin cinayət prosesi nə qədər eyni formaya malik olub bir qrupa daxil edilsə də, onlar arasında kifayət qədər fərqlər müşahidə etmək mümkündür.

İnkvizisiya cinayət prosesi xristianlığın güclü təsiri altında yaranmış və formalaşmışdır. Yarandığı ilkin dövrlərdə inkvizision-axtarış cinayət prosesi xoş niyyətli və daha ədalətli sayıla bilərdi. XIII əsrin əvvəllərində kilsənin təzyiqi ilə qədimlərdən bəri mövcud olan ordaliyalar aradan qalxmağa başladı. Katolik kilsəsi 1215-ci ildə ordaliyaları lənətlədi, bununla da, Avropada ordaliyalar dövrü sona çatdı. Qitə Avropası kilsədən örnək götürərək kilsənin günah işlətmiş ruhanilərə qarşı istifadə etdiyi inkvizisiya-axtarış tədbirlərinin həyata keçirilməsi üzrə fəaliyyəti mənimsədi. Bu axtarış etibarlı adamlara tapşırılırdı, onlar faktları toplayır, şübhəli şəxsi sorğu-sual edir və ancaq bu faktlar, əksərən təqsirləndirilən şəxsin öz təqsirini etiraf etdiyi ifadələri əsasında şəxsin təqsirli, yaxud təqsirsiz olduğuna qərar verirlirdi. Bundan fərqli olaraq orta əsrlərdə İngiltərədə buna bənzər proses getmədi, təqsirləndirilən şəxsin təqsirləndirildiyi cinayətin baş verdiyi yerdən bir qrup vətəndaşı məhkəməyə çağırır, onlara and içdirərək "təqsirlidir ya təqsrli deyil?" sualına cavab verməyə məcbur edirdilər. İngiltərədə andlı iclasçılar institutu məhz belə yaranmışdı. Beləliklə, İngiltərədə cinayət prosesinin əvvəlki ittihamedici xarakteri dəyişməmiş qaldı. Məhkəmə işi araşdırmır, sadəcə onun qarşısında irəli sürülmüş ittihamı dinləyir və bunun əsasında şəxsin təqsirli olub-olmamasına qərar verirdi. Təəccüblü deyil ki, bu gün də ingilis ədəbiyyatlarında çəkişmə modeli ilə eyni mənada ittihametmə anlayışı da işlənir. İlkin olaraq, Avropa inkvizisyon modeli daha mütərəqqi, ingilis modeli isə olduqca geridəqalmış idi. Lakin inkvizisyon sistemdə işgəncənin sistemli xarakter alması, sübutların kifayət etmədiyi təqdirdə, işgəncə yolu ilə təqsirləndirilən şəxsi öz təqsirini boynuna almağa məcbur etmək, yəni işgəncənin cinayət prosesinin qanuni bir elementinə çevrilməsi bu sistemin tənəzzülünə səbəb oldu. Anqlo-sakson modeli isə əksinə irəliyə doğru gedirdi. Burada artıq tərəflərin məhkəməyə şahid çağırmasına belə icazə verilirdi. İngiltərədə məhkəmənin nüfuzunu artıran digər bir səbəb isə onun təbəələri, sadə vətəndaşları kralın özbaşınalıqlarından qoruması idi. Əgər Avropada inkvizisiya modeli vasitəsilə məhkəmə hakimiyyəti kraldan asılı idisə və kral öz düşmənlərini məhkəmə vasitəsilə cəzalandıra bilirdisə, İngiltərədə məhkəmə müstəqil idi və kralın göstərişlərinə tabe deyildi (18, s.3). Zaman keçdikcə inkvizisiya cinayət prosesində xüsusi (özəl) əsasları nəzərə alınmadan ic-

timai xarakter aldı, məhkəmə baxışında tərəflər anlayışı tamamilə aradan qalxdı.

Orta əsrlərdə mövcud olan inkvizision-axtarış cinayət prosesinin aşağıdakı cəhətlərinin olduğu ilə razılaşmaq olar:

1. cinayət işləri üzrə icraat zamanı hüquqi tənzimetmənin inzibati metodu tətbiq olunur;

2. cinayət təqibi, müdafiə və cinayət işinin həlli funksiyaları bir orqanın səlahiyyətlərinə aiddir;

3. prosesin hərəkət mənbəyi özünü qanunun tələbləri, göstərişlərində ifadə edən dövlətin iradəsidir;

4. təqsirləndirilən şəxs tədqiqatın obyekti kimi çıxış edir, dövlət və onun xüsusi orqanları tərəfindən idarəetmə obyekti kimi nəzərdən keçirilir;

5. təqsirləndirilən şəxs müəyyən çərçivədə hüquqlara malik olsa da, onların realizəsi dövlətin axtarış orqanının mülahizəsindən asılıdır;

6. tərəflərin müstəqilliyi olmadığı üçün cinayət prosesində tərəflərin bərabərliyinə və çəkişməsinə ehtiyac qalmır;

7. müasir anlamında sübutetmə ibtidai səviyyədədir və ya cinayət prosesində təqsirləndirilən şəxsin etirafı müəyyənedici və əsas rol oynayan formal sübutlar sistemi qüvvədədir;

8. təqsirləndirilən şəxsə təqsirin etirafını əldə etmək üçün döymə, işgəncə və s. formalara fiziki zorakılıq tətbiq olunur (7).

İnkvizision cinayət prosesinin əsas ideyası icraatı həyata keçirən şəxs kimi (ex officio – xidməti öhdəliyinə görə) tərəflərdən biri passiv arbitr kimi deyil, maddi (obyektiv) həqiqətin müəyyən edilməsi məqsədilə eyni zamanda həm ittihamedici, həm də bəraətverici sübutları toplamalı, daha sonra toplanmış sübutları qiymətləndirərək işi müstəqil şəkildə həll etməyə imkan yaratmaqdan ibarət idi. Burada prosessual funksiya bölgüsündən, tərəflərdən söhbət gedə bilməzdi. Bütün səlahiyyətlər və funksiyalar faktiki olaraq məhkəmə müstəntiqinin əlində cəmləşmişdi. Qanunverici hər bir sübutun hüquqi qüvvəsini əvvəllcədən müəyyən etməklə a priori hər bir sübutun qiymətləndirilməsi qaydasını əvvəlcədən müəyyən etmişdi. Hakimə qanunun müəyyən etdiyi formal qaydalar əsasında toplanmış və qiymətləndirilən sübutları "leyhinə" və "əleyhinə" kimi təsdiqləməkdən başqa çıxış yolu qalmırdı, onun sübutların məzmununu müstəqil qiymətləndirmək imkanı yox idi. Belə bir sistem formal sübutlar nəzəriyyəsi adlanırdı (11, s.133-134).

Böyük Fransa Burjua İnqlabından sonra formal sübutlar nəzəriyəsinə əsaslanan inkvizision-axtarış cinayət prosesində maddi həqiqət nəzəriyyəsi ilə əvəz olundu. İş üzrə qərarın qəbulu üçün əsas meyar sübutların mahiyyəti əsasında yaranan hakimin daxili inamı sayılmağa başlandı. İnkvizision-axtarış cinayət prosesinin yarandığı dövrdən bəri əsas fərqləndirici cəhəti onun məqsədinin baş vermiş hadisə ilə bağlı sübutlar əsasında təsbit olunan həqiqətin müəyyən edilməsi və ya axtarılmasıdır. Aydındır ki, bu, kilsənin araşdırma nü-

munəsinin təsiri ilə bağlı idi. Allaha aid olan təsisat kimi kilsə öz istənilən fəaliyyəti qarşısında həqiqəti müəyyən etmək məqsədini qoyması məntiqli idi.

Qeyd olunanlar gətirib ona çıxartdı ki, zaman keçdikcə inkvizisiya ideyası cinayət prosesinin quruluşunun, həmçinin məhkəmə mərhələsi də daxil olmaqla, cinayət mühakimə icraatında tərəflərin çəkişməsi prinsipinin kontinental anlayışına təsir göstərən texnik-hüquqi metodu olmaqla tədricən roman-german Avropasında siyasi anlamda mənfi çalarını itirdi ("inkvizisiya tonqlı", işgəncə, "sübutların şahı" və s.). Məsələnin mahiyyəti ondan ibarətdir ki, kontinentdə cinayət prosesinin əsas həlledici prinsiplərindən biri kimi obyektiv həqiqətin müəyyən edilməsi prinsipi qəbul olunur. Publik hakimiyyətin nümayəndəsi kimi məhkəmə bütün mümkün prosessual üsullarla həqiqətin müəyyən olunmasına nail olmalı və müvafiq olaraq cinayət cəzası hər hansı mülahizələrlə "mübahisədən imtina edən şəxsə" deyil, cinayətin törədilməsində gerçəkdə təqsirli olan şəxsə verilməlidir. Belə olduğu halda məhkəmə tərəflərin mövqeyi (tərəflərin mövcudluğu şübhə altında qoyulmur və s., tərəflərin çəkişməsindən imtinadan söhbət getmir), onların sübutların təqdim edilməsində aktivlik dərəcəsi ilə bağlı olmamalıdır. Məhkəmə, adətən mübahisənin olub-olmamasından asılı olmayaraq, həqiqəti müəyyən etmək və işi mahiyyəti üzrə həll etmək üçün öz təşəbbüsü ilə sübut toplamaq səlahiyyətinə malikdir (8, s.186-187).

Başqa sözlə, işlə bağlı obyektiv həqqətin müəyyən edilməsi ideyası inkvizision cinayət prosesi ideyasının əsas mayasını təşkil edir, bununla onun xarakterini müəyyən edir, məhkəmə hakimiyyətinin səlahiyyət hədlərini, cinayət prosesinin quruluşunu, onun təyinatını, prinsip və vasitələrinin müəyyən olunasında aparıcı rol oynayır.

"Cəmiyyət inkişaf etdikdə axtarış prosesi daha da müasirləşir və burjua **inqilabları dövründə ictimai-çəkişmə mühakimə icraatına keçid** olur. Bu, cinayət prosesinin demokratik cəmiyyətə və onun formasına – hüquqi dövlətə, hansı ki, vətəndaşa bərabər tutulur, uyğun olan müasir tipidir. Bu zaman məhkəmə mərhələlərində çəkişmə dominant rol oynayır, əsas fərq **məhkəməyədək icraatla** (qaralamalar bizə aiddir – müəl.) əlaqədardır" (10). Hesab edirik ki, inkvizision və çəkişmə cinayət prosesi ilə bağlı əsas anlaşılmazlıq məhz buradan başlayır. Çəkişmənin dominant rolunu müdafiə edənlərin belə bir yanaşmasını müşahidə etmək olur ki, sanki inqilablar dövründə orta əsrlərdə inkvizisiya mənfi cəhətləri ilə bağlı tam yox oldu və bundan sonra cinayət prosesi əsas etibarilə çəkişmə xarakteri aldı. Yaddan çıxarmaq olmaz ki, hüquq anlayışdır, o uzun müddət ərzində yaranır, birdən-birə tam şəkildə dəyişə, sıçrayış edə və xaraktercə özünün əksi olan məzmununa çevrilə bilməz. Bu, təcrübi olaraq mümkün deyil. Müəllif daha sonra inkvizision cinayət prosesinin klassik nümunəsi olan Almaniya cinayət prosesi barədə bildirir ki, müasir alman cinayət prosesi 1987-ci il redaksiyasında AFR CPM məhkəməyədək icraatın keyfiyyətcə yeni sistemini nəzərdə tutur. Orada ibtidai istintaq mövcud deyildir. İbtidai araşdırmanı prokurorun rəhbərliyi ilə polis həyata keçirir və tez-tez

əməliyyat-axtarışla qarışaraq özünü axtarış xarakterində büruzə verir. Eyni zamanda polis məhkəmə sübutları formulə etmir və məhkəməsiz məcburiyyət tədbirlər tətbiq etmir. Sübutların qanuniləşdirilməsi və həbsin sanksiyalaşdırılması müdafiəçinin iştirakı ilə sahə hakimi tərəfindən çəkişmə formasında həyata keçirilir. O, işi öz icraatına götürmədən tərəflərin vəsatəti ilə ibtidai araşdırmada yalnız epizodik şəkildə iştirak edir. Nəticədə sahə hakimi cinayət təqibinin nəticələrinə görə məsuliyyət daşımır, daha doğrusu, ittiham funksiyasından müstəqil olaraq qalır (10). Maraqlıdır ki, çəkişmə cinayət prosesinin nümunəsi olan İngiltərə cinayət prosesində də məhkəməyədək icraat cinayət prosessual hüquq münasibətləri çərçivəsində tənzimlənmir. Buradan belə bir nəticə hasil etmək olur ki, inkvizision cinayət prosesinin klassik nümunəsi olan Almaniya cinayət prosesinin özü də məhkəməydək icraat olmadığı halda asanlıqa çəkişmə cinayət prosesinə bariz nümunə kimi göstərilə bilər. Aydındr ki, müəllif çəkişmə cinayət prosesinin əsas əlamətlərini, sistem müəyyənedici ideyasını yaddan çıxarmışdır. Məsələ orasındadır ki, inkviziya cinayət prosesi tipi çərçivəsində cinayət prosesinin bütün quruluşu, strukturu həqiqətin müəyyən edilməsi prinsipi əsasında qurulur, deyilənlər ələlxüsus məhkəmə baxışına aid olan hissədə özünü aşkar şəkildə büruzə verir. Yəni alman cinayət prosesində məhkəmə baxışını tərəflərin çəkişməsi prinipi əsasında xarakterizə etmək (və ya çəkişmənin həqiqətin müəyyən edilməsi müddəası ilə bağlı ictimai-çəkişmə kimi xarakterizə etmək məsləyə daha çox çəkişmə baxımından yanaşma kimi qəbul edilə bilər) əsaslı sayıla bilməz. Nəzərə alsaq ki, "maddi həqiqət" anlayışı Fransa, Almaniya, Belçika, İsveçrə, Hollandiya və bu sıraya uyğun olaraq kontinental cinayət prosesini iki sözlə ifadə etməyə imkan verən prosessual idiomadır (12, s.23), onda bu ölkələrin cinayət proseslərinin maddi həqiqətin müəyyən edilməsi prinsipi əsasında qurulduğunu və çəkişmə deyil, müasir inkvizisiya cinayət prosesi kimi xarakterizə etmək olar. Çəkişmə cinayət prosesində həqiqətin müəyyən edilməsi mərkəzi prinsip ola bilməz, belə bir hal prosesin əsas ideyasına uyğun gələ bilməz.

Unutmaq olmaz ki, keyfiyyət predmetin xarakterik əlamətlərinin sistemi, xarici və daxili müəyyənliyidir ki, bunları itirdikdə predmet özü olmaqdan çıxır. Predmetin müəyyənedici keyfiyyət əlamətləri nisbi stabilliyə malikdir. Məhz həmin əlamətlərə görə predmetlər uzun müddət ərzində əslində olduqları kimi qala bilirlər. Lakin şeylərin mahiyyəti əbədi deyildir (15, s.238).

Hələ vaxtikən Monteksye deyirdi ki, cinayət prosesinin formalarında vətəndaşın təqsirsizliyi mühafizə olunmursa, azadlıq da mühafizə olunmamış olur (13, s.318). Ona görə də istənilən cinayət prosesi formasında insan hüquq və azadlıqları mühafizə olunması əsas tələblər sırasında çıxış edir. Müvafiq insan hüquq və azadlıqlarının təminat mexanizmi cinayət prosesinin forması və quruluşuna uyğun olmadıqda onların realizə mexanizmi effektiv olmur.

Cinayət prosesinin formaları arasında qəti sədd çəkmək, onların bir-birindən keçilməz sədlərlə ayrıldığını iddia etməyin yanlış olduğunu qəbul etsək də, onların sistemli şəkildə bir-birindən əhəmiyyətli dərəcədə fərqləndiyini,

onların mayasının və hüquqi təbiətinin eyniliyini və ya fərqlənmədiyini iddia etməyin də yanlış olduğunu xüsusi olaraq vurğulamaq istərdik.

Qarışıq cinayət prosesi forması ikili xarakterə malik olub, həm inkvizisiya (axtarış), həm də çəkişmə ünsürlərini özündə birləşdirir. Bu formalı cinayət prosesində cinayət iş üzrə məhkəmə icraatı zamanı cinayət təqibini həyata keçirən dövlət orqanları özlərinin dövlət-hakimiyyət səlahiyyətlərini itirirlər və ittiham tərəfinin nümayəndələri qismində çıxış edirlər. Müdafiə tərəfi isə məhkəmə icraatında ittiham tərəfi ilə analoji hüquqlara malik olur. Qarışıq xarakterli cinayət prosesində ibtidai istintaq mərhələsi mövcuddur və məhz həmin mərhələ axtarış başlanğıcına, məhkəmə baxışı isə çəkişmə başlanğıcına əsaslanır (5, s.30-31).

Qarışıq cinayət prosesi tipinin mərkəzi ideyası ondan ibarətdir ki, ibtidai istintaq inkvizision başlanğıclara, məhkəmə baxışı isə ittiham-çəkişmə başlanğıclarına əsaslansın və bununla da iki model arasında ağlabatan kompromis tapılsın (11, s.138). Qarışıq cinayət prosesinin əsas cəhəti ibtidai istintaq və məhkəmə baxışında əsas başlanğıcların fərqləndirilməsi olsa da, müəllifin də daha sonra bununla bağlı qeyd etdiyi kimi, qarışıq cinayət prosesində inkvizision və çəkişmə başlanğıclarının bütün əsas cəhətləri qoruyub saxlamadı. İbtidai istintaqın inkvizision xarakteri təqsirləndirilən şəxsin müdafiə hüququnu istisna etmirdi. Lakin ibtidai istintaqda tərəflər, prosessual funksiyalar bölgüsü yoxdur, müdafiəçinin iştirakı səlahiyyətli orqanların işləri hərtərəfli, tam və obyektiv araşdırmaqla həqiqəti müəyyən etmək vəzifəsindən azad etmir. Məhkəmə baxışının ittiham-çəkişmə xaraker alması hakimi "passiv orbitr"ə çevirmir. Hakim əvvəlki kimi aktiv qalır, öz təşəbbüsü ilə sübutlar toplayır, sübutları tədqiq edir və s. Başqa sözlə, hakimin fəaliyyəti daha çox mübahisənin həllinə deyil, iş üzrə maddi həqiqətin müəyyən edilməsnə istiqamətlənmişdir (11, s.139).

Cinayət prosesinin ideal forması barədə danışarkən əsas meyarlardan biri kimi bərabərhüquqlu tərəflərin müstəqil məhkəmə qarşısında mübahisəsinin olub-olmaması dayanır. Əgər belə bir mübahisə mövcuddursa, müvafiq cinayət prosesi çəkişmə cinayət prosesinə, mövcud deyildirsə, onda inkvizisiya cinayət prosesinə aiddir. Əgər belə mübahisə prosesin müəyyən mərhələ və institutlarında vardır, bəzilərində isə yoxdursa, belə cinayət mühakimə icraatı qarışıq formaya aid olunur. İdeal tipologiya əsasında üç cinayət prosesi tipi fərqləndirilir: çəkişmə, axtarış və qarışıq (10). Bu kontekstdə belə bir məsələ diqqəti cəlb edir ki, bəzi ölkələrin cinayət prosesində ibtidai araşdırma cinayət prosessual fəaliyyətə aid edilmir və cinayət-prosessual qanunvericiliklə tənzimlənmir. Məsələn, Almaniya cinayət prosesində. Almaniyada tarixən formalaşmış qarşısında maddi həqiqətin müəyyən edilməsi dayanan cinayət prosesi modeli mövcuddur.

İbtidai istintaq cinayət prosesinin keçmiş inkvizision, indiki qarışıq modeli üçün xarakterikdir. Onun mövcudluğu məsələsi bu və ya digər dövlətin cinayət prosesinin formasını müəyyən edirsə (9, s.129), bu halda sual yaranır

ki, belə ölkələrdə cinayət prosesi hansı modelə aid olacaq? Fikrimizcə, kontinental cinayət prosesinin qarışıq cinayət prosesi olduğu barədə fikir ilə əsaslandırması doğru olmadığı üçün razılaşmaq olmaz. Zərurət olmadan uzun əsrlərdən bəri mövcud olan anlayışları inkar etməyə lüzum yoxdur.

Məhkəmə baxışında çəkişmə imkanlarının mövcudluğu Avropa Konvensiyasının ədalətli araşdırma hüququnun tərkib elementidir. Həm ibtidai araşdırma, həm də məhkəmə baxışında tərəflərin çəkişməsinin zəruri tələb kimi ifadə edən müddəaları Ruiz-Mateos İspansiya qarşı (1993, 55,57 paraqraflar), Vidal Belçikaya qarşı (1992, 32-35 paraqraflar), Şenk İsveçrəyə qarşı (1988) və sair işlərdə rast gəlmək olar. Xüsusilə həbs qətimkan tədbirlərinin seçilməsi prosesində equlity of arms tələbinin təmin olunması əsas müddəalardan biridir. Həmçinin nəzərə almaq vacidir ki, müasir dövrdə, demək olar ki, heç bir Avropa ölkəsi cinayət prosesinin milli qanunvericiliklə yanaşı ümumavropa prinsiplərinin mövcudluğu faktını mübahisələndirmir. Gerçəklikdə Avropa hüquqşünaslığının daha qiymətli təcrübəsi ondan ibarətdir ki, cinayət prosesinin heç bir modeli ittiham, inkvizision və ya qarışıq konvensiya əsasında AİHM-in nəzarətindən kənar qala bilməz ki, bu konvensiya cinayət-prosessual sənəd kimi qəbul olunmasa da, prosesin həyata keçiriləsi metodlarının yaxınlaşdırılmasına gətirib çıxaracaqdır. Məhz bu baxımdan hesab edirik ki, ibtidai araşdırmanın inkivizision xarakter daşıması ilə bağlı qeyd olunan fikirlər də şərti xarakter daşıyır. Bu baxımdan qarışıq cinayət prosesi ideyasının əsas arqumenti o qədər də əsaslı görünmür.

Elmi ədəbiyyatda belə bir ideya ilə razılaşmaq lazım gəlir ki, qarışıq cinayət prosesi modelində məhkəməyədək icraatda çəkişmə elementlərinə yol verilir və onun aşağıdakı növləri fərqləndirilir:

1. Təhqiqat, ibtidai istintaq və məhkəmə mərhələlərindən ibarət olan qarışıq icraat. Burada təhqiqat prokurorun rəhbərliyi ilə polis tərəfindən həyata keçirilir. O, axtarış xarakteri daşıyır. İbtidai istintaq hakimi tərəfindən həyata keçirilir. Prokuror təhqiqat materialları əsasında ittihamı başladıqdan sonra istintaq hakimi işi öz icraatına götürür. Məhkəmə müstəntiqi prokuror tərəfindən başlanmış ittiham həddində cinayət işi üzrə həqiqətin müəyyən edilməsi üçün müstəqil şəkildə bütün istintaq hərəkətlərini həyata keçirir. Tərəflər (prokuror və müdafiəçi) istintaq hərəkətlərinin həyata keçirilməsində iştirak etmək hüququna malikdirlər. İbtidai istintaqın nəticələrinə görə məsuliyyət istintaq hakiminin üzərinə düşür. Buna misal kimi İtaliya, Portuqaliya və s. ölkələri cinayət prosesini göstərmək olar.

2. Təhqiqat və məhkəmə mərhələsindən ibarət olan qarışıq icraat. Bu növ qarışıq cinayət prosesində məhkəməyədək icraat polis və ya prokuror təhqiqatı çərçivəsində həyata keçirilir. İstintaq hakimi orada epizodik şəkildə iştirak edir. Bir qayda olaraq istintaq hakimi şəxsi azadlıqların və ya dövlətin konstitusiyası ilə təminat verilən insan və vətəndaş hüquqları və azadlıqlarının məhdudlaşdırılması ilə bağlı olan istintaq hərəkətlərini məcburi şəkildə həyata keçirir, həmçinin cinayət işi üçün əsaslı sübutların rəsmiləşdirilməsinə yönələn hərə-

kətləri yerinə yetirir. Hakim tərəfindən istintaq hərəkətləri həyata keçirilərkən tərəflər də burada iştirak edə bilər. Almaniya cinayət prosesi əsasən bu sxem əsasında təşkil olunmuşdur. Rəsmi doktrinaya görə bu dövlətlərin cinayət prosesi yalnız məhkəmədə mövcud ola bilər. Polis və digər dövlət orqanlarının hərəkətləri cinayət-prosessual fəaliyyət kimi qəbul edilmir. Eyni zamanda bu "inzibati yurisdiksiyanın" nəticələri prosessual sübutlar kimi istifadə oluna bilər. Bu polis istintaqının proseduru hissəvi qanunla, məhkəmə qaydaları və presedentlərlə tənzimlənir. Ümumilikdə onlar zəif şəkildə formallaşdırılmışdır. Bu polis araşdırması müdafiəçinin iştirakına baxmayaraq bariz axtarış formasında həyata keçirilir. Barəsində araşdırma aparılan şəxs məhdud hüquqlarının olmasına baxmayaraq araşdırmanın obyekti qismində çıxış edir. Hakimin bu mərhələdə iştirakı polis orqanları tərəfindən bəzi prosessual məcburiyyət tədbirlərinin, ayrılıqda həbs qətimkan tədbirinin tətbiqi qanuniliyi üzərində nəzarəti həyata keçirir (7).

Fransada ibtidai istntaqın inkvizision xarakterinin dəyişdirilməsi ilə bağlı həyata keçirilən islahatlar da, məhz bu zəmində olmuşdur. Bununla bağlı hüquq ədəbiyyatında göstərilir ki, "fransız ibtidai istintaqının təhlili onun iki əsas xüsusiyyətinin olduğunu deməyə əsas verir. Birincisi, müasir dövrədək ibtidai istintaqın təşkilinin inkvizisiya modelinin saxlandığıdı ki, bu özünü fəaliyyətində müxtəlif funksiyaları birləşdirən istintaq hakiminin mövcudluğunda büruzə verir. Belə ki, istintaq funksiyasına, təqsirləndirilən şəxsin vəziyyətini yaxşılaşdıran, həm də bəraət verən sübutların toplaması, həmçinin bu sübutların qiymətləndirilməsi də daxil olmaqla onlar əsasında hüquqi əhəmiyyətli müxtəlif məsələlər barədə qərar qəbul etmək səlahiyyətini əhatə edən yuristiksion funksiyaya aiddir. İkincisi, əsas inkvizisiya ideyasına toxunmadan müasir hüquqi dövlət ideyasına cavab verəcək şəkildə çəkişmə başlanğıclarının inkişaf etdirilməsidir. Sonuncu özünü müdafiəçinin ibtidai istintaqda geniş şəkildə iştirakı, ibtidai istintaqın II mərhələnin mövcudluğu (bu mərhələdə tam mənada çəkişmə mövcuddur), dövlət orqanlarının hərəkət və qərarlarından şikayət vermək imkanın mövcudluğu və s. İbtidai istintaqın inkişafı 4 yanvar – 24 avqust 1993-cü il tarixləri istisna olmaqla Fransa cinayət prosesi ikinci istiqamət üzrə inkişaf etmişdir. Nəticə olaraq bu islahatlar ibtidai istintaqda inkvizision xüsusiyyətlərin zəiflədilməsi hesabına çəkişmə xüsusiyyəti artmasına gətirib çıxartmalı idi. Lakin islahatı nəzərdə tutan qanun layihəsini hazırlayanlar belə bir seçimi etmədilər. Bir qanunun başqa bir qanunla əvəz edilməsi islahata gətirib çıxaracağı demək deyildir... Real hüququ tapmaq hüquqşünasın vəzifəsidir... Bu ölkənin hüququ nə İngiltərənin hüququ, nə idrakın xəyali konstruksiyası, nə də laboratoriya təcrübəsidir. Bu böyük Ordonansdır (burada Fransada inkvizision prosesin əsasını qoyan 1640-cı il qanunu nəzərdə tutulur), ki, onu ləğv etmək mümkün deyildir. Ordonansın tərəfdarlarına qalib gəlmək mümkün deyildir. İnkvizision ideyaların ruhunda olmayan istənilən islahat məğlubiyyətə məhkumdur" (9, s.126).

Hüquq ədəbyyatında da ibtidai araşdırma mərhələsində çəkişmə başlanğıclarının mövcudluğu təhlil edilmiş və ibitdai araşdırmada, xüsusən təqsirləndirilən şəxsin müdafiə hüququnun təmini kontekstində AİHM-in mövqeyi çəkişmə elementlərinin realizəsini tələb dir. Məsələ orasındadır ki, artıq tam mənasında ibtidai araşdırma üçün də inkvizision xarakterli cəhətini qeyd etmək olmur. Yeri gəlmişkən məhkəməyədək araşdırmanın cinayət prosesinə aid edilmədiyi çəkişmə cinayət prosesinin mövcud olduğu İngiltərəsində də bu araşdırmanın tərəflərin çəkişməsi şəraitində həyata keçdiyini qeyd etmək mümkün deyildir. Orada mövcud olan habeas korpus akt qaydaları azadlıq hüququnun məhdudlaşdırılması ilə bağlı Avropa Konvensiyasının 5-ci maddəsinin tələbindən irəli gələrək qitə hüquq sistemində də mövcuddur.

Deyilənlərə yekun vuraraq belə bir nəticəyə gəlmək olar ki, müasir dövrdə inkvizision və qarışıq cinayət prosesi modelləri arasında göstərilən fərqlər onların mahiyyəti barədə qəti nəticəyə gəlmək üçün yetərli sayılmır.

Cinayət prosesinin formasının fərqləndirilməsi barədə müəyyənedici əsas meyar onun mərkəzi ideyası, mayasını təşkil edən əsas məqsədidir. Çəkişmə cinayət prosesində belə ideya kimi məhkəmə baxışında tərəflərin prosessul vasitələrinin bərabərliyinə (equality of arms) əsaslanan tərəflərin çəkişməsidir. İnkvizision cinayət prosesində belə bir ideya kimi maddi həqiqətin müəyyən edilməsi məqsədidir. Qarışıq cinayət prosesində isə belə ideya ikiyə bölünür, məhkəmə baxışında tərəflərin çəkişməsi, məhkəməyədək icraatda isə həqiqətin müəyyən edilməsi məqsədi mövcud olur.

Azərbaycan Respublikası cinayət prosesinin forması ilə bağlı milli hüquq ədəbiyyatında müxtəlif yanaşmalar mövcuddur.

a) AR Konstitusiya Məhkəməsinin "Cinayət-Prosessual Məcəlləsinin 43.1.1, 314.2-ci maddələrində nəzərdə tutulmuş "dövlət ittihamçısı və xüsusi ittihamçı cinayət təqibindən imtina etdikdə" müddəasının şərh edilməsinə dair 15 fevral 2008-ci il tarixli qərarında xüsusi rəydə qalan hakimlər milli cinayət prosesinin forması barədə belə bir fikir ifadə etmişlər: "Dövlət müstəqilliyinin bərpasından sonra... qitə Avropası hüquq sisteminin əhəmiyyətli təsiri altında formalaşmış yeni CPM Azərbaycan Respublikası Milli Məclisi (Parlament) tərəfindən qəbul olunmuşdur. Ölkəmizdə mövcud cinayət prosesini qarışıq formaya (növə) aid etmək olar. Məhkəməyədək icraat mərhələsində bu prosesdə axtarış prosesinin elementləri vardır. Lakin məhkəmə icraatı mərhələrində çəkişmə prosesinə xas olan məhkəmə baxışının demokratik prinsipləri açıq-aşkar ifadə olunur (açıqlıq, proses iştirakçılarının hüquq və azadlıqlarının məcburi təminatı, tərəflərin çəkişməsi və s).

Məhkəmə baxışında cinayət təqibi məhkəmədə təqsirləndirilən şəxsə qarşı irəli sürülmüş ittihamın mövcudluğu əsasında həyata keçirilir.

Cinayət prosesinin xüsusiyyətləri qanunvericinin cinayət mühakimə icraatının prinsip və əsas şərtlərində əksini tapan iradə ifadəsinin, eləcə də qitə Avropası hüquq sistemində qəbul olunmuş cinayət-prosessual hüququnun müddəalarını əks etdirməklə bir-biri ilə bağlı olan prosessual normaların

müəyyən konstruksiya üzrə qurulmasının nəticəsidir." Rəydə daha sonra göstərirlər ki, "həqiqətən ədalət mühakiməsinin ən mühüm şərtləri bərabər dəyərə malik aşağıdakılarda ifadə olunur: bütün obyektiv mümkün olan versiyaların diqqətli yoxlanılması; iş üzrə mütləq müəyyənləşdirməli olan bütün halların aydınlaşması; bu vəzifəni yerinə yetirməyə imkan verən sübutlar məcmusunun toplanılması; bütün faktiki materialın qərəzsiz və vicdanlı araşdırılması; təqsirləndirilən şəxsi həm ifşa edən və ya ona bəraət verən, həm də onun məsuliyyətini ağırlaşdıran və ya yüngülləşdirən bütün halların nəzərə alınması."(3).

Elmi ədəbiyyatda ifadə olunmuş mövqeyə görə Azərbaycan Respublikasının cinayət prosesi qarışıq tipə aid olduğundan, daha doğrusu, anqlo-sakson və fransız modelləri arasında aralıq yer tutduğundan, tədqiqi edilən məsələdə onlardan hər hansı birinin mövqeyini tam şəkildə qəbul etmək düzgün olmazdı. Məlum olduğu kimi, fransız cinayət prosesi modeli axtarış (inkvizisiya) prosesinin əsasında, anqlo-sakson modeli xüsusi-iddia əsasları ilə inkişaf etmişdir (6, s.78). AR-in cinayət prosesi qarışıq cinayət prosesi formasına daha çox uyğun gəlsə də, cinayət mühakimə icraatının əhəmiyyətli hissəsi çəkişmə başlanğıcına söykənir (5, s.31).

Başqa bir fikrə görə "həqiqi çəkişmə aşağıdakı sualların nəzəri və qanunvericilik qaydasında irəli sürülməsini və həll edilməsini tələb edir: 1. Çəkişmə prinsipinin əsas təynatı formal-hüquqi baxımdan prosessual funksiyaların fərqləndirilməsindən, yoxsa ədalət mühakiməsinin məqsədlərinə nail olmaqdan ibarətdir? 2. Çəkişmə cinayət prosesinin forması, yoxsa prinsipi kimi nəzərdən keçirilməlidir? 3. Əgər çəkişmə cinayət prosesinin formasıdırsa, onun prinsipləri hansılardır? 4. Məhkəmənin rolu müəyyən edilərkən prosessual funksiyaların qəti fərqləndirilməsi, yoxsa ədalət mühakiməsinin məqsədlərindən çıxış edərək müəyyən olunmalıdır? 5. Qeyri-demokratik rejimlərdə həqiqi çəkişmə mümkündürmü?" Müəllif bildirir ki, qeyd olunan məsələlərin hərtərəfli və yekun həllindən sonra ictimai hüquq düşüncəsi, milli adət və ənənələrinin böyük hissəsi ilə şərtlənən detallar barədə danışmaq olar (15, s.236).

Nəzərə alsaq ki, hüquq ilk növbədə ictimai şüurla bağlıdır və hüququn mahiyyəti məhz şüurda oturuşmuş anlayışlarla bağlıdır, onda çəkişmə prinsipi ilə bağlı məsələdə məhz ictimai hüquq düşüncəsindən birinci olaraq çıxış etmək daha əhəmiyyətli və zəruridir. Ona görə də müəllifin ictimai hüquq düşüncəsini, milli adət və ənənələrin ikinci planda olması, əsas məsələnin çəkişmə prinsipi ilə bağlı nəzəri və qanunvericilik məsələlərinin həllinin olması fikri ilə razılaşmırıq.

Azərbaycan cinayət prosesinin forması barədə elmi ədəbiyyatın və hüquqtətbiqi təcrübənin təhlili onu deməyə əsas verir ki, əksər mövqe ondan ibarətdir ki, Azərbaycan cinayət prosesi prosesin qarışıq tipinə və ya kontinental Avropa modeli adlandırılan fransız cinayət prosesinə uyğun gəlir. Qüvvədə olan cinayət-prosessual qanunvericiliyin qarışıq modelə aid edilməsinin əsas səbəbi cinayət prosesinin ibtidai araşdırma mərhələsində inkvizision elementlərin, məhkəmə mərhələsində isə çəkişmə başlanğıclarının mövcudluğudur.

Yuxarıda da qeyd etdyimiz kimi, qarışıq cinayət prosesində məhkəməyədək mərhələdə çəkişmə prinsipi mövcud olmur və ya başqa sözlə, çəkimə prinsipinin təzahürləri mövcud olmur. Məsələn, İsveçrə cinayət-prosessual qanunvericiliyi məhkəmə mərhələsində cinayət mühakimə icraatı iştirakçılarını çəkişmə prinsipinə uyğun olaraq məhkəmə və tərəflərə bölür. Məhkəməyədək mərhələdə tərəflər anlayışı yoxdur, CPM-in 104.1(c) maddəsi ilə prokurorluq cinayət prosesinin tərəfi kimi təsbit olunmamışdır. Məhz buna görə İsveç cinayət prosesi qarışıq cinayət prosesi tipinə aid olunur (17, s.81-82).

Bununla bağlı qüvvədə olan AR CPM-in bəzi müddəalarına nəzər yetirdikdə bunun tam əksini müşahidə etmək mümkündür. CPM-in 7.0.21-ci maddəsinə görə ittiham tərəfi dedikdə birlikdə götürülmüş **təhqiqatçı, müstəntiq, prokuror,** (qaralama bizə aiddir – müəl.) həmçinin zərər çəkmiş şəxs, xüsusi ittihamçı, mülki iddiaçı başa düşülür. Buna uyğun olaraq "İttiham tərəfi" adlanan 8-ci fəsildə də prokuror, müstəntiq və təhqiqatçının prosessual statusu 84, 85 və 86-ci maddələrdə təsbit olunmuşdur. Başqa sözlə, ibtidai araşdırma mərhələsində prosessual fəaliyyəti həyata keçirən təhqiqatçı, müstəntiq və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror çəkişmə prinsipinin tələblərinə uyğun olaraq ittiham funksiyasını həyata keçirmiş olur. Bu həm də o deməkdir ki, məhkəməyədək mərhələdə də çəkişmə prinsipi təsbit olunur, tərəflər və posessual funksiyalar bölgüsü mövcuddur. Buna görə də qüvvədə olan qanuna əsaslansaq Azərbaycan cinayət prosesini daha çox çəkişmə başlanğıclarının mövcud olduğu cinayət prosesinə aid etmək olur. Eyni yanaşma məhkəmə mərhələsində də təsbit olunmuşdur.

Məsələ orasındadır ki, məhkəmə baxışının hədləri hissəsində çəkişmə prinsipinin tələblərinə uyğun olaraq məhkəmə baxışının irəli sürülən ittiham həddində həyata keçirildiyi göstərilsə də, məhkəmənin öz təşəbbüsü ilə sübut toplamaq səlahiyyəti, həm də vəzifəsi kimi təsbit olunmuşdur. İş üzrə məhkəmə baxışının həqiqəti məyyən etməsi tələbi Azərbaycan Respublikası hüquq sistemində ədalət mühakiməsinin konstitusion prinsipləri sırasında yer almışdır. Həmçinin CPM-in 28-ci maddəsində də eyni müddəanı görmək olar. Məhkəmənin sübutları öz təşəbbüsü ilə toplamaq səlahiyyəti həqiqətin müəyyən edilməsi məqsədinin, işə verilən ittiham həddində baxılması, dolayısı ilə ittihamın məhkəmə tərəfindən ağırlaşdırılmasıın yolverilməzliyi də, çəkişmə prinsipinin tələbidir. Buradan çıxan məntiqi nəticə ondan ibarətdir ki, iş üzrə həqiqəti ortaya çıxarmaq üçün sübutlar toplayan məhkəmə müvafiq sübutlarla müəyyən etdiyi həqiqətə uyğun olan qərarı müstəqil şəkildə qəbul edə bilmir. Hüquq anlayış olduğu üçün bu vəziyyətdən çıxış yolu müvafiq problemin əvvəlki həll qaydası ən efektiv çıxış yoludur. Buna görə də AR Baş Prokurorunun "Cinayət təqibi zamanı "İnsan hüquqlarının əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyanın müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun prokurorluq orqanlarında nəzərə alınması haqqında" 01.12.2006-cı il 09/84 saylı Əmrində bu işlər üzrə məhkəmə tərəfindən iş materiallarının təqsirləndirilən şəxsə başqa ittihamın irəli sürülməsi məsə-

ləsinə baxmaq üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməsi barədə əsaslandırılmış qərar çıxarıldığı halda bir qayda olaraq həmin prokuror tərəfindən təqsirləndirilən şəxsə qarşı yeni, məhkəmənin qərarında göstərilmiş ittihamın irəli sürülməsi təmin olunmasını məcburi qayda kimi müəyyən olunmuşdur (4).

Qeyd olunanlar əsasında belə bir qənaətə gəlmək olar ki, Azərbaycan Respublikası cinayət prosesinin forması çəkişmə deyil, burada əsas ideya həqiqətin müəyyən edilməsi məqsədi, başqa sözlə, inkvizision cinayət prosesidir. Hesab edirik ki, hər bir prosessual qayda və vasitələr bu məqsədə uyğunlaşdırılmış olsa, daha doğru olar. Lakin burada bir məsələni də yaddan çıxarmaq olmaz. Müasir dövrdə, demək olar ki, heç kim cinayət prosesinin milli qanunvericiliklə yanaşı ümumavropa prinsiplərinin mövcudluğunu mübahisələndirmir. Cinayət prosesinin heç bir modeli ittiham, inkvizision və ya qarışıq AİHM-in nəzarətindən kənar qala bilmir ki, bu konvensiya cinayət-prosessual sənəd kimi qəbul olunmasa da, prosesin həyata keçirilməsi metodlarının yaxınlaşdırılmasına gətirib çıxarmışdır.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikası Konstitusiyası. 12 noyar 1995-ci il. http://www.e-qanun.az/framework/897
2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsi. 14 iyul 2000-ci il. http://www.e-qanun.az/code/14
3. Cinayət-Prosessual Məcəlləsinin 43.1.1, 314.2-ci maddələrində nəzərdə tutulmuş «dövlət ittihamçısı və xüsusi ittihamçı cinayət təqibindən imtina etdikdə» müddəasının şərh edilməsinə dair 15 fevral 2008, Xüsusi Rəy. http://www.constcourt.gov.az/decisions/147
4. Azərbaycan Respublikası Baş prokurorunun "Cinayət təqibi zamanı "İnsan hüquqlarının əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyanın müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun prokurorluq orqanlarında nəzərə alınması haqqında" 01.12.2006-cı il 09/84 saylı əmri. Azərbaycan Respublikası Baş prokurorunun əmr və göstərişləri. I cild. Bakı: Hüquq ədəbiyyatı, 2008, 350 s.
5. Abbasova F.M. Cinayət prosesi. Dərslik. Ümumi hissə. Yenidən işlənmiş 2-ci nəşr. Bakı: "Zərdabi LTD" MMC, 2015, 412s.
6. Abbasova F.M. Çəkişmə prinsipi: inkşaf tarixi, müasir problemləri və onların həlli yolları / Bakı: Qanun, 2008, 248 s.
7. Вандышев В.В. Уголовный процесс. Общая и особенная части. http://do.gendocs.ru/docs/index-341217.html?page=34
8. Головко Л.В. Альтернативы уголовному преследованию в современном праве. СПб.: Юридический центр Пресс, 2002, 544 с.
9. Головко В.Л. Дознание и предварительное следствие Франции. М.: СПАРК, 1995, 130 с. 126с.
10. Калиновский К.Б. Основные виды Уголовного Судопроизводства Учебное пособие http://kalinovsky-k.narod.ru/p/2002-1.htm
11. Курс уголовного процесса. Под ред. В.Л. Головко М.: Статут, 2016, 1278с.
12. Истина в уголовном процессе. Событие. Комментарии экспертов // Закон. 22 июня 2012, с17-28, http://www.igzakon.ru/magazine/article-pdf/?id=3913
13. Монтескье Ш. Избранные произведения. М., 1955, 803с.
14. Монтескье. О духе законов. https://www.civisbook.ru/files/File/Monteskye_O%20dukhe.pdf

15. Мустафаев М.Х. Состязательная форма и идея правосудия // Keçid dövründə Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Bakı, 2006, 236-242с.
16. Петрова Н.Е. Частное и субсидиарное обвинение. Самара: Самарский университет, 2004, 213 с.
17. Трефилов А.А. Организация досудебного производства по УПК Швейцарии 2007 года. Кандидатская диссертация. М., 2014, 199с.
18. Spencer J.R. European Criminal Procedures. Cambridge University Press, 2002. http://catdir.loc.gov/catdir/samples/cam041/2002073784.pdf

## ФОРМА УГОЛОВНОГО ПРОЦЕССА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**З.Н.АЗИМОВ**

### РЕЗЮМЕ

В статье рассматриваются вопросы форм уголовного процесса Азербайджанской Республики. В юридической литературе различаются три формы уголовного процесса: состязательный, инквизиционный и смешанный процесс. В статье исследуются характерные особенности форм уголовного процесса Азербайджанской Республики.

**Ключевые слова:** материальная истина, принцип права, состязательность, доказывание, судебное разбирательство, равенство сторон, процессуальная форма.

## THE FORM OF THE CRIMINAL PROCEDURE OF THE REPUBLIC OF AZERBAIJAN

**Z.N.AZIMOV**

### SUMMARY

The article deals with the forms of the criminal process of the Republic of Azerbaijan. In the legal literature there are three forms of criminal process: adversarial, inquisitional and mixed process. In the article, characteristic features of the forms of the criminal process of the Republic of Azerbaijan are investigated.

**Key words:** material truth, the principle of law, adversarial, proving, litigation, equality of parties, procedural form.

УДК 343.13

# ПРОБЛЕМЫ МИНИМИЗАЦИИ, ПРИЧИНЯЕМОГО ВРЕДА В ОТНОШЕНИИ ЛИЦ С ПСИХИЧЕСКИМИ АНОМАЛИЯМИ В ПРОЦЕССЕ ЗАДЕРЖАНИЯ, АРЕСТА В ПРАКТИКЕ ПОЛИЦЕЙСКИХ СЛУЖБ ЕВРОПЕЙСКОГО СОЮЗА И США

**К.Н.САЛИМОВ*, ЭЛИКО ДЖИКЛАУРИ – ЛАММИЧ**, Г.Д.МЕЛИКОВА***

- köhnə yaşayış evlərinin saxlanması və təmiri üçün yardımların verilməsi.

Bələdiyyə yaşayış evlərinin alternativ yardımların köməkliyi ilə xüsusi (şəxsi) yaşayış evlərinin tikintisinin aparılmasıdır. Dövlətin tənzimlənməsinin həyata keçirilməsində tikintiyə dövlət tərəfindən yardımların göstərilməsi ən əsas elementlərdən biridir, sonra isə mənzil bazarının fəaliyyətinin mənfi xarici səmərəsinin nizama salınması nəzərə alınmalıdır. Fərdi evlərin tikintisinə yardımların verilməsi ilə yanaşı, yaşayış evlərinin infrastrukturunun tikintisinə yardımların verilməsi və s. həyata keçirilir. Sığortalama, dövlət təminatı, vergi güzəştləri və stimullaşdırmanın digər elementləri yardımların verilməsinə daxil deyil, ancaq verilən kreditlərin əlverişliliyini artırır, ona görə də yardım kimi baxmaq olar.

Dövlət tərəfindən göstərilən yardımlara, fikrimizcə aşağıdakılar aiddir:

- tikinti mərhələsində tikinti materiallarının əldə edilməsinə yardımların verilməsi;
- tikintinin infrastrukturunun həyata keçirilməsi məqsədilə bələdiyyələrə köməkliyin göstərilməsi;
- mənzillərin əsaslı təmirinin aparılmasında ipoteka krediti formasında xüsusi sahibkarlara yardımların verilməsi;




**Şək. 1.** Dövlətin mənzil siyasətinin reallaşdırılması mexanizminin forma və metodları

- ipoteka kreditlərinin sığortalanması və banklara təminatın verilməsi məqsədilə yardımların göstərilməsi;
- kondominiumda əsaslı təmirin aparılması üçün yardımların verilməsi;
- mənzillərin əldə edilməsi məqsədilə əhaliyə ipoteka kreditlərinin verilməsində yardımların ayrılması isə ən geniş yayılandır.

Orta keyfiyyətli yaşayış evlərinə aşağı keyfiyyətli mənzillərin istehlakçıları köçmək istəyirlər, çünki mənzillərin qiymətlərinin aşağı düşməsi aşağı keyfiyyətli mənzilə tələbi artırır.

Aşağı və orta gəlirli ailələri mənzillə təmin etmək məqsədilə Dövlət həmin ailələrə köməklik edir – mənzillərin tikintisinin aparılmasına və ya mənzillərin ödənilməsinə.

Mənzil siyasətinin digər istiqaməti az gəlirli ev təsərrüfatlarına yeni mənzil sertifikatlarının verilməsidir. Mənzil sertifikatları yeni mənzillərin əldə edilməsi üçün istifadə oluna bilər, ailə ona əlverişli icarə ödənişi həyata keçirə bilər, belə halda mənzillər minimum standart keyfiyyətə malik olmalıdırlar [1, s.34].

Azərbaycanda islahatlardan əvvəl mənzil sferasında bütün məznil münasibətləri dövlət tərəfindən tənzimlənirdi və dövlət mülkiyyəti hesab edilirdi.

Azərbaycanda aparılan dəyişikliklərin nəticəsində mənzil fondunun mülkiyyət formaları dəyişildi. Mənzil sferasının dəyişdirilməsi mexanizmi şəkil 2-də təqdim edilir.

Dövlətin mənzil siyasətinin məqsəd və vəzifələrinin dəyişdirilməsi cədvəl 1-də təqdim olunur.

Mənzil sferasında həm əmtələri və xidmətləri istehsal edən və həm də mənzil bazarı infrastrukturunu təmin edən fəaliyyətin bazar subyektləri mənzil siyasətinin qarşısında qoyulan vəzifələrin reallaşdırılmasında başlıca rol oynayır [2, s.45].

Mənzil sferasında rəqabətin inkişaf yollarında, kiçik və orta biznesin inkişafına köməkliyin göstərilməsində, sahibkarlıq fəaliyyəti risklərinin aşağı salınmasında maneələrin ləğv edilməsinə qəbul olunan qanunvericilik və normativ–hüquqi aktlar, vergi, maliyyə-kredit tədbirlərinin reallaşdırılmasına yönəldilməlidir.

Yataqxanaların mənzil kimi istifadə edilməsi dövlət, bələdiyyə və xüsusi mənzil fondunda ləğv edilməlidir. Mənzil sferasında münasibətlərin həmin tipləri müqavilə naymında öz əksini tapmalıdır. Onun üçün vətəndaşların müvəqqəti yaşaması məqsədilə müqavilə naymı yaradılmalıdır ki, həmin tiplər özəlləşdirilə bilməsinlər.

Dövlət, yerli özünüidarə orqanları mənzil – kommunal xidmətlərinin ödənilməsində əhalinin ünvanlı sosial müdafiəsi sistemini vətəndaşların gəlirlərindən asılı inkişaf etdirilməlidir ki, mənzillərin saxlanması və təmirinə, xidmətlərin göstərilməsinə əlverişli xərclər müəyyən normativlərə əsasən yerinə yetirilsin.




**Şək. 2.** Azərbaycanda mənzil sferasının dəyişilməsi mexanizminin əsas istiqamətləri

Cədvəl 1

**Azərbaycanda dövlətin mənzil siyasətinin məqsəd və vəzifələri**

| № | Mənzil siyasətinin məqsədləri | Mənzil siyasətinin vəzifələri |
|---|---|---|
| 1. | Vətəndaşların mənzilə konstitusiya hüququnun reallaşdırılması:<br>- mənzil sferasında aztəminatlı vətəndaşların sosial müdafiəsinin təmin edilməsi | Vətəndaşların mənzil hüququnun qanunauyğun müəyyən edilməsi, mülkiyyət, kirayə, ipoteka, habelə müqavilənin bağlanmasına əsasən mən-zilin əlverişli ödənməsi, mənzilin alınmasına büdcə yardımlarının verilməsi hüququ, mənzilin və kommunal xidmətlərin ödənilməsi daxil olmaqla |
| 2. | Mənzil sferasında mülkiyyət hüququna zəmanətin verilməsi | Mənzil tikintisinin altına torpaq sahələri bazarının inkişafı, tikintinin və torpaqdan istifadənin tənzimlənməsi |
| 3. | Mənzil bazarı infrastrukturunun yaradılması | - mənzil fondunun idarə edilməsi sisteminin təkmilləşdirilməsi;<br>- ödəmə qabiliyyətli tələbə uyğun tikinti materiallarının istehsalı və mənzil tikintisinin inkişafı;<br>- mənzil sferasında kommunal infrastrukturun inkişafı, uzunmüddətli ipoteka mənzil kreditləşdirilməsinin genişləndirilməsi, mənzil tikintisinin kreditləşdirilməsi və s. |
| 4. | Əmək resurslarının çevikliyinin yüksəldilməsi | Mənzil sferasında kommunal infrastrukturun fəaliyyətinin səmərəliliyinin yeksəldilməsi |
| 5. | Mənzil sferasında məhsulun və xidmətlərin keyfiyyətinin təmin edilməsi | Mənzil bazarı infrastrukturunun inkişafına köməklik göstərilməsi (developer fəaliyyəti, daşınmaz əmlakın idarə edilməsi, daşınmaz əmlakın dövlət reyestri və s.) |
| 6. | Mənzil tikintisinin altına torpaq sahəsinin, mənzilin səmərəli bazarının, mənzil-kommunal xidmətlərin və s. formalaşması üçün şəraitin təmin edilməsi. | |

## 2. Mənzil fondunun idarə edilməsi

Mənzil fondunun idarə edilməsində rəqabəti inkişaf etdirmək üçün elə mexanizm yaradılmalıdır ki, mülkiyyətçilər (o cümlədən bələdiyyə) və ya onların birləşməsi (müştərək cəmiyyəti) öz maliyyə vəziyyətindən asılı, istədiyi idarə edən şirkəti seçə bilsin və nəticədə evin saxlanması və təmirini, həmçinin mənzil – kommunal xidmətlərini əlverişli təmin etsin. Belə vəzifələrin yerinə yetirilməsini istədiyi idarə edən şirkət öz gücü ilə və ya digər təşkilatlarla müqavilələrin bağlanmasına əsasən yerinə yetirə bilər.

Yaşayış evlərinin idarə edilməsi üzrə mənzil - kommunal xidmətləri bazarını idarə edən şirkət, o cümlədən bələdiyyə xüsusi biznes üçün də olmalıdır. Çünki idarəetmə sferasında və mənzil fonduna xidmətin göstərilməsində işləyən, bələdiyyə müəssisələrinin özəlləşdirilməsində də rəqabət inkişaf etməlidir [3, s.47].

Yaşayış evlərinin idarə edilməsində fərdi mülkiyyətçilərin hüququnun ödənilməsinin ən əlverişli üsullarından biri mənzillərin sahiblərinin müştərək cəmiyyətdə birləşməsidir. Müştərək cəmiyyətin inkişafı məqsədilə stimullaşdırmanın həyata keçirilməsi aşağıdakı kimi olmalıdır:

- torpaq sahəsi daxil olmaqla kondominiumun vahid əmlak kompleksi kimi hüquqi formalaşması;
- çoxmənzilli yaşayış evlərində ümumi istifadə olunan yeri ev sahiblərinin ümumi pay mülkiyyətinə verilməsi;
- kondominiumun əmlak konpleksinin müştərək cəmiyyətinə verilməsi və müştərək cəmiyyətin yaradılması üsullarının asanlaşdırılması.

Mənzil–kommunal müəssisələrinin fəaliyyətinin tənzimlənməsində aşağıdakı prinsiplər həyata keçirilməlidir:

- kommunal tariflərinin proqnozlaşdırılması onların investisiya əlverişliliyini yüksəltməli və borc kapitalın dəyərini aşağı salmalıdır;
- müxtəlif qrupların maraqlarını təmin edən tənzimlənməsinin məqsədli xarakteri: investorun, müəssisənin özünün, əhalinin, bələdiyyənin, sənaye müəssisələrinin və s.

Kommunal tariflərinin tənzimlənməsi açıq olmalı və maraqlı tərəflər iştirak etməli, həmçinin istehlakçıların nümayəndələri cəlb edilməlidir. Tənzimlənmənin şəffaf sisteminin yaradılması ilə yanaşı kommunal müəssisələrin maliyyə - təsərrüfat və təşkilat – hüquqi müstəqilliyini yüksəltmək lazımdır, onun üçün:

- kommunal müəssisələrinin fəaliyyətinin monitorinqinin aparılması;
- kommunal infrastrukturu obyektlərinin mülkiyyətçiləri və kommunal müəssisələri arasında müqavilələrin bağlanmasına uyğun müsbət nəticələrin alınmasının əldə edilməsi.

Kommunal təsərrüfatı sahələrində inhisarçılıq aşağıdakı yolla həyata keçirilməlidir:

- kommunal infrastrukturu obyektlərinin idarə edilməsinin konsepsiya sxeminin reallaşdırılması vasitəsilə mülkiyyətçilərin bütün formalı müəssisələrinin kommunal infrastrukturunun unkişafında iştirak etməsi;
- təbii yerli inhisarçıların və təbii subyektlərdən müstəqil müəssisələrin ayrılmasının təşkil edilməsi.

Müqavilə münasibətlərinə əsasən stimullaşdırma vasitəsilə istehlak resurslarını cihazların (sayğacların) qurulması ilə qeydə alıb faktiki istehlak üzrə ödəyirlər. Büdcə hesabına kommunal müəssisələrin fəaliyyətinin zərərli işləməsində dotasiyalar tədriclə ləğv edilməlidir, bu isə mənzil-kommunal təsərrüfatının maliyyələşdirilməsinin dəyişilməsinin əsas istiqaməti hesab olunur. Ona görə də kommunal müəssisələrin işinin səmərəliliyini yüksəltmək üçün istehlakçıların müxtəlif qruplarının çarpazlaşmasına yardımları tədriclə ləğv edilməlidir [4, s.75].

Mənzil sferasında yaşayış evlərinin müxtəlif seqmentlərinin inkişaf etdirilməsi lazımdır: mövcud tikintinin təkmilləşdirilməsi, yeni tikintinin yax-

şılaşdırılması, köhnə tikitinin təzələnməsi və ya yeniləri ilə əvəz edilməsi, yaşayış evlərinin idarə edilməsinin təkmilləşdirilməsi, yəni səmərəliliyinin yüksəldilməsi. Belə halda tədriclə dövlət tikintinin həcminin azaldılması hesabına xüsusi tikintinin həcminin artırılması zəruridir. Ona görə də dövlət və bələdiyyə sifarişləri müsabiqəyə əsasən həyata keçirilməlidir.

Müstəqil təcrübəli şəxsi, bina tikənləri, yəni developerləri və tikinti şirkətlərinin formalaşması və inkişafı dövlət həmişə həvəsləndirir.

Dövlət mülkiyyətindən xüsusi sektora keçən, mənzillərin tələbinin strukturunda kredit siyasəti və vergi vasitələrilə dəyişdirmək və möhkəmləndirmək lazımdır.

### 3. Yeni tikinti layihələri və sənədlərinin alınmasına icazənin razılaşdırılması

Yeni tikinti layihələrinin və icazə sənədlərinin alınmasının razılaşdırılmasının inzibati üsulları asanlaşdırılmalı və şəffaf olmalı, xüsusi bina tikənlərin çoxuna qadağan olunmamalıdır. Fəaliyyətdə olan üsullar elə təşkil edilməlidir ki, torpaq sahələrinə mülkiyyət hüququnu bina tikənlər tikinti prosesinə başlayan zaman əldə etsinlər, indiki kimi tikintinin sonunda yox. Bu torpaq sahələrini tikintinin ipoteka kreditləşdirilməsinə girov qoyulmasına imkan verər.

Əhalinin mənzil şəraitini yaxşılaşdırmaq üçün təkcə onun miqyasını artırmaq yox, həm də keyfiyyətini yaxşılaşdırmaq lazımdır. Müasir tikinti texnologiyasının istehsalatda tətbiqini, enerjiyə və resurslara qənaət edən yeni materialların və konstruksiyaların istifadə edilməsini, yeni fərdi yaşayış evlərində tikintinin dəyərinin aşağı salınmasını stimullaşdıran mənzil tikintisinin texniki siyasəti həyata keçirilməlidir.

Tikintidə investisiya prosesinin iştirakçıları normativ bazanın təkmilləşdirilməsini tələb edir, çünki tikinti işləri başlanan andan icazə alınana qədər hazır obyekti istismara təhvil vermək asand olar.

Azərbaycanda mənzil bazarının infrastrukturuna aşağıdakıları daxil etmək lazımdır:

- mənzil bazarında yaşayış evlərinə xidmət edilməsi üzrə inzibati orqanları – dövlət və bələdiyyələri;
- mənzil bazarına xidmət göstərən xüsusi şirkətləri;
- məhkəmə sistemini.

Yuxarıda göstərdiklərimizin yerinə yetirilməsi üçün aşağıdakı tədbirlərin hazırlanması zəruridir.

Torpaq sahəsində yerləşən obyektlərin dövlət qeydiyyatı, həmin obyektlər haqqında informasiyaların yığılması, sənədlərin saxlanmasının təmin edilməsi, daşınmaz əmlakın dövlət qeydiyyatının açıq və ümumi əlverişli olması.

Məhkəmə sistemində "torpaq məhkəmələrinin" yaradılması məqsədyönlüdür, çünki onlar yaşayış sahəsi və digər daşınmaz əmlak obyektləri üzrə ixtisaslaşmalıdırlar.

Mənzil bazarının inkişafında rieltor xidmətlərinin göstərilməsi əsas rol oynayır. Əgər rieltor şirkətləri öz üzərlərinə götürdükləri öhdəlikləri vaxtında ödəməsələr, onda zərərləri kompensasiya etmək üçün səmərəli mexanizmi işlənməli və normativ möhkəmləndirilməlidir [5, s.211].

Mənzil bazarının inkişafının əsas istiqamətlərindən biri də sığorta şirkətlərinin fəaliyyətinin yaxşılaşdırılmasıdır, daşınmaz əmlakın, tikinti risklərinin, hüquqi sövdələrin baş verdiyi dövrdə əmələ gələn risklərin sığortalanması lazımdır.

## Nəticə

Dövlət tərəfindən yerinə yetirilən yaşayış evlərinin tikintisi hesabına mənzil bazarında təklifin stimullaşdırılması dövlət siyasətinin təkmilləşdirilməsinin əsas istiqamətlərindən biridir. Hal-hazırda ölkəmizdə həmin istiqamət üzrə tikinti həyata keçirilmir, sosial yaşayış evlərinin tikintisi istisna olmaqla. Əhalinin mənzillərlə təmin edilməsi məqsədilə dövlət mənzil ipoteka kreditləşdirilməsi sisteminə üstünlük verir, ancaq həmin istiqamət bazarda qiymətlərin yüksəlməsinə səbəb olur və təbii stimullaşdırmaq üçün alət kimi istifadə edilir.

Mənzil bazarında tələb və təklifin tarazlaşmasına ipoteka mənzil kreditləşdirilməsi, stimullaşdırmanın həyata keçirilişinə imkan verməyəcək, cünki bazarda mənzillərin qiymətlərinin artmasını dayandırmaq qabiliyyətinə malik deyil, bu isə əhalinin mənzillərlə təmin edilməsi əlverişliliyini aşağı salır. Hündür mərtəbəli yaşayış evlərinin tikintisi üçün Bakıda torpaq sahəsinin ayrılması çətinlik təşkil edir və kommunal infrastrukturunun olmaması yeni mikrorayonların salınmasına maneə törədir.

## ƏDƏBİYYAT


1. Средний класс и социальная политика // Вопросы экономики, 1998, №7, с.32-38
2. Ильин И. Условия осуществления жилищной реформы. //Экономист-2001, №5, с.41-46.
3. Жуков Д.М. Экономика и организация жилищно–коммунального хозяйства города./ Д.М.Жуков. М.: ВЛАДОС-пресс, 2003, 96 с.
4. Ширалиев В.М., Халилов Р.Р. Жилищно-коммунальное хозяйство крупного города. Баку: Нурлан, 2008, с.170
5. Дениз Паскуал Унльям Уитон. Городская экономика рынков жилищной недвижимости. В кн. «Жилищная экономика». Под ред. Генри Поляковского. М.: Дело, 1996, с.431.

## МЕХАНИЗМ РЕАЛИЗАЦИИ ЖИЛИЩНОЙ ПОЛИТИКИ КАК ИНСТРУМЕНТА СТИМУЛИРОВАНИЯ РАЗВИТИЯ ЖИЛИЩНОЙ СФЕРЫ

**М.А.МАМЕДОВ, Р.Ю.АЛИЕВ**

**РЕЗЮМЕ**

Жилищная политика представляет собой совокупность форм и методов государственного воздействия на жилищную сферу – жилищное строительство и рынок жилья – для достижения определенных целей и предполагает разработку концепции, форм и методов государственного воздействия.

В рыночной экономике государственная жилищная политика развивается по двум направлениям: политика стимулирования предложения жилья и политика стимулирования спроса с целью повышения спроса на жилье со стороны бедных и средних домохозяйств

**Ключевые слова**: механизм, реализация, политика, государство, стимулирование, развитие, сфера, предложение.

## MECHANISM FOR THE IMPLEMENTATION OF THE HOUSING POLICY AS A TOOL TO STIMULATE THE DEVELOPMENT OF THE HOUSING SECTOR

**M.A.MAMMADOV, R.Y.ALIYEV**

**SUMMARY**

The housing policy represents a set of forms and methods of the state impact on the housing construction and the housing market for the achievement of definite purposes and assumes development of the concept, forms and methods of the state influence.

In a market economy, the State housing policy is developing in two directions: policies to promote housing supply and demand policy with the aim of increasing the demand for housing by the poor and medium household.

**Keywords:** mechanism, implementation, policy, State, promotion, development, sphere, proposal.

**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

***№3 Sosial-siyasi elmlər seriyası 2017***

**UOT 338; 658**
**39.71.02**

# NEFT SƏNAYESİNDƏ MÜŞTƏRƏK MÜƏSSİSƏLƏRİN YARADILMASI VƏ TƏHLİLİ

**F.Z.MEHDİ**
***Azərbaycan Dövlət Neft və Sənaye Universiteti***
***farid.mehdi2@gmail.com***

*Məqalədə müştərək müəssisələrin yaradılması, tarixi aspektləri və neft sənayesində fəaliyyəti təhlil edilmişdir. Neft layihələrinin həyata keçirilməsi ilə bu sahədə müştərək müəssisələrinin yaranmasını şərtləndirən faktorlardan geniş əhatə edilmişdir. Daha sonra məqalədə beynəlxalq təcrübəyə istinad olunuraq, Rusiya şirkətinin misalinda, müştərək müəssisələrin fəaliyyəti qeyd edilmişdir. Buna baxmayaraq, muasir texnoloji avadanlıqların daşıyıcısı olan investisiyalar, Azərbaycanda müştərək müəssisələrin inkişafina tam nail olunmayıb. Misal olaraq, Qarasu ƏŞ şirkətinin fəaliyyəti və qeniş təhlilini göstərmək olar.*

*Hazırda ölkənin mövcud iqtisadi imkanlarından tam istifadə edib maksimum əlavə gəlir yaratmaq geniş mənada ölkə iqtisadiyyatının səmərəliliyini göstərir. Lakin bu məşğulluğu məhz sərf olunan xərclər hesabına daha çox səmərə əldə etməklə, istehsal olunan məhsulların həm qiymət, həm də keyfiyyət baxımından rəqabətqabiliyyətlərinin artırılması hesabına təmin etmək mümkündür.*

*Xarici investisiyanın cəlb olunması, o cümlədən müştərək biznesin yaradılması ilk növbədə istehsal resurslarının təsərrüfat dövriyyəsinə cəlb edilməsinə şərait yaradır. Nəticədə, müəyyən həcmdə istehsal amillərinin məşğulluğu artır, milli gəlir təbii resurs istehsalçıları, işçi qüvvəsi və s. tərəfdən yaradılan əlavə dəyər hesabına artır. Xarici investisiyanın həcmi artdıqca ölkəyə gətirilən yeni texnika və texnologiyanın, mütərəqqi idarəetmə və marketinq üsullarının yayılması nəticəsində ölkənin texnoloji inkişafının sürətlənməsi baş verir.*

**Açar sözlər:** müştərək müəssisələrin strategiyası, kooperasiya prosesi, risk və mənfəət bölgüsü, iqtisadi baza, istehsal gücləri, riskli investisiyalar, rəqabət qabiliyyəti

Xarici investisiyanın cəlb edilməsinin səmərəli formalarından biri müştərək müəssisələrin yaradılmasıdır. Beynəlxalq təsərrüfat əlaqələrinin formalaşmasında, dünya iqtisadiyyatına sıx inteqrasiya olunmasında müstəsna rol oynayan müştərək sahibkarlıq fəaliyyəti özbaşına və idarə olunmaz proses kimi baş vermir, o əslində dövlətin iqtisadi siyasətinin önəmli istiqaməti kimi çıxış edir. Müştərək müəssisələrin mahiyyəti barədə lazımi təsəvvürə malik olmaq üçün, hər şeydən öncə, müştərək müəssisə anlayışını açıqlamaq, dərk etmək lazım gəlir. Beləliklə, müştərək müəssisə – milli iqtisadiyyatın inkişafında investisiya qoyuluşunda iştirak edən yerli və xarici hüquqi şəxslər və ya fiziki şəxslər

arasında bağlanmış saziş əsasında məhsulun istehsalı və satışı, işlər görülməsi və xidmətlər göstərilməsi üçün yaradılan təsərrüfat subyektidir. Müştərək müəssisələrin sosial-iqtisadi mahiyyəti tərəfdaşların texnoloji və emosional əməkdaşlığı ilə müəyyən olunur. Əməkdaşlığın texnoloji tərəfi tərəfdaşların birgə sərmayə qoyuluşlarında öz əksini tapır. Xarici investor müştərək müəssisənin yaradılması üçün adətən yeni texnika və texnologiya, ixtisaslı kadrlar, uzunmüddətli kreditlər cəlb edir, milli investor isə torpaq sahəsi verir, işçi qüvvəsi, tikinti materialları və xammalı cəlb edir. Əməkdaşlığın emosional tərəfi isə müəssisənin səmərəli fəaliyyəti üçün tərəfdaşların səylərini birləşdirməsində öz əksini tapır. Müştərək müəssisələri yaradan tərəflərin məqsədləri üç əsas kateqoriyaya bölünür: zəruri istehsal resursların əldə olunması, bazar motivləri, riskin bölüşdürülməsi. Tərəfdaşların öz istehsal və ya bazar potensialını səmərəli reallaşdırmaq üçün bu və ya digər resurs növünə çatışmazlığı çox vaxt müştərək müəssisələrinin yaradılması üçün əsas olur. Bu resurslara maliyyə vəsaitləri, istehsal gücləri, xammal və materiallar, texnologiya, patentlər, idarəetmə kadrları, informasiya, nou-hau və s. aid ola bilər [3, s.107].

Azərbaycan Respublikasında ilk müştərək müəssisələrin (MM) yaradılması 80-ci illərin sonuna təsaduf edir. Müvafiq proseslər yenidənqurma mərhələsində kooperativ hərəkatı ilə başlansa da genişlənən kompaniya müstəqillik illərində daha sürətli olmuşdur. 1993-cü ildə yenidən hakimiyyətə qayıdan ümummilli liderimiz cənab Heydər Əliyev ölkədə ictimai-siyasi sabitlik yaratdı, zəngin təbii sərvətlərin, o cümlədən neft və qaz yataqlarının xarici şirkətlər ilə müştərək işlənməsi barədə proqramların hazırlanması zəruriyyətini vurğuladı. Ümummilli liderimiz tərəfindən atılan addımların nəticəsində 1994-cü il sentyabrın 20-də dünyanın 9 iri neft şirkəti ilə Azərbaycan Respublikası Dövlət neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı «Azəri», «Çıraq», yataqlarının və «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi barədə müqavilə imzalandı. «Əsrin müqaviləsi» adlanan bu sazişdən sonra xarici investorların ölkəmizə marağı daha da artdı və bir-birinin ardınca yeni neft müqavilələri imzalandı. Neft layihələrinin həyata keçirilməsi üçün ondan artıq müştərək müəssisə fəaliyyət göstərir ki, onlar tanınmış xarici şirkətlərlə təxminən 390 milyon dollar dəyərində müqavilə işləri almışlar. Misal üçün Rusiyanın «LUKoyl» neft şirkətini göstərmək olar. O zaman «LUKoyl» şirkətin rəhbərliyi Nərimanov adına Neft və Qazçıxarma İdarəsi ərazisindəki yataqlardan neftin çıxarılması üçün müştərək müəssisə yaratmaq təşəbbüsü ilə çıxış edirlər və bununla hasil ediləcək 25 milyon ton neftin hamısı Azərbaycanın neftayırma zavodlarına emal olunacaqdır.

Bu zaman bir sıra zavod və fabriklərin tam və ya qismən MM-lərə çevrilməsi geniş vüsət almışdır. MM strategiyası neft sektorundan da yan keçməmişdir. Əslində yeni tələblər belə istiqamətin neft sənayesi kompleksində geniş tətbiqini konyektur çərçivədə real olaraq şərtləndirmişdir. Bu şərtlilik onunla əsaslandırılır ki, ehtiyatları tükənmə mərhələsinə yetişən yataqlarda yeni istismar mərhələsi mütərəqqi texnologiyaları daşıyan riskli investisiyalar tələb

edir. Adətən bu işi çox da böyük olmayan biznes qurumları investisiyalaşdırır. Bununla belə yenidənqurma mərhələsində neft sənayesinin xidmət sahələrinə müəyyən həcmdə qeyri-dövlət kapitalının qoyuluşuna imkanlar açılmışdı. İlk vaxtlar neft sektorunda əhaliyə «pullu xidmətlər» mexanizmi təmir-tikinti, nəqliyyat və qazmada da həyata keçirilmişdir. Proses kooperasiyanın genişləndirilməsi siyasəti ilə bağlı daha da dərinləşmişdi. Bu ərəfədə Azərbaycanın quru sahələrində kooperativ əsasda bir neçə quyu da qazılmış, dövlət tərəfindən lazımi vəsaitin ayrılmaması, təczihizatın pisləşməsinə istinadən hasilatın təsərrüfat podratı rejimində həyata keçirilməsi təşəbüssləri vüsət almışdır. Bazar prinsiplərinin işləmədiyi və həm də neftin strateji əhəmiyyətinin möhtəşəm dövlətin prioritetində olduğu bu illərdə müvafiq təşəbbüslər reallaşmamış qalmışdır. Lakin iqtisadiyyata investisiyaların cəlb edilməsi Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilən dövlət müstəqilliyi mərhələsində icarə, fərdi layihələr üzrə müəssisələrinin idarəetməyə verilməsi, lisenziya oriyentasiyalı normativ-hüquqi aktların qəbulu müvafiq imkanları artırmış və Azərbaycanın da neft sektorunda yeni formatı müəssisə tipləri təsis olunmuş və fəaliyyətləndirilmişlər. Bu müəssisələr içərsində qeyd olunduğu kimi, xarici kapitala əsaslanan MM-lər xüsüsi fərqlilik nümayiş etdirirlər. Kiçik dövlətlər beynəlxalq əmək bölgüsünə daha aktiv qoşulması və iqtisadiyyatın açıq xarakteri ilə fərqlənilir. Ölkənin əhalisi, ərazisi və ümumi daxili məhsulunun həcmi nə qədər azdırsa, ölkə iqtisadiyyatına xarici iqtisadi amillər bir o qədər çox təsir göstərir. Beynəlxalq əmək bölgüsü bu ölklərdə ictimai əmək bölgüsünün, sənayenin sahə strukturunun formalaşmasında böyük rol oynayır. İngilis iqtisadçısı K.Leyton düzgün olaraq qeyd edir ki, kiçik dövlətlər və onun kompaniyaları öz istehsallarının ixtisaslaşdırılmasına və beynəlxalq əmək bölgüsünün üstünlüklərindən istifadə edilməsinə aktiv cəhdlər etdikdə daha böyük müvəffəqiyyətlər əldə edirlər. Bu ölkələrin iqtisadi inkişafı onların xarici iqtisadi əlaqələrdə iştirakından əhəmiyyətli dərəcədə asılıdır. Buna görə də Azərbaycan Respublikası qarşısında məqsədəuyğun və təcili olaraq iqtisadiyyatda struktur dəyişikliklərin aparılması, dünya bazarı tələblərinə istiqamətlənərək istehsal olunan məhsulun rəqabət qabiliyyətinin artırılması vəzifəsi durur. Belə şəraitdə əsas məsələlərdən biri də iqtisadiyyatın yeni keyfiyyət səviyyəsinə keçirilməsidir. Daxili bazarın həcminə ictimai əmək bölgüsünün inkişaf səviyyəsi ciddi təsir göstərir. İctimai əmək bölgüsü dərinləşdikcə ixtisaslaşma nəticəsində daxili bazarın həcmi artır. Lakin qeyd olunduğu kimi, kiçik dövlətlərdə ictimai əmək bölgüsü beynəlxalq əmək bölgüsü ilə əlaqədardır. Bu da ölkənin xarici ticarətindən asılı bir prosesdir. Məhz xarici ticarətin genişlənməsi ölkələrin müqayisəli üstünlüklərindən səmərəli istifadə etməyə imkan verir. Yuxarıda göstərilən əlaqə ölkənin iqtisadi inkişaf səviyyəsindən asılıdır. Ölkənin inkişaf səviyyəsi nə qədər yüksəkdirsə, ictimai əmək bölgüsü bir o qədər dərindir və ölkə beynəlxalq əmək bölgüsündə səmərəli iştirak edə bilər. İqtisadi inkişafın aşağı səviyyəsində bu proses həmin ölkələrin iqtisadi inkişafına mənfi təsir göstərir. Bazar iqtisadiyyatına keçid şəraitində yeni iqtisadi münasibətlərin də-

rinləşməsi və bu münasibətlərin daşıyıcılarının formalaşması müəyyən vaxt tələb edir. Belə şəraitdə fəaliyyət göstərə bilən, bazar təcrübəsinə və biliklərinə malik kadrların, sahibkarların formalaşması zəruri məsələlərdən biridir. Yeni investisiya ilə əlaqədar riski öz üzərinə götürməyi bacaran rəhbərlərin və sahibkar təbəqəsinin mövcudluğu iqtisadi inkişafda mühüm rol oynayır. Buna görə də sahibkar təbəqəsinin zəif formalaşması ölkənin iqtisadi inkişafını ləngidən amillərdən biridir. Beləliklə, xarici investisiyanın cəlb olunmasını, o cümlədən müştərək biznesin yaradılmasını zəruri edən amilləri, Amerika iqtisadçısı S.Kuznetsin qeyd etdiyi kimi, üç əsas qrupa bölmək olar:

1. Maliyyə vəsaiti kimi ümumi milli məhsulda qənaətin həcminin azlığı. Belə ki, qənaətə meyil o qədər azdır ki, iqtisadi inkişaf üçün zəruri olan fondların formalaşmasını təmin etmir.

2. Real mənada qənaət edilmiş vəsaitlərin çatışmazlığı. Belə hal, əhalinin istehlak şeyləri istehsalında məşğul olan resursların müəyyən hissəsinin məhsuldar investisiyaların həyata keçirilməsi üçün istifadə etmək meyilinin azlığı ilə əlaqədardır.

3. Xarici resursların əldə olunması üçün xarici valyutanın çatışmaması [3, s.121].

Azərbaycanın neft sektorunda biznes fəaliyyətinin genişləndirilməsi istiqamətində yaradılan MM-lər burada bağlanan çoxsaylı beynəlxalq investisiya müqavilələri əsasında formalaşmışdır. Təbii ki, böyük neft ve qaz ehtiyatları ilə bol olan sahənin investisiyaları geri qaytarmaq potensialı prosesdə riskləri mülayimləşdirən amil kimi qiymətləndirilir. Neft kontraktlarının reallaşdırılması ölkənin neft sektorunda işləyən şirkətlərin sayının artmasına səbəb olmuşdur. Statistikaya əsasən, hazırda respublikada neft işi ilə məşğul olan 400-dək müxtəlif şirkət fəaliyyət göstərir ki, bunların da içərsində xeyli miqdarda xarici kapitala əsaslan MM-lər vardır.

Beynəlxalq sahibkarlığın nisbi dərəcədə yeni sosial-təşkilati forması olan MM proporsional əsasda risk və mənfəəti bölüşür, resursların daha səmərəli istifadəsini həyata keçirir, rəqabətə davamlı təsərrüfat vahidləri kimi iqtisadi baza yaratdıqları ölkədə dəyişən siyasi situasiyaya həsas reaksiya verirlər. Məxsusi mülkiyyət formasına malik olmaqla MM-lərin təsisində bir sıra spesefik məqsədlər güdülür.

Müştərək biznes fəaliyyətinin inkişafının stimullaşdırılması dolayı tənzimləmə metodları ilə həyata keçirilir. Bu tənzimləmə metodları aşağıdakı qruplara bölünür:

1. İdxalın məhdudlaşdırılması. Bu siyasət öncül sahələrin inkişafına və daxili bazarın xarici rəqabətdən qorunmasına yönəldilmişdir;

2. Müştərək biznes fəaliyyətinin inkişafının fiskal stimullaşdırılması; idxalın məhdudlaşdırılması siyasəti öz əksini gömrük siyasətində tapır. Müxtəlif tarif dərəcələrinin tətbiqi daxili bazarın qorunması funksiyasını daşıyır, zəruri olmayan malların idxalının azaldılmasını və ölkədə istehsal olunmayan məhsulların idxalını stimullaşdırır. Beynəlxalq miqyasda əmtəələrin hərəkətinin

məhdudlaşdırılması kapitalın hərəkətinə səbəb olur. Hal-hazırda Azərbaycan Respublikasında bəzi sənaye məhsulları istisna olmaqla, idxal olunan məhsullara 15 faiz idxal rüsumu müəyyən olunmuşdur. Gömrük siyasəti Azərbaycanda istehsal olunmayan bəzi hazır məhsul, xammal və materiallardan səmərəli istifadəni və kənd təsərrüfatı istehsalının inkişafını stimullaşdırmağa yönəldilib. Müştərək biznes fəaliyyətinin nizamnamə fonduna xarici investorun əmanəti kimi və ya tamamilə xarici investora məxsus müəssisənin yaradılması üçün Azərbaycan Respublikası ərazisinə gətirilən əmlak gömrük və əlavə dəyər vergisindən azaddır. Həmçinin təkrar ixrac məqsədilə və emal edilməsi üçün müvəqqəti olaraq Azərbaycan Respublikası ərazisinə gətirilən mallar gömrük rüsumundan azaddır [4, s.101].

Təşkilati strukturu müxtəlif olan bu müəssisələrdə fəaliyyət heç də həmişə məhsuldarlıqla müşaiyət edilməmişdir. Bu fikir ondan irəli gəlir ki, uzunmüddətli fəaliyyətə baxmayaraq həmin təşkilatlarda əsaslı struktur və status modernizasiyası ləng aparılmış, özəl formatlı diversifikasiya işləri görülməmişdir. Belə ki, Rusiyanın neft sektorunda mövcud MM-lərdə artıq özəl formatlı səhmləşmə prosesi aparılmış, dövlətə məxsus səhmlər federal İqtisadi İnkişaf və Ticarət Nazirliyinin sərəncamına verilmişdir. Bununla belə Azərbaycanın neftqazçıxarma kompleksində MM-lər təşkil edilən zaman onlara yetərli iqtisadi və istehsal güzəştləri tətbiq olunmuş, hasilat norması aşağı salınaraq əmlakın qəbulunda, işləmə şərtlərində xarici tərəfi daha çox qane edən kompromislərə yol verilmişdir. Digər tərəfdən onların fəaliyyəti üzrə uzun müddət ümumi mərkəzi koordinasiya sistemi təşkil olunmamış, mümkün şəffaflıq təmin edilməmişdir. MM-lərdə bütün fəaliyyət dövrü ərzində plan tapşırığının yerinə yetirilməsinə baxmayaraq nəzərdə tutulan tempdə artıma nail olunmamışdır. Əslində isə yeni texnoloji avadanlıqların daşıyıcısı olan investisiyalar burada yetərli yüksəlişi təmin edə bilməmişdir. Bu isə onu göstərir ki, xarici investorlar sahəyə həcmli investisiya qoymada hələ ki, maraqlı deyillər. Misal olaraq göstərmək olar ki, Qarasu ƏŞ hasilat artımını təmin etmək üçün 140$ milyon, «Qobustan» LTD 900$ milyon investisiya qoyuluşu proqnozlaşdırılır. Lakin indiyə qədər bu investisiyaların cüzü bir hissəsi hasilat obyektinə cəlb edilmişdir. Qeyd olunmalıdır ki, quru ərazidə neft hasilatının yarıya qədərini MM-lər təmin edirlər. Lakin ənənəvi NQÇİ-lərdə MM-lərə nisbətdə dinamiklik daha artım templidir. Sahə üzrə hər il hazırlanan illik hesabatlarda MM-lərin fəaliyyəti əksərən qənaətbəxş hesab olunmur. Burada hasilatın, qazmanın aşağı düşməsi, quyu fondunun yeniləşməməsi, neftin keyfiyyətinin aşağı olması və digər texniki-iqtisadi göstəricilərin qeyri-qənaətbəxtliyi göstərilir. Lakin ədalət naminə qeyd olunmalıdır ki, MM-lərdə məhsulun maya dəyəri, rentabellik göstəriciləri NQÇİ-lərə nisbətdə xeyli normal səviyyədədir. Bu hal isə yetərli dərəcədə təşkil zamanı bir sıra əsas fondların, köhnə təsərrüfat avadanlıqlarının balansa daxil edilməməsi ilə əlaqədar olmuşdur.

Azərbaycanın neftqazçıxarma kompleksində MM-lərin fəaliyyəti istiqamətindəki problemlərin müqayisəli təhlili belə bir nəticəyə gəlməyə əsas verir

ki, hələ ki, mövcud bu iş birliyi yetərli səmərəliliyə qovuşmamışdır. Bu qeyri-səmərəlilik determinatlarını isə aşağıdakı təsnifatda vermək olar:

Xarici investor müstəvisində:

- hasilatın texnoloji çətinlikləri fonunda sərmayə qoyuluşlarının riskli olması;
- qanunverici bazanın qeyri-təkmilliyinin aradan tam qaldırılmaması;
- bahalı olan qazma prosesinin arxa plana çəkilməsi;

MM-lərin fəaliyyətində qeyri-səmərəliliyə görüntü verən amillər çevrəsinin hər iki qütbündə normativ-hüquqi bazanın qeyri-təkmilliyi ilə bağlı məqamlar nəzərə çarpır. Hesab olunur ki, məhz normativ-hüquqi bazanın təkmilləşdirilməsi problemi bu istiqamətdə səmərəli fəaliyyətə təkan verən mühüm şərtdir. Belə ki, məlumdur ki, iqtisadiyyatın normal fəaliyyəti biznes işinin legitim çərçivədə inkişafına əsaslanır. Qeyd olunduğu kimi müasir Azərbaycan iqtisadiyyatında xarici kapitalın iştirakı prosesinin təməli artıq çoxdan qoyulmuşdur. Bu istiqamətdə beynəlxalq tələblərə uyğun ilk normativ-huquqi aktlar işlənmiş və onların təkmilləşdirilməsi məsələsi növbəti mərhələyə qədəm qoymuşdur. Lakin respublikada yaradılan MM-lərin ölkəyə yeni texnika və texnologiyaların, beynəlxalq marketinqin müasir metodlarını və qabaqcıl menecmentin cəlb olunmasında pozitiv rol oynadıqları nəzərə alındıqda, onda bu sahədə normativ-hüqüqi bazanın təkmilləşməsi ehtiyacı da şübhəsiz olaraq artır [7, s.45].

Qlobal təcrübə isə bu işdə daha geniş və konkret qanunverici şəbəkənin yaradılmasını diqtə edir. Beynəlxalq aləmdə xarici partnyorluğu hüquqi əsaslandıran mühüm qanunlar toplusu kimi «İnvestisiya kodeksi» çıxış edir. Belə kodeksin Azərbaycanda da yaradılması aktuallığı artıq iqtisadi fəaliyyətin zəruri həyat normasına çevrilmişdir. Bununla belə iqtisadiyyatın yeni dirçəliş məqamında ötən təcrübənin təhlili, buraxılmış səhvlərin təkrarlanmaması, toplanmış elmi nailiyyətləri nəzərə alınmaqla ölkədə yeni nümunədə biznes işi hərəkətə gətirilməlidir. «İnvestesiya kodeks», «Neft», «Hasilatın pay bölgüsü» haqqında qanunların işlənib hazırlanması neft sektorunda biznes işində yeni qabaqcıl seqmentlərin tətbiqinə və başlıca olaraq fəaliyyətin legitim çərçivədə inkişafına kömək edəcəkdir.

Neft sektorunda vergilərlə bağlı araşdırmalar bir də belə nəticəliyə əsas verir ki, burada qanunverici şəbəkə unifikasiya olunmalıdır. Xarici və daxili investor neft biznesi bazarına daxil olmaq istədikdə o, tam aydınlığı ilə mövcud normativ-hüquqi mühit haqqında müfəssəl informatik məlumatı bilməlidir [8, s.95].

Ölkədə neft biznesinin MM çərçivəsində inkişaf etdirilməsi üçün normativ-hüquqi bazanın təkmilləşdirilməsi, fiskal siyasətdə liberal mexanizmlərin tətbiqi ilə yanaşı daxili strukturun özündə də modernizasiya işləri aparılmalıdır. Yuxarıda qeyd olunduğu kimi artıq Rusiya Federasiyasının neft sektorunda fəaliyyət göstərən MM-lərdə istehsal və mülkiyyət diversifikasiyası aparılmışdır. İndi burada iki sahibli MM qalmamışdır. Bütün MM-lərdə geniş özəl-

ləşdirmə və səhmləşmə prosesi aparılmışdır. Əslində Azərbayjan Respublikasında da energetik sektorda bu istiqamətdə tədbirlər planı hazırlanmış və reallaşdırılmışdır. Belə ki, iqtisadiyyatın liberallaşmasını, sahibkarlığın fəaliyyətinin genişləndirilməsi, investisiya prosesinin yaxşılaşdırılması məqsədini ifadə edən «Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II dövlət proqramına» uyğun olaraq özəlləşdirmə prosesi artıq strateji sahələridən olan energetik sektoru da əhatə etmişdir. Enerji sektorunda müəyyən yardımçı strukturlar öncədən özəlləşdirilsə də indi daha iri həcmli strukturların özəlləşdirilməsi prosesi davam edir. Ölkədə aparılan özəlləşdirmə prosesi biznes fəaliyyətinin genişlənməsinə, dövlət gəlirlərinin artırılmasına səbəb olur. Belə ki, özəlləşdirmə prossesi bir tərəfdən biznesin və sahibkarlığın inkişafına rəvac verir, digər tərəfdən büdcəni yeni maliyyə resursları ilə zənginləşdirir. Buna görə də özəlləşdirmə prosesinin biznesin inkişafında rolu və əhəmiyyəti danılmazdır. Respublikada qeyd olunduğu kimi artıq bu sahədə xeyli işlər görülmüşdür. Lakin bununla belə görulləsi işlərin miqyası da xeyli genişdir. Aparılan araşdırma belə bir inkişaf proqnozu verir ki, özəlləşdirmə və səhmləşmə prosesi MM strukturlarında da aparılmalı və burada payçılığın çoxqütblüyü təmin edilməli, investisiyaların sistem və struktur dəyişiklikləri olunmalıdır.

**ƏDƏBİYYAT**


1. Волкова О.И. Экономика предприятия. ИНФРА-М, 2001, 520 с.
2. Карпей Т.В. Экономика, организация и планирование промышленного производства. Дизайн ПРО, 1999, 90 с.
3. Abbasov A.B. Biznesin təşkili və idarə edilməsi. Bakı: Elm, 2011, 108 s.
4. Abdullayev Z.S., Hacızadə E.M. Neft təsərrufatının iqtisadi strukturunun modernizasiyası. Bakı: Elm, 2003, 512 s.
5. Крокова В.А., Себастьянов А.Е. Нефтегазовый сектор России в теории и на практике. Новосибирск, 2003, 292 с.
6. Abdullayev Z.S., Abbasov A.B. Neft sənayesinin iqtisadiyyatı və idarə edilməsi. Bakı: Elm, 2000, 488 s.
7. Abbasov A.B. Sahibkarlıq fəaliyyəti: növləri, təşkili və inkişaf problemləri. Bakı: Elm, 2008, 212 s.
8. Abdullayev Z.S., Bağırova Z.Ə. Müəssisənin iqtisadiyyatı. Bakı: Biznes Universiteti, 2003, 502 s.


## СОЗДАНИЕ И АНАЛИЗ СОВМЕСТНЫХ ПРЕДПРИЯТИЙ В НЕФТЯНОЙ ИНДУСТРИИ


**Ф.З.МЕХДИ**


**РЕЗЮМЕ**


В статье описываются создание совместных предприятий, исторические аспекты и деятельность в нефтяной индустрии. Учитывается появление нефтяных проектов, анализируются факторы способствующие созданию совместных предприятий. Ссылаясь на международный опыт, на примере Российской компании, описывается деятельность совместных предприятий. Несмотря на это, развитие совместных предприятий не было

полностью достигнуто в Азербайджане. Как пример можно указать деятельность и детальный анализ компании Гарасу.

Экономическая эффективность страны может быть достигнута в случае использования всевозможных существующих ресурсов, при этом получить максимальную прибыль. На примере процесса производства, путем дополнительных затрат с точки зрения качества и цены можно получить конкурентоспособные товары.

Привлечение иностранных инвестиций, а также создание совместных предприятий, способствуют к привлечению производимых ресурсов в хозяйственном цикле. В результате повышается занятость в производственном процессе, а также увеличивается национальная прибыльность за счет создания производства натуральных ресурсов, рабочей силы и других показателей. Таким образом, увеличение объема инвестиций, которые способствуют к импорту новых технологий, новых видов управления и распространения маркетинговых технологий, приводит к высокому темпу технологического развития страны.

**Ключевые слова:** стратегия совместных предприятий, сотрудничество, разделение риска и прибыли, экономическая база, производственная устойчивость, рискованные инвестиции, чистая конкуренции

## ORGANIZATION AND ANALYSIS OF JOINT VENTURES IN OIL INDUSTRY

**F.Z.MEHDI**

### SUMMARY

The article describes the formation of joint ventures, historical aspects and functioning oil industry. Creation of joint ventures in oil industry is a result of the implementation of oil and gas projects. Thereafter, international experience of joint ventures in the example of Russian companies is analyzed. Despite of investment, the development of joint ventures in Azerbaijan is still not on the high level. Qarasu joint venture is cited as an example

Economic efficiency of the country can be achieved by using all available resources. International investments and creation of joint ventures can bring production resources at a business cycle. As a result, employment level grows up which leads to additional profit. So, increases in the volume of investment stipulates import of new technologies, new types of management and expansion of marketing tools and high pace of dechnological development.

**Key worlds:** strategy of joint ventures, cooperation, risk and profit sharing, economic base, production strength, risky investment, perfect competition

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Sosial-siyasi elmlər seriyası 2017

UOT 339.9; 339.9:061(100)

# MİLLİ İQTİSADİYYAT VƏ ONUN İNKİŞAFINDA XİF-İN ROLU

**H.H.ASLANOV**
***Baki Dövlət Universiteti***
***dosent1966@mail.ru***

*Hər bir ölkənin milli iqtisadiyyatının formalaşması onun düzgün inkişaf istiqamətinin seçilməsini zəruri edir. Dünya təcrübəsi göstərir ki, ölkənin milli iqtisadiyyatı və milli bazarı digər ölkələrlə qarşılıqlı əməkdaşlıq və sağlam rəqabət nəticəsində formalaşır və inkişaf edir. Bu zaman qarşıda duran başlıca məsələ dövlətin iqtisadi siyasətində beynəlxalq iqtisadi inteqrasiyanın hər hansı formasına üstünlük verməsidir. Ölkələr beynəlxalq iqtisadi əməkdaşlığın bu və ya digər formasına üstünlük verməklə beynəlxalq əmək bölgüsündən faydalanırlar. Məqalədə məhz bu və digər məsələlər nəzəri cəhətdən öyrənilmişdir.*

**Açar sözlər:** milli iqtisadiyyat, iqtisadi təhlükəsizlik, xarici ticarət, xarici iqtisadi siyasət.

İqtisadi təlimlər tarixindən məlumdur ki, milli iqtisadiyyat nəzəriyyəsi özünün sistemli tədqiqini F.Listin "Siyasi iqtisadiyyatın milli sistemi" əsərində tapmışdır (1841). Belə ki, siyasi iqtisadiyyatın milli sistemi nəzəriyyəsində hər şeydən əvvəl iqtisadiyyata dinamik bir sistem kimi baxaraq, insan amilinə və iqtisadi proseslərə dövlətin müdaxiləsinin forma və istiqamətlərinə xüsusi diqqət yetirilir. Bu baxımdan milli iqtisadiyyat öz köklərini siyasi iqtisadın tarixi məktəbinin nümayəndələri olan Q.Şimollerin, V.Zombartın, A.Oykenin tədqiqatlarından götürülür.

Müxtəlif iqtisadi ədəbiyyatlarda "milli iqtisadiyat" anlayışına verilən izah onu daha aydın işıqlandırmağa imkan verir. Milli iqtisadiyyat və yaxud milli iqtisadi sistem – bu ölkənin iqtisadi sistemi olmaqla bütün amillərin (daxili, xarici, iqtisadi, qeyri-iqtisadi) kompleksini əhatə edir və onların inkişafı, fəaliyyəti və s. ilə şərtlənən ümumi iqtisadi qanunauyğunluqları özündə əks etdirir. Məlumdur ki, milli iqtisadiyyat hər hansı təsərrüfat forması və ya formasiya ilə bağlı bir kateqoriya olmayıb, özündə cəmiyyətin iqtisadiyyatının müxtəlif inkişaf pillələrini, strukturunu, səviyyəsini milli xüsusiyyətlər baxımından əks etdirir (6, s.47). Bu baxımdan A.P.Qradov düzgün qeyd edir ki, milli iqtisadiyyat dedikdə, söhbət heç də tək bir millətə mənsub olan iqtisadiyyatdan getmir. Bu bütöv növ cəmiyyət, ümumidövlət səviyyəsində fəaliyyət göstərən və həmin cəmiyyətdə yaşayan bütün xalqa məxsus olan və onun mənafelərini ifadə edən

iqtisadiyyatdır (7, s.80). Hər bir ölkənin milli iqtisadiyyatı sosial, təşkilatı, elmi-texnoloji sistem kimi nəzərdən keçirilə bilər.

Bəzi iqtisadçılar milli iqtisadiyyat dedikdə beynəlxalq iqtisadiyyatla qarşılıqlı əlaqə və asılılıqda olan ayrı-ayrı ölkələrin inzibati ərazi sərhədləri üzrə təbii-coğrafi, iqtisadi-sosial və texniki-texnoloji fərqlərinə görə bölünən müstəqil təsərrüfat sistemlərini başa düşürlər.

Qeyd etmək lazımdır ki, bazar iqtisadi sistemi şəraitində respublikamızda formalaşan milli iqtisadiyyat daha çox öz xarakterik cəhətləri ilə fərqlənən sərbəst bazar iqtisadiyyatın milli modeli kimi nəzərdən keçirilir.

Müstəqillik qazandıqdan sonra respublikanın qarşısında duran əsas məsələlərdən biri ölkə iqtisadiyyatının dünya təsərrüfatına səmərəli inteqrasiyasını təşkil etməklə iqtisadi artıma nail olmaq vəzifəsi olmuşdur.

Məlumdur ki, inkişaf mərhələsində olan hər hansı bir ölkə kimi Azərbaycanda formalaşan açıq bazar iqtisadiyyatı modelinin xarakteri hər şeydən əvvəl iqtisadi inkişafın start vəziyyətindən, milli iqtisadiyyatın formalaşmasını şərtləndirən tarixi-siyasi amillərdən, həyata keçirilən islahat modelindən, müxtəlif mülkiyyət formalarının nisbətindən, dövlətin iqtisadiyyata müdaxiləsinin forma və miqyasından, ümumən qeyri-iqtisadi amillərdən və s.-dən asılı olaraq müxtəlif ola bilər. Fərqli cəhətlərinə baxmayaraq, inkişaf mərhələsində olan respublikamızda formalaşan milli iqtisadiyyatın fəaliyyəti əsasən milli iqtisadi təhlükəsizliyin, milli maraqların reallaşmasına, ölkənin beynəlxalq miqyasda rəqabət qabiliyyətinin yüksəldilməsinə və nəhayət, onun dünya təsərrüfat sisteminə daha səmərəli inteqrasiyasını təmin etməyə istiqamətlənir (2, s. 96).

İqtisadiyyatın formalaşdırılmasında onun düzgün inkişaf istiqamətinin seçilməsi mühüm əhəmiyyət kəsb edir.

Ümumiyyətlə,hər bir ölkənin iqtisadiyyatının inkişafı özünəməxsus bir çox amillərlə (8, s.50):

- Təbii resurslar balansı və ondan istifadə dərəcəsi ilə;
- Yığılmış kapitalın kəmiyyəti ilə;
- Cəmiyyətin demoqrafik quruluşu ilə;
- Milli mentalitet və dini inamların xüsusiyyəti ilə;
- Ölkənin ictimai-siyasi və dövlət quruluşu ilə;
- Ölkənin dünya iqtisadiyyatına qovuşması dərəcəsi və s. ilə şərtlənir.

Bazar iqtisadiyyatı şəraitində iqtisadi inkişafın təmin edilməsində mühüm şərtlərdən biri ölkənin xüsusiyyətinə uyğun inkişaf tendensiyasının seçilməsidir.

İqtisadiyyatın inkişafının əsas tendensiyaları islahatların kursunun seçimindən asılıdır. Təcrübə göstərir ki, islahatların həyata keçirilməsində standart yanaşmalardan (qərb iqtisadiyyatının 50-ci illərdəki təcrübəsindən) istifadə olunması heç də bütün hallarda iqtisadiyyatın mövcud səviyyəsinə uyğun gəlmir.

Radikal liberalizm ideologiyası, azad rəqabətdən irəli gələn monetarizm, iqtisadi siyasət, demək olar ki, üç istiqamətdə özünü qabarıq büruzə verir: liberallaşdırma, özəlləşdirmə və pul kütləsinin ciddi planlaşdırılması vasitəsilə stabilləşdirmə. Bir şeyi nəzərə almaq lazımdır ki, iqtisadiyyatın real sektorunun

inkişafını inkar etməklə monetar kursun davam etdirilməsi iqtisadiyyatın durğunluğa sürüklənməsini zəruri edə bilər.

Dünya iqtisadi ədəbiyyatında iqtisadiyyatın transformasiyasının iki əsas variantı qeyd olunur. Birincisi, "şok terapiyası" variantı qısa müddətdə maksimum radikal tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. İkincisi, islahatların mərhələlər və ardıcıllıq üzrə dərinləşməsinə əsaslanır və "qradualizm siyasəti" adını almışdır.

Birinci model əsasən Polşa və Almaniyada reallaşdırılmışdır. Bu islahatların ideologiyası barədə Çexiya prezidenti Vaçlav Qavel obrazlı şəkildə belə fikir söyləmişdir ki, "uçurumu iki tullanmaya dəf etmək mümkün deyil" əgər sürətli dəyişikliklər mümkündürsə ondan imtina etmək olmaz. Polşanın və digər ölkələrin təcrübəsi göstərir ki, makrosistemdəki bəzi dəyişikliklər çox tez bir vaxtda baş verə bilir: qısa müddətdə kiçik sahibkarların fəaliyyəti ilə bağlı məhdudiyyətlər aradan qaldırılır, bazarın liberallaşdırılması və valyuta nəzarətinin ləğv edilməsi həyata keçirilir. Lakin real,dərin dəyişikliklər çox ləng həyata keçir. Əlbəttə, özəlləşdirməni kiçik bir müddət ərzində başa vurmaq olar, ancaq bundan sonra onun nəticələrini onilliklərlə korrektə etmək lazım gəlir. Radikal islahatların birinci variantını qəbul edən islahatçılar xalqın inamını qazanmaq üçün tez nəticələr əldə etmək, onları qoruyub saxlamaq və gələcək dəyişikliklərlə təminat almağa çalışırlar.

İkinci variant isə islahatlarn mərhələlər üzrə aparılmasını nəzərdə tutur ki, bu zaman ilk əvvəl kənd təsərrüfatında və böhran içində olan digər sahələrdəki məhdudiyyətlər aradan götürülür. Sonradan isə institusional strukturun zəruri elementləri yarandıqca bu proses iqtisadiyyatın digər sahələrinə də şamil edilir. Belə strategiya islahatların həyata keçirildiyi ilk dövrlərdə effektivliyin və gəlirlərin artımına əsaslanır və gələcəkdə daha dərin çətin dəyişikliklərə stimul yaradır.

Ümumiyyətlə, məlumdur ki, bazar iqtisadiyyatı sistemində ölkələri fərqləndirən əsas makroiqtisadi göstərici kimi ÜDM-in artım tempi çıxış edir (3).

Qeyd etmək lazımdır ki, ÜDM-in yüksək artım tempi həmin ölkədə yüksək həyat səviyyəsi demək deyil. Hər bir konkret ölkədəki şəraitin dəyişməsi nəticəsində ölkələr bir qrupdan başqa qrupa keçə bilərlər. Buna baxmayaraq hər bir halda iqtisadiyyatın inkişaf tempi iki faktordan asılı olacaqdır:

1. Təbii resurslar, insan kapitalının keyfiyyəti, bazarın masştabı və əhalinin sayını əhatə edən potensial inkişaf bazasından;

2. Həmin ölkələrin hökumətləri tərəfindən seçilmiş inkişaf strategiyasından.

Axırıncı faktor strateji məsələlərin həllində bütün hökumətlərin üzərinə böyük məsuliyyət qoyur. Rusiyanın iqtisadi nəzəriyyə sahəsində mötəbər sayılan jurnalında aparılan belə bir təhlildə Azərbaycanın ÜDM-in artım tempinə görə dünya ölkələri arasında qabaqcıl ölkələrin siyahısına daxil edilməsi bizdə nə qədər fəxr hissi yaratsa da, bu heç də, o demək deyildir ki, bizdə artıq bu tempi daima saxlamaq və ya onu artırmaq təminatı mövcuddur.

Fikrimizcə bu təminatı yaratmaq üçün aşağıdakı tədbirlərin ardıcıl surətdə həyata keçirilməsi zəruridir:

- işgüzar biznes qaydalarının müəyyən edilməsi məqsədilə institutsional dəyişikliklərin həyata keçirilməsi;

- rəqabətqabiliyyətliliyin gücləndirilməsi, xərclərin azaldılması məqsədilə dövlət yeni texnologiyaların tətbiqinə, istehlakın azaldılmasına, enerji və materialların qənaətini şərait yaradan fəaliyyəti həyata keçirməlidir. Vergitutmanın stimullaşdırıcı rolu artırılmalı, ölkədə xaricdən gətirilən avadanlıq və texnologiyalara görə rüsümların tutulması qaydaları dəyişməlidir;

- hökumət əhalinin optimal məşğulluğunu tənzimləməlidir;

- işgüzar aktivliyin oyanışı və makroiqtisadi stabillik maliyyə bazarının formalaşasına şərait yaratmalıdır. Kommersiya banklarının sərbəst maliyyə vəsaitlərinin sənaye və kommersiya sahibkarlığının inkişafına investisiya olunmasına şərait yaratmaq və bu məqsədlə investisiya kreditlərinə görə faiz dərəcələrinin azaldılması üçün mərkəzi Bankn təmzimləyici təsirindən istifadə etmək lazımdır;

Nəhayət, bir şeyi qeyd etmək istərdik ki, bütün göstərilən tendensiyaların reallaşması makroiqtisadi sabitlik şəraitində mümkün ola bilər.

Dünya təcrübəsi göstərir ki, hər bir ölkənin milli iqtisadiyyatı və milli bazarı, ancaq digər ölkələrlə qarşılıqlı əməkdaşlıq və rəqabət nəticəsində formalaşır və inkişaf edir. Bu zaman meydana çıxan əsas problem dövlətin iqtisadi siyasətində beynəlxalq iqtisadi inteqrasiyanın hər hansı formasına üstülük verməsi məsələsidir (5, s. 36). İqtisadi ədəbiyyatlarda beynəlxalq iqtisadi inteqrasiyanın üç tipi xüsusi seçilir. Birincisi, daha çox Qərbi Avropa yolu adlanır. Bu, milli və beynəlxalq mənafelərin tarazlığıı əsas götürən, inkişaf etmiş Avropa ölkələrin vahid valyutasına əsaslanan ümumi bazar yaratmaq cəhdidir. Bu gün Maastrix və Şengen müqavilələrinin şərtlərinin reallaşdırılması nəticəsində bu proses artıq fəaliyyət göstərir. Beynəlxalq iqtisadi inteqrasiyanın ikinci yolu geri qalmış ölkələrdə mövcud olan və son nəticədə ölkələri bir çox hallarda inkişaf etmiş ölkələrin xammal əlavəsinə çevrilməsinə gətirib çıxaran açıq iqtisadiyyat tipidir. Dünya iqtisadi əlaqələrinin qarşılıqlı qovuşmasının üçüncü yolu zəif inkişaf etmiş ölkələrin tədricən, mərhələ-mərhələ, perspektiv milli mənafelərini nəzərə alaraq dövlətin yeritdiyi güclü, eyni zamanda optimal, liberal və himayədar iqtisadi siyasət nəticəsində dünya təsərrüfatına qovuşması yoludur. Məhz bu formada respublikamızın dünya iqtisadiyyatına qovuşması prosesi milli inkişaf üçün məqbul hesab edilməlidir.

Milli iqtisadiyyat və milli bazarın formalaşması və inkişafına xarici iqtisadi əlaqələr də güclü təsir göstərir. Daxili inkişaf amillərinin məhdud olduğu inkişaf şəraitdə mövcud təbii resurs, elmi-texniki istehsal imkanlarından maksimum istifadə etməklə, ixrac potensialının artırılmsı, xüsusilə obyektiv zərurətə çevrilir (4, s.128). Bu isə öz növbəsində müvafiq vergi, gömrük, kredit habelə himayədar siyasətin yeridilməsini tələb edir. Bu problemin həllində xarici sahibkarların və investorların bu prosesə cəlb olunması, xüsusilə əhəmiy-

yətlidir. Respublikamızda ixrac potensialını artırmaq üçün ilk növbədə neft və qeyri-neft məhsullarının həm xammal,həm də onların emalını dərinləşdirmək, neft və neft-kimya məhsullarının isthsalının artırılması, habelə sənaye müəssisələri kompleksi hesabına birgə müəssisələr təşkil etmək mühüm istiqamətlərdən hesab olunmalıdır.

Əlbəttə, inkişaf mərhələsində ölkənin qarşısında duran sosial, iqtisadi, iqtisadi təhlükəsizliyin təmin edilməsi ilə bağlı perspktiv mənafelər baxımından bu proseslərin qiymətləndirilməsi meyarı hər bir konkret halda müxtəlif ola bilər. Açıq bazar prinpislərinə uyğun iqtisadiyyatın formalaşdırılması, milli istehsalçıların ixrac istiqamətində stilullaşdırılması bazarın fəaliyyətinin mühüm tipləri olan istehsalın səmərəliliyi və sosial ədalətin sıx uzlaşdırılmasını tələb edir. Məlumdur ki, istehsalın səmərəliliyinə bazarın olan tələblərini ziddiyyətli reallaşdırmaq, bir tərəfdən cəmiyyətdə sosial diferensiasiyanı gücləndirir, digər tərəfdən isə səmərəsiz fəaliyyətə görə müflisliyə düçar edir. Bu proses rəqabətin daha sərt olduğu xarici iqtisadi fəaliyyətdə özünü daha kəskin büruzə verir.

Ümumiyyətlə, milli iqtisadiyyatlar inkişaf səviyyəsindən asılı olmayaraq müxtəlif quruluşa malik olurlar. Belə ki, məlum tarixi, iqtisadi, təbii və s. şərtlərdən asılı olaraq ayrı-ayrı ölkələr müxtəlif qrup məhsullar üzrə ixtisaslaşırlar. Buna uyğun olaraq son nəticədə əmtəə, xidmət və kapitalın idxal və ixracının həcmi və quruluşu iqtisadiyyatın strukturundan, xüsusən xarici iqtisadi əlaqələrin xarakterindən asılı olur. Bu məqsədlə milli iqtisadiyyatın xarakterinə beynəlxalq ticarətin təsirini aşkara çıxarmaq üçün aşağıdakı göstəricilərdən istifadə məqsədəuyğun hesab edilə bilər:

- Ölkə əhalisinin beynəlxalq ticarətdən aslılıq əmsalı – Bu ölkə daxilində istehlak olunan bütün əmtəə və xidmətlərin xaricdən daxil olan əmtəə və xidmətlərin həcminə nisbəti kimi müəyyən olunur;
- İdxal və ixraca meyllilik – Bu idxal və ixracın milli gəlirə nisbəti kimi müəyyən edilir;
- İdxal və ixracın elastikliyinin qiymət və gəlirə nisbəti – Bu gəlir və qiymətin nisbət dəyişməsindən asılı olaraq idxal və ixracın nisbi dəyişməsi kimi müəyyən edilir.

Qeyd etmək lazımdır ki, hər bir ölkədə milli iqtisadiyyatın formalaşmasında bu və ya digər amilin rolu müxtəlif ola bilər. Burada əsas məsələ mövcud iqtisadi potensialdan və subyektiv amillərdən mümkün qədər səmərəli və məqsədyönlü istifadə olunması məsələsidir.

Şübhəsiz ki, müasir dövrdə hər bir dövlətin iqtisadi həyatında mərkəzi yeri xarici ticarət, iqtisadi, elmi-texniki əməkdaşlıq, istehsal, elm və texnika sahəsində ixtisaslaşma və kooperasiya, inşaat, nəqliyyat, sığorta, hesablaşma, kredit və digər bank əməliyyatları sahəsində əməkdaşlıq, eləcə də müxtəlif xidmətlərin göstərilməsini əhatə edən xarici iqtisadi fəaliyyət tutur.

Ümumiyyətlə, xarici iqtisadi fəaliyyət dedikdə,ticarət,birgə sahibkarlıq, müxtəlif xidmətlərin göstərilməsi və beynəlxalq əməkdaşlığın digər formaları

da daxil olmaqla xarici iqtisadi əlaqələrin həyata keçirilməsinin istehsal-təsərrüfat, təşkilati-iqtisadi və operativ-kommersiya vasitələri başa düşülür (9, s. 109).

Xarici iqtisadi fəaliyyətlə xarici iqtisadi əlaqələri fərqləndirmək lazımdır. Xarici iqtisadi əlaqələr təsərrüfat-ticari və dövlətlərarası iqtisadi münasibətlərin digər formalarını əhatə edir. Xarici iqtisadi fəaliyyətin xarici iqtisadi əlaqələrdən fərqi ondan ibarətdir ki, xarici iqtisadi fəaliyyət dövlətlərarası səviyyədə deyil, XİF iştirakçıları adını almış ayrıca təsərrüfat subyektləri (mülkiyyət formasından asılı olmayaraq müəssisə, təşkilat, idarələr) səviyyəsində həyata keçirilir.

XİF-in iştirakçıları xarici bazar və xarici tərəfdaşların, idxal və ixrac mallarının nomeklaturasının, müqavilənin dəyər və qiymətinin, çatdırılma müddətinin və hesablaşma formasının seçilməsində müstəqildirlər.

Hazırda xarici iqtisadi fəaliyyətin müxtəlif formaları bu və ya digər qərarın qəbul edilməsində tam müstəqil olan təsərrüfat subyektləri tərəfindən həyata keçirilir. Eyni zamanda XİF iştirakçıları gəlir normasının artmasına, xarici tərəfdarların hesabına əldə olunan və həyata keçirilən xidmətlərin həcm və keyfiyyətinin genişlənməsinə şərait yaradır.

XİF-ə birbaşa təsir göstərən amillər çoxdur: dünya ölkələrinin iqtisadi inkişaf səviyyəsinin qeyri-bərabərliyi, insan, xammal və maliyyə resurslarının müxtəlifliyi, dövlətlərin elmi-texniki inkişaf səviyyəsinin müxtəlifliyi, onların coğrafi vəziyyəti, təbiət və iqlim şərtləri və s.

XİF, əsasən aşağıdakı növlərə bölünür:

- Xarici ticarət fəaliyyəti
- istehsal kooperasiyası
- beynəlxalq investisiya əməkdaşlığı
- valyuta və maliyyə-kredit əməkdaşlığı

Bu növlərdən ən geniş istifadə ticarət fəaliyyətidir ki, bu da malların, xidmətlərin, informasiyanın və intellektual fəaliyyətin nəticəsinin beynəlxalq mübadiləsini əhatə edir.

Hər bir dövlət öz mənafeyinə uyğun xarici iqtisadi əlaqələrini həyata keçirir. Dövlətin xarici iqtisadi əlaqələri onun xarici iqtisadi siyasətinə əsasən reallaşdırılır. Ümumiyyətlə, dünya dövlətlərinin xarici iqtisadi siyasətində iki istiqamət fərqlənir: proteksionizm və azad ticarət.

Proteksionizmin tərəfdarları dövlətin öz daxili istehsalını xarici rəqabətdən qorumasını vacib hesab edirlər ki, idealda dövlət yox, bazar idxal və ixracın strukturunu formalaşdırmalıdır. Hər bir dövlət öz iqtisadi inkişaf səviyyəsinə uyğun olaraq bu iki istiqamətin birləşməsinin bu və ya digər proporsiyasını xarici iqtisadi siyasətində əks etdirir.

Milli iqtisadiyyat üçün ticarətdə liberallaşmanın geniş olması yüksək iqtisadi artım, iqtisadiyyatda geniş ixrac potensialı dövründə xarakterikdir və əksinə iqtisadi durğunluq və tənəzzül, ixrac potensialının azalması dövründə

proteksionizm tərəfdarlarının arqumentlərinin əsas götürülməsi daha məqsədəuyğun olardı.

Ölkənin yüksək ixrac potensialı, rəqabət qabiliyyətli əmtəə istehsalı iqtisadiyyatın inkişafının əsas göstəriciləridir. Hər bir dövlət çalışır ki, ixracı artsın, idxalı isə azalsın. Bu zaman belə bir paradoks yaranır – millət şüurlu şəkildə istəyir ki, hər hansı bir əmtəəni versin, lakin almasın. Bəs bu ölkə daxilində istehlakın ixtisarına gətirib çıxarmır ki? Xarici iqtisadi əlaqələr milli iqtisadiyyatın makroiqtisadi tarazlığına təsir edirmi və hansı yolla?

Açıq iqtisadiyyat şəraitində xaici faktorlar – ixrac, idxal, xarici investisiya ölkədaxili istehsala, ÜMM-in səviyyəsinə və məşğulluğa təsir edir, nəticədə bu xarici faktorların köməyi ilə makroiqtisadi tarazlığa təsir göstərmək mümkündür. İxrac malları əslində xarici vətəndaşların tələbatını ödəyir, lakin o, eyni zamanda milli istehsalın həcminə, gəlirə və məşğulluğa impuls verir. Qapalı iqtisadiyyatı təhlil edərkən belə nəticəyə gəlmək olar ki, ÜMM (Y) ölkə daxili tələbə (C), investisiyaya (İ) və dövlət xərclərinə (G) sərf olunur. Bunu aşağıdakı formulda ifadə etmək olar:

$$Y=C+İ+G \quad (1)$$

Bu zaman tələb, investisiya və dövlət xərcləri ilə yanaşı ixrac da məcmu xərclərin tərkib hissəsi kimi çıxış edir, yəni o, məcmu tələbi artırır.Məcmu xərclərin daha böyük həcmi istehsalın daha yüksək tarazlı həcminə uyğun gəlir. Nəticə etibarilə ixracın həcmi ÜMM artıra bilər. Eyni təsir xarici investisiyalar baxımından da doğrudur.

Yuxarıda göstərilən (1) düsturunda idxalı nəzərə alsaq, bu zaman onun ÜMM-in funksiyası olduğunu görərik. Başqa sözlə, idxal olunan mallara ölkə daxilində istehsal olunmuş ÜMM-in bir hissəsinin xərclənməsi gərək olur ki, bu da mallar hansı ölkədən idxal olunursa həmin ölkədə istehsalı stimullaşdırır. Bu yolla idxal ölkə daxilində istehsala sərf olunan xərclərin azalmasına gətirib çıxarır, (1) düsturunda ixracı (X) və idxalı (M) yerinə yazsaq aşağıdakı düstur alınacaq.

$$Y=C+İ+G+X-M \quad (2)$$

İlk baxışdan hər hansı bir ölkə üçün bu düsturdan çıxarış birmənalıdır. İstehsalın tənəzzülü dövründə idxalı azaltmaq, ixracı isə həvəsləndirmək lazımdır. Ümumulikdə götürdükdə belə yanaşma doğrudur. Lakin yaddan çıxarmaq deyil ki, bir ölkənin ixracı digərinin idxalıdır. Nəticədə, bütün ölkələrin ixraca orientasiyası, yəni digər ölkələrin hesabına öz istehsalının stimullaşdırılması mümkün olan iş deyil.

Keyns nəzəriyyəsinə görə əgər ölkənin idxalı ÜMM-in funksiyasıdır ki, onda ixracı dıgər ölkənin ÜMM-nin funksiyasıdır. Buradan belə nəticəyə gəlinir ki, ixracın ixtisarı və ya artırılması yalnız bir dövlətin istəyindən asılı deyil, eyni zamanda digər ölkələrin ÜMM-nin artırıb-azaltmaq istəyindən də asalıdır. Bundan başqa ixrac mallarının xarici bazarda satış istəyi digər ölkələrin alıcılıq qabiliyyəti, həmin məhsulların istehlak etmək istəyi ilə də möhkəmlənməlidir.

Digər tərəfdən ixracın genişləndirilməsi birbaşa idxala tələbdən asılıdır. İdxal üzrə dövlət nəzarəti daxili bazarı bir çox istehlak mallarından məhrum edə və ölkədə istehlakı azalda bilər. İxrac ekspansiyası şəraitində, yəni ökə istehsalının yalnız rəqabət qabiliyyətli ixraca yönəldilməsi zamanı daxili bazar kasıblaşır, burda, ancaq qeyri-bərabər qabiliyyətli məhsullar qalır. Nəhayət, artıq qeyd etdiyimiz kimi ixracın həvəsləndirilməsi yalnız o zaman iqtisadi artıma və əhalinin rifah səviyyəsinin yüksəlməsinə gətirib çıxarır ki, ixracdan əldə edilən gəlir digər istehsal sahələrinin saxlanmasına deyil, iqtisadiyyatda yeni struktur dəyişikliklərinə xərclənsin və bu yolla ölkə BƏB sistemində daha layiqli yer tutsun və öz üstünlüklərindən daha çox gəlir götürsün.

Cəmiyyətin iqtisadi vəziyyətini təhlil edərkən idxal və ixrac arasındakı qarşılıqlı əlaqə ön plana çəkilir. Bu qarşılıqlı əlaqə tədiyyə balansı vasitəsilə müəyyən edilir ki, bu da ölkənin ticarət balansının tərkib hissəsini təşkil edir. Qeyd edək ki, tədiyyə balansının əsasını onun saldosu-ixrac və idxal arasındakı fərq təşkil edir. İdxalın ixracı üstələnməsi mənfi saldoya səbəb olur ki, bu da xoşagəlməz iqtisadi nəticələrə gətidirib çıxarır və xarici ticarət defisitinə səbəb olur. Həmin defisiti aradan qaldırmaq üçün ölkə borcun etməli olur, həmin borcun ödənilməsi isə çox vaxt daxili istehlakın azaldılmasına səbəb olur.

## ƏDƏBİYYAT


1.Аббасов Ч.М. Основные направления формирования внешнеэкономической политики Азербайджана. Баку: Сабах, 1994, 374 с.
2.Ахмедов А.Л. Теоретические и методологические проблемы внешнеэкономических связей. Баку: Элм, 1999, 167 с.
3. Səmədzadə Z.Ə. Milli iqtisadiyyatın inkişaf meylləri və perspektivləri. “İqtisadiyyat” qəzeti, 27 mart, 2009-cu il.
4. Səfərov S.İ. İqtisadi siyasət strategiyası: konseptual əsaslar. Bakı: Elm, 2000, 647 s.
5. Соколов В.Современный мир и национальная экономическая политика. Мировая экономика и международные отношения. М.: ИНФРА, 2007, 74 с.
6. Бункина А.Н.Национальная экономика. М., 2000, 645 с. (47с.)
7. Градов А.П.Национальная экономика. Санкт-Петербург, 2007, 458 с. (80 с.)
8. Əhədov M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı: Çaşıoğlu, 2009, 430 s. (50 s.)
9. Тимошенко И.В. Таможенное регулирование ВЭД. М., 2003, 675 с. (10 с.)


## НАЦИОНАЛЬНАЯ ЭКОНОМИКА И РОЛЬ ВНЕШНЕЭКОНОМИЧЕСКИХ СВЯЗЕЙ В ЕЕ РАЗВИТИИ

**Г.Г.АСЛАНОВ**

**РЕЗЮМЕ**

Формирование национальной экономики каждой страны требует правильного выбора направления развития. Мировой опыт показывает, что национальная экономика и национальный рынок страны формируется и развивается во взаимосвязи и свободной конкуренцией с другими странами. При этом главная задача состоит в предпочтении

какой-либо формы международной экономической интеграции в экономической политике государства.

Страны, участвуют в международном разделении труда, отдавая предпочтение той или иной форме международного экономического сотрудничества. В статье были теоретически изучены эти и другие вопросы.

**Ключевые слова:** национальная экономика, экономическая безопасность, международная торговля, внешнеэкономическая политика.

## NATIONAL ECONOMY AND THE ROLE OF FOREIGN ECONOMIC RELATIONS IN ITS DEVELOPMENT

**H.H.ASLANOV**

### SUMMARY

The formation of the national economy of each country requires the right choice of the direction of development. World experience shows that the national economy and national market of the country are formed and develop in interconnection and free competition with other countries. At the same time, the main task is to prefer some form of international economic integration in the economic policy of the state.

Countries participate in the international division of labor, preferring some form of international economic cooperation. The article theoretically studies the aforementioned questions.

**Key words:** national economy, economic security, international trade, economic policy.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2017*

## FƏLSƏFƏ

UOT 58.04.01

# MÜASİR DÖVRDƏ ELMİ VƏ DİNİ DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞMASININ ƏHƏMİYYƏTİ

**F.M.ALLAHVERDİYEVA**
***Bakı Qızlar Universiteti***
***feride.esed1 @gmail.com***

*Müasir dövrümüzdə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə dünyagörüşünün məhdudluğu faktının, xüsusilə də gəncləri pis yollara istiqamətləndirən mənfi halların artması olduqca aktual problem hesab olunur. Cəmiyyətin inkişafı onu təşkil edən hər bir insanın, o cümlədən onun aparıcı qüvvəsi olan gənclərin sağlam sosial inkişafına bağlıdır. Dünyagörüşü quruluşuna görə mürəkkəbdir. Onun tərkibi zehni, emosional və iradi komponentlərdən ibarətdir. Zehni komponent varlığın insan şüurunda inikası ilə bağlıdır. Burada hissi idrakla məntiqi idrak birləşir. İnsan mücərrəd təfəkkürün köməyilə ümumiləşdirmələr aparır, qanuna-uyğun əlaqələri dərk edir və bu əsasda ümumi baxışlar sistemi formalaşır. Bu baxımdan gənclərin dünyagörüşü probleminin araşdırılması zəruridir.*

**Açar sözlər:** dünyagörüşü, təfəkkür, din, cəmiyyət, ideya, baxış, sosial inkişaf

Dünyagörüşü səciyyəli baxışları təhlil edərkən tərbiyənin məqsədinin həqiqi həyatdan kənarda olduğu görünməkdədir. İnsan çox qəribə, çox gözəl və çox mükəmməl varlıqdır. Bu gün gənclərdə dünyagörüşünün düzgün istiqamətləndirilməsi müəllimlər üçün çox vacib məsələlərdən biridir. Dünyagörüşü dünyaya (yəni təbiətə, cəmiyyətə və təfəkkürə) olan elmi fəlsəfi, sosial-siyasi, əxlaqi estetik baxışların bütöv bir sistemidir (1, s.125). Amma bu fikirlə tam razılaşmaq düzgün deyildir. Çünki təbiət, cəmiyyət və təfəkkür elə dünya deməkdir. Dünyagörüşünü bütün elmlərə aid etmək olmaz. Fəlsəfi baxışlar, estetik baxışlar və ya əxlaqi baxışlar da müxtəlif ola bilər. Eyni sahədə olan müxtəlif baxışları mexaniki şəkildə birləşdirmək və vahid sistemə salmaq mümkün deyil. Ona görə ki bütün sahələrdəki müxtəlif baxışlar bütöv bir sistem əmələ gətirə bilməz. Dünyagörüşü üçün vahid baxış səciyyəvidir. Baxışların vahidliyi dünyanın bütün hadisələrinə, eyni zamanda həm elmi bilikləri, həm fəlsəfi və ya dini bilikləri özündə ehtiva edə bilməz. Dünyagörüşü səciyyəli baxışlar həm hadisələrin dərk olunmasında, həm də adamın fəaliyyətində əsas götürülür. Deməli, təbiət, cəmiyyət və təfəkkür hadisələrini adamın dərk etməsinə və fəaliyyət göstərməsinə istiqamət verən vahid baxışlara dünyagörüşü deyilir (2, s.288).

Pedaqogikaya görə dünyagörüşünün dörd başlıca forması olmuşdur: dia-

lektik materializm dünyagörüşü, idealizm dünyagörüşü, dini dünyagörüşü və hürufizm dünyagörüşü. Müasir dövr üçün dialektik materializm (bu dünyagörüşü bu günümüz üçün elmi xarakter daşıyır) və dini dünyagörüşü səciyyəvidir.

İnsanın dünyaya münasibətinin, dünyabaxışının inkişaf səviyyəsini, insan idrakının fəaliyyətinin göstəricisi olmuş, ümumiyyətlə, fəlsəfə mədəniyyətini aşkar etmişdir. İnsan biliyinin ən mürəkkəb və çətin sahəsi olan fəlsəfənin anlayış mənşəyi sözlərin birləşməsi ilə əlaqədardır. Belə baxışların məcmusu dünyagörüşü anlayışında öz əksini tapır.

Dünyagörüşü insanın dünyaya münasibətində onun təbiət və cəmiyyətə, habelə özünə dair əldə etdiyi, nail olduğu duyğuların, təsəvvürlərin, qavrayışların, ideya və nəzəriyyələrin, əsas prinsiplərin məcmusundan təşkil olunmuşdur. Dünyagörüşü adamların yaşadığı və fəaliyyət göstərdiyi, siyasi mənəvi mühitdən və onların savad dərəcəsindən, milli adət-ənənələrin, mədəniyyətin səviyyəsindən asılı olaraq yaranır.

Müasir dövr üçün Azərbaycanda elmi və dini dünyagörüşü formalaşmaqdadır. Elmi dünyagörüşünə görə dünyada təbii qanunauyğunluqlar hökm sürür. İnsanın vəzifəsi həmin qanunauyğunluqları başa düşməkdən və öz məqsədləri üçün ondan istifadə etməkdən ibarətdir. Dünyagörüşünün bu və ya digər forması adamların yaşadığı və fəaliyyət göstərdiyi ictimai-iqtisadi, siyasi mənəvi mühitdən, onların savad dərəcəsindən, milli adət və ənənələrin, mədəniyyətin səviyyəsindən asılı olaraq yaranır. Azərbaycanda ümumtəhsil məktəblərini və dini məktəbləri bitirən gənclərin dünyagörüşü, düşüncə tərzi tam fərqlidir. Dini məktəbləri bitirən gənclər dini dünyagörüşünə, ümumtəhsil məktəblərini bitirən gənclər isə elmi dünyagörüşünə meylli olurlar. Müəllimlər çalışmalıdırlar ki, gənclərdə formalaşan belə düşüncə XXI əsrə uyğun formalaşsın. Dini dünyagörüşü elmi dünyagörüşdən ayrmaq olmaz. Elm inkişaf etdikcə, adamlar elmi biliklərə yiyələndikcə insanlar elmi dünyagörüşünə əsaslanıb dini biliklərə yiyələnirlər. Dinin o cümlədən İslam dinin faydalı cəhətləri çoxdur. Hələ islamdan əvvəl Azərbaycan ərazisində yaranmış Zərdüşt dinində xeyli fikirlər söylənmişdir. Zərdüştün fikirləri Avesta adlı kitabda şərh edilmişdir. O fikirlərdən birinə nəzər salaq: "Çalışın alim ilə cahil arasında fərq qoyasınız, alimlər həyatın yol göstərənləridir" (3, s.294).

Bu cür dəyərli fikirlər İslam dinində çoxdur. İslam dini adamları paklığa, halallığa, dostluğa səsləyir. Məhəmməd peyğəmbərin (s.ə.s.) hədislərində deyilir: "İnsanın dini onun ağlıdır, ağlı olmayanın dini də yoxdur" (4, s.44). İslam dinindəki bu cür faydalı fikirlərdən gənclər hali olmalıdırlar. İslam dininin tarixinə bələd olan, Qurani-Kərimi elmi cəhətdən dəyərləndirməyi bacaran müəllimlər bunun gənclərin tərbiyəsində çox böyük əhəmiyyəti olduğunu bilməlidirlər.

1998-ci ildə Bakıda keçirilən "Müstəqillik və dini-mənəvi dəyərlər" adlı beynəlxalq konfransda Heydər Əliyev dünyəvi dövlətdə etiqad azadlığı prinsiplərini geniş açıqlayaraq demişdir ki, "Dövlətimiz insanlara bütün azadlıqları vermiş və vicdan azadlığını, din azadlığını öz siyasətinin əsas hissəsi hesab

etmişdir. Azərbaycan Respublikası Konstitutisiyası din və vicdan azadlığını təsbit etmiş, biz isə bir dövlət kimi bunun təmin olunmasının qarantıyıq. Bəli, ona görə də bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik (5, s.5). Dünyagörüşünün təbiəti mürəkkəbdir, o, struktur etibarı ilə üç elementdən - dini ideyalar və təsəvvürlərdən; dini hisslər və əhval-ruhiyyə tərzlərindən və dini fəaliyyət və ya ayinçilikdən təşkil olunmuşdur.

Fəlsəfədə bu problem onu əsl mahiyyət məxrəcinə gətirib çıxaran "azadlıq" problemidir. Azadlıq dərk edilmiş zərurət olmaq etibarı ilə "insan-dünya" münasibətləri sistemində əbədi problemdir. Necə ki, insan və dünya mövcuddur, azadlıq da problem kimi, hər an, hər dəqiqə mövcud olacaqdır. Dini dünyagörüşünün müxtəlif formalarında gerçəkliyin inikası və insanların təcrübəsi müxtəlif səviyələrdədir.

Dünyagörüşü özünün meydana gəlməsi və inkişafının tarixiliyinə və dünyanın inkişafının dərəcəsinə görə bir sıra tarixi formalardan ibarət olmuşdur. İnsanın bu və ya digər əqidəyə mənsubluğu onun dünyagörüşü ilə müəyyən edilir. Bu barədə çox fikirlər söylənilib. Dünyagörüşü insanın dünyaya baxışıdır, yəni insanın varlıq aləminə, müvcudat aləminə baxışıdır.

Gənclərin dünyagörüşündə əmələ gələn çətinliklərə müxtəlif amillər təsir edir. Ölkədə baş verən iqtisadi, siyasi ideoloji amillərlə yanaşı, gənclərin həyatında, ailə münasibətlərində, dostluq əlaqələrində, bilik səviyyələrində, ailə tərbiyəsində, təhsilin xarakterində yaranan yeniliklərin rolu az deyildir. Gəncləri düzgün istiqamətləndirmək üçün onların üç qabiliyyəti inkişaf etdirilməlidir: zəkası, iradəsi, yaradıcılıq qüvvələri.

Əgər bu qabiliyyətləri yeniyetmələrdə formalaşdıra bilməsək onda onlar "Allahu Əkbər" deyib, insan başı kəsənlərin yeminə çevriləcəklər.

Müəllimlər bu dəhşətli mənfi əməllərin nəticəsini gənclərdə qiymətləndirməyi öyrədə bilsələr, onda onlar şərdən çəkinər və xeyirxahlığa can atar, verilən ağıllı məsləhətlərə qulaq asarlar. İnsanın nə etməli olduğunu öyrətmək üçün tərbiyənin qarşısında duran prinsip və metodların qaydasını öyrətmək vacibdir. Elə burada müəllimlərin özlərinin dünyagörüşlərindən çox şey asılıdır. Gənclərlə ünsiyyətdə müəllimlər üçün qaranlıq olan hər hansı bir fikir yeniyetmə və gənclərin düşüncələrində zülmətə çevrilir.

Əgər müəllimlərin dünyagörüşündən danışılarsa, onda görərik ki, onlar bu baxışın qarşısında duran vəzifələrin yalnız zahiri çətinliyinə yüngülcə toxunurlar, mahiyyətinə isə varmırlar. Dini təriqətlərin bu gün dünyanı çaşdırması gəncləri çaş-baş salıb. Cavabsız qalan suallara "məsələn: din nədir? Allah nə üçün yaratdı və məqsədi nədir? Mən kiməm, haradan gəlmişəm, hara gedirəm? Bu dünya nədir? Bundan sonra həyat varmı? və s." suallara cavab tapmayan gənc zülmətə düşür, ondan çıxmaq üçün yollar axtarır. Dünya bataqlığında ilişib qalmamaq üçün dini tərbiyəni aşılamaq və dini dünyagörüşünü formalaşdırmaq unudularsa bu gələcəyə təhlükə yaradar.

Bütün bunların hamısı gəncliyin dünyagörüşünə aid məsələlərdir və qeyd edək ki, bu çox əhəmiyyətli bir məsələdir. Gənclərin dünyagörüşü ilə bağlı

baxışlarının necə olmasından asılı olaraq, müxtəlif rəftarları, əməlləri meydana gəlir. Bəzən onlar məni Allah yaradıb, bu dünyadan sonra cənnət var, cəhənnəm var, sorğu-sual var, mən necə yaşamalıyam?

Bu növ araşdırmalar gəncləri İlahi dünyagörüşünə gətirib çıxarır. İnsanın dünyagörüşü müəyyənləşməyənədək onun nə etməli olduğu, necə yaşamalı olduğu müəyyənləşmir. Dünyagörüşü olmasa adam, ümumiyyətlə, necə rəftar etməsini, necə yaşamasını müəyyən edə bilməz. Dünyagörüşündən bilinməlidir ki, insan özü ilə ünsiyyəti necə qursun, yaşadığı mühitdə özü kimi yox, özündən fərqli səviyyəli insanlarla ünsiyyəti necə qurmalıdır. Belə olan halda dünyagörüşünün nə qədər əhəmiyyətli olması məlum olur.

Ətrafımız Allahın möcüzələri ilə doludur. Hər addımbaşı Allahın ayətləri ilə rastlaşırıq. Sadəcə olaraq bunları görmək üçün bəsirətli göz və bunlardan ibrət almaq üçün iman lazımdır. XXI əsrdən Qurani-Kərimə baxmaq yollarını müəllimlər öz yetirmələrinə məntiqi təfəkkür baxımından öyrətməlidirlər. Sosial şəbəkələrdə reklam olunan: qoyunun dərisində, balığın quyruğunda, fındıq qabığında "Allah" sözünün yazılması gəncləri çaş-baş salır. Bunların izahını verərkən müəllimlər deməlidirlər ki, kainatı yaradanı belə xırdalıqlarla dəyərləndirməyin, belə xırdalıqlarla yada salmayın. Kainatı, heyvanat aləmini, bitki aləmini yaradanı tanımaq lazımdır. Bu isə elmə əsaslanmalı və gənclərdə elmi dünyagörüşü formalaşmasına yardımçı olmalıdır.

Gənclərdə elmi dünyagörüşünün formalaşması üçün onların elmi-fəlsəfi, hüquqi, əxlaqi, estetik görüşlərin, sosial-siyasi baxışların və texniki elmlərin, bir sözlə dünyəvi elmlərin əsasına yiyələnmələri vacibdir. Elmi dünyagörüşünün formalaşması insanın elmi biliklərə yiyələnməsindən, əqli tərbiyədən asılıdır, bu isə onun elmi biliklərə, zehni qabiliyyətlərə, düşüncə bacarığının inkişafına yönələn təlim-tərbiyə prosesi və onun nəticəsidir. Elmi dünyagörüşü təbiətin, cəmiyyətin və şəxsiyyətin inkişaf qanunlarına, onların dərk edilməsi yollarına insan baxışlarının bitkin sistemidir. Elmi dünyagörüşü yalnız şəxsiyyətin deyil, eləcə də cəmiyyətin yetkinliyinin mühüm göstəricisidir.

İnsanın bilik və mədəni səviyyəsi nə qədər yüksəkdirsə, bir o qədər onların dünyagörüşü əsaslı təməllərə arxalanır. Bu səviyyə olmayanda isə onlar öz fikirlərini, həyat prinsiplərini əsaslandıra bilmirlər və mövhumata qapanıb ziddiyyətdən çıxa bilmirlər.

Dünyagörüşü təkcə düşüncəyə və biliyə deyil, həm də emosiyaların üzərində qurulur. Ona görə ki hər bir insanın əsəb, sevgi, nifrət və başqa duyğuları vardır. Dünyagörüşü dəyişkən olur, yeniyetmələrin həyatında hər şey zaman keçdikcə şübhə altına düşə bilər. Bu təbii haldır, normal prosesdir. Bunu dərk edən gənc şübhələrə cavab axtarıb irəlini görməyə can atır. Onlarda həyat təcrübəsi çalışmalarla əldə olunan biliklər zəminində qurulur. Bu işdə müəllimin həlledici rolu böyükdür. Bütün problemlər yalnız nəzəriyyələrə arxalanaraq həlli yolunu tapa bilər. Belə dünyagörüşü elmə, nəzəri sistemlərə arxalanır. Dini dünyagörüşü və elmi dünyagörüşünün yaxınlığı, ayrılmazlığı adamların şüuruna və davranışına, əxlaqına təsir edən dünyagörüşünün tarixi formasıdır.

Yetmiş il Sovetlər birliyinin tərkibində çapalayan və nəhayət, qanlar bahasına başa gələn öz müstəqilliyini əldə edən Azərbaycan xalqı indi dini və elmi dünyagörüşün ön plana çəkmiş, dünyanı və insanı dərk etməyi bilik və əqli mənafedən həll etməyə cəhd edir. Bir zamanlar məktəblərdə, universitetlərdə din haqqında danışmaq qadağan idi. İndi gəncliyimiz özlərinin ən xoşbəxt anlarını yaşayırlar. Azadlığımızı, müstəqilliyimizi əldə etmişik. Elmi dünyagörüşünə əsaslanıb Qurani-Kərimdən, dinimizdən, peyğəmbərimizdən sinif otaqlarında, auditoriyalarda ürəklə danışılır. Böyük Çex pedaqoqu Yan Amos Komenski özünün məşhur "Böyük didaktika" əsərində demişdir ki, Bibliyanı uşaqlara əlifba kitabı kimi öyrətmək lazımdır. Biz də bu fikirdən gələcəyimiz üçün nəticə çıxartmalıyıq (6, s.24).

Dünyagörüşünün forması elmdir. Elmi dünyagörüşünün əsasını elmi biliklər təşkil etdiyindən onun formalaşmasının başlıca yolu təlim prosesi ilə bağlıdır. Təlim prosesində gənclər təbiət, cəmiyyət, insan təfəkkürü ilə bağlı elmi biliklərə, ümumiləşmiş anlayışlara, baxışlara yiyələnirlər. Ona görə bu işdə bütün fənlərin imkanlarından istifadə edilməlidir.

Doğrudur, ayrılıqda götürülmüş heç bir fənn bu mühüm vəzifəni müstəqil həll edə bilməz. Lakin hər bir fənn bu sahədə müəyyən imkanlara malikdir.

Təbiət-riyaziyyat silsilə fənlərin (biologiya, fizika, kimya, riyaziyyat, fiziki coğrafiya) tədrisində dünyanın təbii elmi mənzərəsi yaradılır, təbiətə elmi baxışların formalaşmasının əsası qoyulur, dünyanın maddiliyi, təbiət hadisələrinin qanunauyğunluqları, qarşılıqlı əlaqəsi, canlılar aləminin təkamülü və s. belə ümumiləşmiş baxışlardır.

İctimai-humanitar elmlərin əsasları ilə bağlı fənlərin tədrisi (tarix, dil-ədəbiyyat, insan və cəmiyyət, iqtisadi coğrafiya) cəmiyyətdə dialektik baxışların yaranmasına kömək göstərir. Təlim prosesində elmi dünyagörüşünün formalaşması ilə bağlı bir sıra vəzifələri həyata keçirmək lazımdır. Hər bir elm sahəsində tədris prosesində müəllim elmi dünyagörüşünün mənimsənilməsi üçün faktlar seçməli, onların ümumiləşdirilməsinə xüsusi diqqət yetirməlidir.

Elmi dünyagörüşü tərbiyəsi müəllimin istifadə etdiyi təlim vasitə və metodları ilə sıx bağlıdır. Təlimdə öyrənciləri fəallaşdıran, düşündürən, onların müstəqil fikrini oyadan metod və priyomlara daha geniş yer vermək lazımdır. Müəllim təlim prosesində dərsdə şagirdləri və tələbələri belə məsələlərin həllinə geniş cəlb etməli, onlarda dialektik tənqidi təfəkkürün inkişaf etdirilməsi qeydinə qalmalıdır.

Bu məqsədlə evrestik müsahibə, problem vəziyyət yaratmaq, düşündürücü suallar qoymaq səmərəlidir. Təlimdə problemlilik, yaradıcı axtarışlar, elmi diskusyalar dünyagörüşü tərbiyəsi, ideya inamı baxımından əhəmiyyətlidir.

Elmi dünyagörüşü tərbiyəsinin mühüm bir amili fənlərarası əlaqədir və bunun bir fənn çərçivəsində həyata keçirilməsi mümkün deyildir. Elmi dünyagörüşün tərbiyəsində fərdi xüsusiyyətlərin nəzərə alınması böyük əhəmiyyət kəsb edir. Müxtəlif yaş dövrlərində müxtəlif məzmuna toxunmaq lazımdır. Çünki, hər bir gəncin dərketmə imkanları, təcrübə və tərbiyə səviyyəsi eyni

deyildir. Müəllim iş apararkən tərbiyənin məzmunun, forma və metodlarının seçilməsini nəzərə almalıdır. Müəllimlər təlim tərbiyə prosesində xüsusi bacarıq və vərdişlərin formalaşması qeydinə qalmalıdır. Bu bacarıqlar öz-özünə yaranmır. Bunun üçün müəllim gənclərin müstəqil düşünmə bacarığının inkişafına nail olmalıdır. Bütün tədris ili ərzində müəllim ictimai-siyasi anlayışların şüurlu dərk olunmasını daima izləməlidir.

Elmi dünyagörüşü dini inkar etmir, ona zidd deyildir. O dünyəvilik mövqeyini müdafiə edir və bu dinsizlik demək deyildir, insan dinə hörmət etməli, eyni zamanda bəşəri sivilizasiyaya yiyələnməli, dünyanın inkişaf qanunlarını öyrənməlidir.

Din hər kəsin vicdan işidir, hər kəs ona öz yolu ilə gəlib çatır. Dini siyasətə, dövlət işinə qarışdırmamalı, maddi mənfəət güdməkdən uzaq olub siyasətə alət edilməməlidir. Elm dünyanı, dini, elmi əsaslarla öyrənir. Dinin ən gözəl maarifləndiricisi peyğəmbərlər və müəllimlərdir deyiblər. Belə olan halda müəllimlərin bu barədə bilik və bacarıqlarını gənc nəslə məntiqi təfəkkürlə öyrətmələri zəmanəmizin ən vacib şərtidir. Tarixi məkanlara gedən bu yollarda bir daha büdrəməməliyik.

Dünyagörüşünün formalaşması prosesi müxtəlif amillərin təsiri ilə baş verir. Bu amillər əsasında mühit, ailə həyatı, cəmiyyətdə qarşılaşmış ideya və baxışlar, dövlətin siyasəti, təlim və tərbiyə, kütləvi informasiya vasitələri insanın yoldaşlıq mühiti, oxuduğu kitablar, baxdığı filmlər və s. mühüm yer tutur.

Cəmiyyətdə əsas beş fundamental sosial institut var ki, onlar bunlardır. Ailə, Din, İqtisadiyyat, Təhsil və Dövlət. Bunlar cəmiyyətin əsas özəyini təşkil edir. Ona görə də böyük dövlətlər son zamanlar təhsilə həddən artıq diqqət yetirirlər. Təhsilə diqqət cəmiyyətin özünün inkişafı baxımından dövlətin birinci problemi olmalıdır. Çünki, hər bir dövlətin başlıca atrebutlarından biri olan təhsil cəmiyyətin inkişafında müstəsna əhəmiyyətə malikdir. Təhsil almadan, şüurlu bir insan cəmiyyətinin yaranması, təkmilləşməsi, dünyagörüşünün formalaşması qeyri-mümkündür.

Dünyagörüşü insanın davranış və fəaliyyətinin tənzimləyicisi, motivi kimi çıxış edir. O, şəxsiyyətin ümumi istiqamətini, həyat dairəsini müəyyən edir, xarakteri möhkəmləndirir. Bitkin və sistemli dünyagörüşü şəxsiyyətin formalaşmasının mühüm göstəricisidir. Belə insan möhkəm həyat mövqeyi, məqsədyönlülüyü ilə seçilir. İnsanın bilik və baxışları o zaman əsas mövqeyə, əqidəyə çevrilir ki, insan bu ideyaları daxilən hiss etsin, ondan həyacanlansın. Emosional həssaslıq, müqqəddəs ideyalardan doğan təəccüb, sevinc qürur hisləri dünyagörüşünün formalaşmasında mühüm rol oynayır.

Pedaqogika elminin tədqiqat sahələrindən biri insanın şəxsiyyət kimi inkişafı, formalaşması prosesini öyrənməkdir. İnsan sosial varlıqdır. O mənsub olduğu cəmiyyətin, millətin tipik keyfiyyətlərinin daşıyıcısıdır. Bunun üçün dünyagörüşündə fəsadlı halların baş verməməsi üçün:

-Müəllimlər elmi-tədqiqat metodlarına istinad edib gəncləri elmi, dini biliklərlə silahlandırmalıdırlar;

- Elmi və dini dünyagörüşünü yeniyetmə və gənclərin təfəkküründə formalaşdırmaq üçün müəllimlərlə ailənin əlbir işi təmin olunmalıdır.

- Gənclərin idrak fəaliyyətinin müşahidəsi, sistematik uzun müddət aparılmalıdır.

Köksüz ağac boy atmadığı kimi dinsiz mədəniyyət boy verməz. Bu gün biz Müstəqil Azərbaycan vətəndaşları əhatəsində cərəyan edən hadisələrin mahiyyətinin izahını verməsək gənclərdə tam dünyagörüşü formalaşdıra bilməyəcəyik. Elm və din arasında divarları götürüb onları müdrikliyə istiqamətləndirməliyik. Dini və elmi dünyagörüşü tərbiyəsində hər hansı bir tərbiyə prosesi seçilərsə orada düzgün və asan yol seçilməlidir. Burada müəllimlər qarşısında duran ən əsas vəzifə gəncliyi öyrətmək və onlara güclü psixoloji təsir etmək vacib şərtlərdən biridir.

Müasir cəmiyyətdə bir çox sosial çətinliklərə məruz qalan yeniyetmə və gənclər cəmiyyətdə müxtəlif problemlərlə qarşılaşırlar. Mövcud problem son dövrlərdə olduqca aktuallıq kəsb etdiyindən, onun yaranma səbəbləri barədə nəzəri biliklər vermək mühüm əhəmiyyət kəsb edir. Dünyagörüşünün formalaşmasında çətinliyə məruz qalanların sosial problemlərinin araşdırılması məqsədilə aparılan tədqiqat işlərinin nəticələri, düzgün təşkil olunmayan dünyagörüşünə qarşı gənclərin müqavimət mexanizminin gücləndirilməsinə, bu problemləri müasir hüquq və əxlaq normaları əsasında müəyyən praktik biliklər verməklə yerinə yetirilməsində mühüm əhəmiyyət daşıyır.

Stobiyli Diogen: "Bütün dövlətin əsası gəncliyin tərbiyəsindən ibarətdir" demişdir (7, s.159).

**ƏDƏBİYYAT**

1. Педагогика школы. М.: Просвещение, 1978, 325 с.
2.Kazımov N. Məktəb pedaqogikası. OKA Ofiset, 2007, 430 s.
3. Kazmov N. Ali məktəb pedaqogikası, OKA Ofiset, 2007, 471 s.
4.Məhəmməd Peyğəmbərin hədisləri. Bakı: Elm, 1994, 57 s.
5.Beynəlxalq konfrans materialları. Bakı: Azərnəşr, 1998, 255 s.
6.Rüstəmov F. Y.A.Komenski. Böyük didaktika. Bakı: Elm və təhsil, 2012, 387 s.
7.Сутормина Л.И. Основы психологии, М.: Маркет, 2011, 423с.

## ЗНАЧЕНИЕ ФОРМИРОВАНИЯ НАУЧНОГО И РЕЛИГИОЗНОГО МИРОВОЗЗРЕНИЯ НА СОВРЕМЕННОМ ЭТАПЕ

**Ф.М.АЛЛАХВЕРДИЕВА**

**РЕЗЮМЕ**

На современном этапе как в развитых, так и в развивающихся странах, наиболее актуальной становится проблема ограниченности мировоззрения молодежи, а также некоторых отдельных негативных явлений в этой социальной среде. Развитие общества связано со здоровым развитием каждого человека, и в частности молодежи, являющейся его ведущей силой. Мировоззрение, обладая сложной структурой, состоит из умственных, эмоциональных и волевых компонентов. Интеллектуальный компонент, в

свою очередь, связан с отражением бытия в человеческом сознании. Здесь объединяются чувственное и логическое познание. С помощью абстрактного мышления человек проводит обобщения, осознает закономерные связи, и на этой основе формируется общая система взглядов. Поэтому, в первую очередь, необходимо исследовать проблему мировоззрения молодежи.

**Ключевые слова:** мировоззрение, мышление, религия, общество, идея, взгляд, социальное развитие

## IMPORTANCE OF FORMATION OF SCIENTIFIC AND RELIGIOUS OUTLOOK IN THE MODERN AGE

**F.M.ALLAHVERDIYEVA**

**SUMMARY**

Presently, the problem of limitation of the youth's outlook, and some negative phenomena in this social sphere are becoming topical in both developed and developing countries. Development of the society is connected with healthy social development of each person, including youth, who are its leading power. The outlook, possessing a difficult structure, consists of intellectual, emotional and strong-willed components. The intellectual component is connected with life reflexion in human consciousness. It unites both the sensual and the logic knowledges. By means of abstract thinking, the person carries out generalisations, realises natural communications, and on this basis the general system of sights is formed. Therefore, firstly, it is necessary to investigate the problem of the world outlook of young people.

**Key words:** outlook, thinking, religion, society, idea, sight, social development.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№3 Sosial-siyasi elmlər seriyası 2017

## PEDAQOGİKA

UOT 37.02; 371

# TƏLƏBƏ MÜSTƏQİL FƏALİYYƏTİNİN TƏŞKİLİ TƏHSİL PARADİQMASININ TƏLƏBİ KİMİ

**R.M.MAHMUDOVA**
***Bakı Dövlət Universiteti***
***hikmet56@gmail.com***

*Ənənəvi təlimdə biliyin ötürülməsi yaddaş fenomeni üzərində qurulduğu üçün, müəllim bu prosesdə informator vəzifəsini yerinə yetirirdi. Yeni təlim konsepsiyaları təfəkkür və təxəyyülün inkişaf etdirilməsini, təfəkkür üsullarının formalaşdırılması üzərində qurulur. Məsələnin belə qoyuluşu, həm müəllimin, həm öyrənənin təlim fəaliyyətini yeni calarlarla zənginləşdirmişdir. Məqalədə bu aktual məsələ ali məktəb prizmasından araşdırılır, tələbənin təlim fəaliyyəti yeni təhsil konsepsiyalarının tələbləri baxımından açıqlanır. Aparılan tədqiqatlar nəticəsində müəllif belə qənaətə gəlir ki, müasir təhsil konsepsiyasının uğurlu tətbiqi tələbənin müstəqil fəaliyyətinin səmərəli təşkilini tələb edir.*

**Açar sözlər:** müstəqil fəaliyyət, təlim məqsədləri taksonomiyası, fəal təlim metodları, yaddaş, təfəkkür təxəyyül

Keçən əsrin 60-cı illərinə qədər bilik tədris prosesində hafizə paradiqmasına əsaslanaraq yeni nəslə ötürülürdü. Bu paradiqmaya əsasən biliyin mənimsənilməsi təhsilin əsas məqsədini təşkil edirdi. Lakin təcrübə göstərdi ki, belə texnologiya ilə hazırlanan kadrların cox az hissəsi, hətta hər beş ildən bir ixtisasartırma kurslarında iştirak etmələrinə baxmayaraq, gələcək fəaliyyətində müstəqil olaraq öz elmi-pedaqoji və peşə səviyyəsini artıra bilir. Aparılan pedaqoji tədqiqatların nəticələrindən aydın olmuşdur ki, bunun əsas səbəbi onlarda bilikləri müstəqil mənimsəmə vərdişlərinin olmamasıdır (1,30-33). Bu istiqamətdə yüksəkixtisaslı mütəxəssis və elmi-pedaqoji kadr hazırlığının qarşısına yeni tələb - öyrənəni təhsilin biliyi passiv mənimsəyən obyektindən, biliyi fəal mənimsəyən yaradıcı subyektinə cevirmək tələbi qoyuldu. Yəni biliyin hazır şəkildə yeni nəslə ötürülməsi (bilik öyrətmək) texnologiyası öyrənənlərin biliyi müstəqil yolla əldə edilməsinə şərait yaradılması (bilikləri öyrənməyi öyrətmək) texnologiyası ilə əvəz edilməsi XX əsrin pedaqoji tələbinə cevrildi. Pedaqoqlar biliyin yeni nəslə verilməsi texnologiyasında baş verən belə dəyişikliyi, təlim paradiqmasından təhsil paradiqmasına keçid kimi qiymətləndirirlər (2).

Təlim paradiqmasına əsaslanan ənənəvi məktəb hafizənin möcüzələrinə söykənərək, “oxu (qulaq as) – yadında saxla – danış” (3,36) sxemi üzrə fəaliyyət göstərirdi. Müəllimin verdiyi tapşırığı kim daha yaxşı mənimsəyirdisə, hətta bəzən “daha yaxşı əzbərləyirdisə”, daha yüksək qiymət alırdı.

Hələ kecən əsrin əvvəllərində P.P.Blonski öz tədqiqatları ilə hafizə ilə təfəkkürün qarşılıqlı sıx əlaqədə olduğunu və təlim materialının mənimsənilməsi prosesində hafizə və təfəkkürün imkanlarını müqayisəli şəkildə araşdıranda şagirdlərin əqli inkişafında təfəkkürün daha geniş imkanlara malik olduğunu müəyyən etmişdir (4).

Həmin dövrdə öz tədqiqatları ilə diqqəti cəlb edən L.S.Vıqotski təlimin inkişafetdirici imkanlara malik olduğunu açıqladı və bu imkanları hafizə məkanında deyil, təfəkkür məkanında axtarmaq lazım olduğunu eksperimental materiallarla sübut etdi. O inkişafın iki səviyyəsini ayırd edurdi: - aktual inkişaf sahəsi və yaxın inkişaf sahəsi. Bu iki mərhələ arasında dialektik qanunauyğunluqlara söykənən qarşılıqlı əlaqə mövcuddur. Fikri proseslərin inkişaf xüsusiyyətlərindən asılı olaraq şagird aktual inkişaf sahəsindən yaxın inkişaf sahəsinə keçə bilir. Şagirdin əqli inkişafında yaxın inkişaf səviyyəsinə üstünlük verən L.S.Vıqotski, əqli inkişafı təmin etməsi üçün təlimin inkişafdan irəli olmasını, yalnız belə olduqda inkişafa şərait yarada biləcəyini vurğulayırdı. Təhsilin tarixində inkişafetdirici təlim ideyalarının (5) olmasına baxmayaraq, fikrimizcə, L.S.Vıqotski öz eksperimental tədqiqatları ilə əslində inkişafetdirici təlimin əsasını qoydu.

P.P.Blonski və L.S.Vıqotskinin fundamental tədqiqatları nəzəri səviyyədə nə qədər yüksək qiymətləndirilsə də, öz praktik təcəssümünü tapa bilmədi, başqa sözlə desək məktəb həyatına daxil ola bilmədi. Bunun səbəbləri ideoloji maneələr müstəvisində izah olunsa da, fikrimizcə, bu daha cox Sovet didaktikasının köklü səhvi kimi qiymətləndirilsə, daha düzgün olar.

Kecən əsrin 60-cı illərində B.Blumun rəhbərliyi ilə M.Enqlexart, E.Furst, U.Xill və D.Krasvoll idrak fəaliyyəti sahəsində təlim məqsədləri taksonomiyasını işlədi. Bu taksonomiya “sadədən mürəkkəbə doğru düşünmə (fikirləşmə) bacarıqlarının altı səviyyəsini” (6,16) müəyyən edir: bilik, anlama, tətbiq, analiz, sintez, qiymətləndirmə. Koqnitiv məqsədlər taksonomiyası adlanan bu taksonomiya analiz və sintez kimi iki fikri proses üzərində qurularaq, düşünmə və ya fikirləşmə səriştələrinin müxtəlif səviyyəsini özündə ehtiva edir.

B.Blumun tədqiqatları P.P.Blonski və L.S.Vıqotskinin əsrin əvvəllərində apardığı tədqiqatları yenidən aktuallaşdırdı. L.V.Zankov (7), D.B.Elkonin (8), N.A.Mençinskaya (9), Q.S.Kostyuk (10), E.N.Kabanova-Meller (11) və b. tədqiqatları bu istiqamətdə mühüm rol oynadı. Tədricən inkişafedici təlim prinsipi vətəndaşlıq hüququ qazandı.

İnkişafetdirici təlim prinsipinin bərqərar olması fəal təlim metodlarının yaranmasına təkan verdi. Həm məktəb pedaqogikası, həm də ali məktəb pedaqogikası istiqamətində tədqiqatlar aparan pedaqoqlar təlim metodlarını qruplaşdırarkən, fəal təlim metodlarına da geniş yer verməyə başladılar. Məsələn,

M.N.Skatkin və M.Y.Lerner təlim metodları sırasına problemli anlama, qismən axtarıcılıq və tədqiqat (12,162-171), Y.K.Babanski induktiv və deduktiv, reproduktiv və problem axtarış, müstəqil iş, öyrənməyə həvəs, təlim müzakirələri, idraki oyunlar (13,187-202), Y.Talıbov,Ə.Ağayev, İ.İsayev, A.Eminov müşahidə, evristik müsahibə, tədqiqatçılıq, problem situasiya (14,143-151), A.Abbasov, H.Əlizadə evristik müsahibə, problem situasiya, tədqiqatçılıq (15,51-59), L.Qasımova, R.Mahmudova evristik müsahibə, diskussiya, çalışmalar, laborator işlər, oyun (16, 274-279) və s. kimi yeni metodlar əlavə etmişdir. Ali məktəb pedaqogikasında problemli şərh, deduktiv, qismən axtarış və ya evristik, tədqiqatçılıq, tələbənin tədris materialı üzərində müstəqil iş metodları (17,203-205) təlimin əsas metodları kimi təqdim olunurdu. Bu metodların tətbiqi fikri əməliyyatlara söykənərək, öyrənənin əqli inkişafına istuqamətlənmişdir.

Lakin bununla yanaşı, bir məsələni də qeyd etmək lazımdır ki, pedaqoqlar fəal təlim metodlarını ənənəvi təlim metodları ilə birlikdə təsnif və təqdim edir və fəal təlim metodlarının tətbiq texnologiyalarını (ənənəvi təlim metodlarının tətbiq texnologiyaları istiqamətində artıq kifayət qədər təcrübə toplanmışdır) araşdırırdılar. Fəal təlim metodlarının ənənəvi təlim metodları ilə birlikdə təsnif edilməsi isə təsadüfi deyildi. Ənənəvi dərsdən fərqli olaraq, təfəkkür meyarları ilə ölçülən "müasir dərs anlamında hafizənin inkişafı və tərbiyəsi məqsəd deyil, vasitədir. İdrak fəaliyyətini, ilk növbədə, təfəkkürü aktivləşdirmək üçün vasitə" (3,106).

Fəal təlim metodlarının tətbiqi istər orta məktəb, istərsə də ali məktəb həyatında yeni mərhələ idi. Ənənəvi metodlardan fərqli olaraq, bu metodların tətbiqi biliyin mənimsənilməsi prosesində öyrənənin idrakı fəallığını artırdı. Dərsdə müəllimlə tələbənin dialoquna geniş yer verilir, problemli vəziyyət yaradılır və problemin həlli müəllimlə tələbənin müzakirəsi müstəvisində araşdırılır, tələbələr tədqiqatçılıq prosesinə cəlb edilirdi. Problemin yaradılmasını pedaqoqlar "tələbəni standart olmayan təlim-idrak məsələlərini orijinal (qeyri-standart) metodlarla işləməyə hazırlayan yaradıcı proses" (17, 279) kimi qiymətləndirirdilər.

Fəal təlim metodlarının tətbiqi "çətinlik" üzərində qurulur. Müəllim tələbənin "yaxın inkişaf zonasına" uyğun problemi ortaya qoyur, onun həllini tələb edir. Bu zaman tələbə idraki çətinliklə üzləşir, qarşıya qoyulmuş problemi həll etmək üçün mövcud biliklərini yada salır, araşdırma aparır, fərziyyə irəli sürür, müqayisə, analiz edir, sintez edir, nəticə çıxarır. Bu prosesdə o müəllimə sual verir, onun istiqamətləndirici cavablarından problemin həlli üçün istifadə edir. İşin belə təşkili nəticəsində onda müstəqil öyrənmə bacarıqları inkişaf edir.

Təbii ki, dərsin belə təşkili daha çətindir və müəllimdən xüsusi metodiki hazırlıq tələb edir. Müəllim fəal təlimi həyata keçirmək üçün problemi düzgün seçməli və planlaşdırmalı, tələbələrin idrak fəaliyyətini düzgün istiqamətləndirməli və problemin həlli yollarını tələbəyə göstərməlidir. Qarşıya qoyulmuş problem tələbələr tərəfindən mütləq həll edilməlidir.

Keçən əsrin sonlarında Lorin Anderson Blumun tələbələri və əməkdaşları ilə birlikdə B.Blumun taksonomiyasını yenidən nəzərdən keçirmiş, onun nəticələri bu və ya digər dərəcədə modifikasiya olunaraq, - xatırlamaq, anlamaq, tətbiq etmək, analiz etmək, qiymətləndirmək və yaratmaq kimi təqdim olundu.

Tarixən qısa müddət ərzində biz taksonomiyanın ikinci variantı ilə tanış olduq. Ortaya metodoloji əhəmiyyət kəsb edən suallar çıxır. Görəsən qısa müddət ərzində Blumun taksonomiyasının modifikasıya edilməsinin səbəbi nə idi? Görəsən bu taksonomiyalar bir-birlərindən nə ilə fərqlənir? Blumun taksonomiyası nəticəsində məktəblərdə fəal təlimin müvəffəqiyyətlə tətbiq edildiyi bir dövrdə, taksonomiyanın yeni variantının meydana gəlməsi bu sualların yaranmasına səbəb olurdu. Bu suallara cavab verməyə çalışaq.

Koqnitiv məqsədlər taksonomiyasının ilk və son variantını müqayisə etdikdə, son variantda "yaratma" səviyyəsinin ayırd edilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu məsələyə xüsusi önəm verən Ə.Əlizadə qeyd edir ki, "taksonomiyanın ilk variantında ayırd edilmiş fenomenlər koqnitiv aspektdə işıqlandırıldığı halda, son variantda onlar artıq kreativ proseslər kimi nəzərdən keçirilir" (6,26). Bu taksonomiya biliyin mənimsənilməsi prosesinə yeni metodoloji yanaşma idi, tədrisin təşkilinin daha yüksək səviyyəyə, yaradıcılıq səviyyəsinə qaldırılması demək idi.

Məsələnin belə qoyuluşu görünür bu istiqamətdə aparılan tədqiqatların nəticələrinə əsaslanırdı. Məsələn, C.Gilford apardığı eksperimental materialları təhlil edərək, belə nəticəyə gəlmişdir ki, fikri qabiliyyətlər bir-birindən üc parametrə – a) fikri əməliyyatların xarakterinə; b)fikri proseslərin məzmununa və v) fikri əməliyyatların məhsullarına görə fərqlənirlər (3,40). Bu parametrləri gündəmə gətirməklə C.Gilford diqqəti biliyin mənimsənilməsi prosesinin daha dərin qatlarına cəlb etdi. İntellektin struktur modelində ayırd edilən bu üc parametrdən birincisi (fikri əməliyyatların xarakteri) Ə.Ə.Əlizadənin fikrincə, daha önəmli əhəmiyyətə malikdir. İkinci və ücüncü parametrləri məhz onun əsasında acıqlamaq olar (3,40).

C.Gilford fikri əməliyyatların xarakterinə görə aşağıdakıları ayırd edirdi: idrak, hafizə, divergent məhsuldar təfəkkür, konvergent məhsuldar təfəkkür, qiymətləndirmə (qiymətləndirici təfəkkür) (3,40).

İntellektin qeyd olunan struktur modelində C.Gilford idrak (bu anlayışa informasıyanı qavrama, tanıma, dərketmə və anlama prosesləri) və hafizəni fikri əməliyyatlar üçün olduqca zəruri əməliyyatlar kimi qiymətləndirsə də (3, 40-41), biliyin mənimsənilməsində, riyazi terminlə desək, bunu zəruri saysa da, kafi saymırdı. İdrak və hafizə proseslərindən diqqəti təfəkkür prosesinə cəlb edir və intellektin struktur modelində təfəkkürü üc səviyyədə (və ya növdə) səciyyələndirirdi: konvergent təfəkkür, divergent təfəkkür və qiymətləndirici təfəkkür.

Ə.Ə.Əlizadənin qeyd etdiyi kimi, konvergent təfəkkürdən fərqli olaraq divergent təfəkkür yaradıcı fəaliyyətin ayrılmaz tərkib hissəsi kimi özünü göstərir. Orijinal ideyaların yaradılması onun başlıca funksiyasıdır. C.Gilford di-

vergent təfəkkürün özünəməxsus bir xüsusiyyətini ayrıca qeyd edir: divergent təfəkkür təxəyyülə əsaslanır və onun inkişafı bilavasitə təxəyyülün inkişafından asılıdır.

Yaradıcılıq psixoloji ədəbiyyatda təxəyyülün başlıca funksiyası kimi qiymətləndirilir. "İnsan yaradıcılıq yoluna özünün müxtəlif qabiliyyətlərinin axarında gəlib çıxır. Bu yolun baş keçidi təxəyyül dünyasıdır. Təxəyyülsüz insanın digər qabiliyyətləri mahiyyətcə özlərinin yaradıcılıq vüsətini itirirlər" (3,93) B.Blumun təlim məqsədləri taksonomiyasının ikinci variantının meydana gəlməsinin səbəbini ilk növbədə burada axtarmaq lazımdır. Təsadüfi deyil ki, taksonomiyanın ikinci variantı təfəkkürlə təxəyyülün inkişafını özündə ehtiva edir. Problemə belə yanaşma dərsdə təxəyyülün aktivləşdirilməsi problemini gündəmə gətirdi. İnteraktiv təlim probleminin aktuallaşması və məktəb həyatına gətirilməsi müasir dərsin məhz təfəkkür prosesləri ilə yanaşı təxəyyül ölçüləri ilə xarakterizə olunmasının nəticəsi idi.

Yeni yanaşmanın mahiyyəti ondadır ki, təlim öyrənənin yaddaşının təkcə elmi biliklərlə (informasiya ilə) zənginləşdirilməsinə deyil, həm də təfəkkürün müntəzəm inkişaf etdirilməsi əsasında daha cox biliklərin müstəqil əldə edilməsi və mənimsənilməsi, ən mühüm bacarıq və vərdişlərin, şəxsiyyət keyfiyyətlərinin və qabiliyyətlərin qazanılmasına yönəlib (18, 11). İnformasiyanın hazır şəkildə yeni nəslə ötürülməsi və informasiyanın müstəqil öyrənilməsi texnologiyaları mahiyyəti etibarı ilə biliyin öyrənən tərəfindən mənimsənilməsini özündə ehtiva edir, lakin nəticə etibarı ilə onlar bir-birindən köklü surətdə fərqlənir. Əgər birinci halda öyrənən verilmiş informasiyanı qəbul edərkən, ona heç bir münasıbət bəsləmirsə, ikinci halda öyrənilən materialda cisim və hadisələrin səbəb-nəticə əlaqələrini axtarır, qanunauyğunluqlarını tapmağa çalışır, fərziyyə irəli sürür, analiz və sintez edir, nəticə çıxarır. Bu prosesdə qarşısına çıxan suallara cavab tapır. Birinci halda öyrənən informasıyanın əldə edilməsində passiv mövqedə, ikinci halda isə fəal mövqedə durur. Öyrənənin təlim prosesinin fəal iştirakçısına cevrilməsi onda müstəqil fəaliyyət keyfiyyətlərinin formalaşmasına şərait yaradır. Müstəqil fəaliyyət keyfiyyətləri insanın ömrü boyu öz inkişafına nəzarət etməsinə imkan verir.

Bəs görəsən interaktiv təlimi fəal təlimdən fərqləndirən nədir? Fəal təlim problemin həlli nəticəsində biliyin əldə edilməsi strategiyasına, interaktiv təlimdə isə bu strategiya daha yüksək səviyyə kəsb edərək, problemin həlli nəticəsində biliyin əldə edilməsi və mənimsənilmiş biliyə yaradıcı münasibətin formalaşması strategiyasına əsaslanır. Bu zaman yaradıcı təfəkkür və təxəyyül prosesləri aktuallaşır. Təlimin yeni prinsiplərinin (şəxsiyyətə yönəlmiş, fəal idrak, inkişafetdirici təlim, qabaqlayıcı təlim, təlim-tərbiyə sisteminin çevikliyi, əməkdaşlıq, dioloji təlim) və interaktiv təlim metodlarının meydana gəlməsi biliyin mənimsənilməsi prosesində yaradıcı təfəkkür və təxəyyül proseslərinin aktuallaşmasının nəticəsidir.

İnteraktiv təlim metodlarının tətbiqi ilə dərs B.Blumun taksonomiyasının ikinci variantında təqdim olunan bacarıq səviyyələrinə müvafiq qurulur. Bu za-

man öyrənən bütün dərs boyu idraki fəaliyyətdə olur, öz fikri əməliyyatlarının səviyyəsinə və fəallıq dərəcəsinə müvafiq olaraq bilik, bacarıq və vərdişlər sisteminə yiyələnir. Məsələnin belə qoyuluşu öyrənənin müstəqil fəaliyyətinin təşkilini təlim prosesinin əsas tərkib hissələrindən birinə cevrildiyini qəbul etməyi tələb edir.

Bu psixopedaqoji tələb müstəvisində Azərbaycanda təhsil sahəsində geniş miqyaslı islahatlar həyata kecirilir. Təhsilin məzmunu dünya ali məktəblərinin təcrübəsinə əsasən yenilənir, yeni standartlar və tədris planları hazırlanır. Tədris planlarının təhlili göstərir ki, dünyanın qabaqcıl ali məktəblərinin təcrübəsinə əsaslanaraq universitetlərdə tədricən auditoriya məşğələlərinin saatlarının miqdarı azalır, tələbələrin müstəqil işinə verilən saatların miqdarı isə artırılır. Burada məqsəd tələbələrin müstəqil olaraq, bilik əldə etmələri, tədqiqat aparmaları ücün auditoriya məşğələlərində ilkin biliklər əldə etmələrinə şərait yaratmaq, biliyin əldə edilməsində tələbənin müstəqil fəaliyyətinin rolunu artırmaqdır. İslahatlar təkcə auditoriya məşğələlərinin saatlarının azaldılması baxımından aparılmır, məşğələlər tələbənin müstəqil fəaliyyəti üzərində qurulur.

Tələbənin müstəqil fəaliyyətinin təşkili uzun illər müstəqil işin təşkili istiqamətində tədqiq edilmişdir. Lakin son illərdə, müasir təhsil paradiqmasının tələblərinə müvafiq olaraq müstəqil iş tədricən müstəqil fəaliyyət müstəvisində tədqiq edilir. Son tədqiqatlarda tələbə müstəqil fəaliyyəti tələbənin həyata keçirdiyi müstəqil işlərin məcmusu kimi qiymətləndirilir. (A.O.Fyodorova 13,71-73) Müəllifin fikrincə, tələbə müstəqil fəaliyyəti həmişə bu və ya digər nəticə ilə yekunlaşır. Burada nəticə kimi, müxtəlif tapşırıqların icrası zamanı əldə edilmiş bilik, bacarıq və vərdişlər sistemini nəzərdə tutur.

Tələbə bütövlükdə, öz fəaliyyəti zamanı məcmu müstəqil işləri yerinə yetirir. Bu onun gündəlik fəaliyyəti kimi qiymətləndirilməlidir. Onun şəxsiyyət keyfiyyətlərindən asılı olaraq, bu fəaliyyət üc səviyyədə - idraki, əqli və yaradıcılıq səviyyəsində həyata keçirilir. Bu zaman tələbə müxtəlif sayda tapşırıqlar həll edir. Tapşırıqların icrası tələbənin müstəqil fəaliyyət keyfiyyətlərinin formalaşmasına təkan verir. Zaman keçdikcə tələbə ona verilən tapşırıqlardan əlavə özü də öz qarşısına tapşırıqlar qoyub həll edirsə, bu artıq müstəqil fəaliyyət səviyyəsinin növbəti, daha üstün mərhələsinə kecidin nəticəsi kimi qiymətləndirilməlidir. Tələbənin tapşırıqlara yaradıcı münasibəti bu mərhələnin ən üstün səviyyəsidir. Müstəqil fəaliyyət keyfiyyətlərinin aşılanması həm təhsilin keyfiyyətinin, həm də tələbənin təlim fəaliyyətinin səmərəsinin artmasına kömək edir.

Müstəqil fəaliyyət tələbədən ona daxil olan bir cox əməliyyatları yerinə yetirməyi tələb edir. Həmin əməliyyatların icrası zamanı tələbələrin müstəqil fəaliyyəti pillə-pillə genişlənir, tələbələr bu prosesdə elmi-tədqiqat vərdişləri qazanır, müstəqil yaradıcılıq işi görməyə alışırlar. Sonda onların müstəqilliyi kamilləşir, tələbə müstəqil, yaradıcı, təşkilati fəaliyyət üçün yetişir. Məsələnin

belə qoyuluşu tələbə müstəqil fəaliyyətinin təşkili məsələlərini daha da aktuallaşdırır.

**ƏDƏBİYYAT**


1.Mahmudova R. Ali məktəbdə tələbə müstəqil işinin imkanları və yolları. Bakı: Çaşıoğlu, 2005, 135 s.
2. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür. Bakı: Adiloğlu, 2011,161s
3.Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998, 367 s.
4. Блонский П. П. Память и мышление. СПб.: Питер, 2001.
5. Выготский Л.С. Мышление и речь. М., 1934, 362с.
6.Əlizadə Ə.Ə., Sultanova İ.N., Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu. Bakı, 2008,172.
7.Занков Л.В. Развитие учащихся в процессе обучения. М., 1963
8.Давыдов В.В. Проблемы развивающего обучения. М., 1986.
9.Менчинская Н. А. (ред.) Психологические проблемы неуспеваемости школьников. М., 1971, 272 с.
10.Костюк Г.С. Избранные психологические труды. М.: Педагогика, 1988, 304 с.
11.Кабанова-Меллер Е.Н. Учебная деятельность и развивающее образование. М., 1981.
12.Дидактика средней школы. Под ред. Скаткина М.Н. М.: Просвещение, 1982, 319 с.
13.Педагогика. Под ред. Ю.К.Бабанского. М.: Просвещение, 1983, 608 s.
14.Talıbov Y.R., Ağayev Ə.A., İsayev İ.N., Eminov A.İ. Pedaqogika. Dərs vəsaiti. Bakı: Maarif, 1993, 292 s.
15.Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika. Bakı, 2000, 202 s.
16.Qasımova L.N., Mahmudova R.M. Pedaqogika. Dərslik. Bakı: Çaşıoğlu, 2012, 548 s.
17.Rüstəmov F., Dadaşova T. Ali məktəb pedaqogikası. Bakı: Nurlan, 2007, 567 s.
18.Veysova Z. Fəal/interaktiv təlim. Müəllimlər üçün vəsait. Bakı: UNİCEF, 2007, 150 s.
19.Федорова М.А. Формирование самостоятельной деятельности обучающихся: теоретические аспекты: Монография / под ред.А.И.Умана. Орел: ГОУ ВПО «ОГУ», 2008, 132 с.


## ТРЕБОВАНИЯ К ОБРАЗОВАТЕЛЬНОЙ ПАРАДИГМЕ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ СТУДЕНТОВ


**Р.М.МАХМУДОВА**


**РЕЗЮМЕ**


В традиционном обучении передача знаний осуществляется на основе организации феномена памяти; педагог в данном процессе исполняет роль реформатора. Новые учебные технологии строятся на основе развития мышления и воображения, формирования способов мышления. Подобная постановка проблемы обогащает новыми сторонами развития как деятельность педагога, так и деятельность учащихся. Указанная проблема рассматривается в данной статье в рамках высшего образования. Учебная деятельность студентов анализируется с точки зрения требований новых образовательных концепций. На основе проведенных исследований автор приходит к выводу о том, что успешное применение современных образовательных технологий требует более эффективной организации самостоятельной работы студентов.



**Ключевые слова:** самостоятельная работа, обучение, таксономия целей, методы обучения, память, мышление, воображение

**ORGANIZATION OF STUDENTS' INDEPENDENT ACTIVITY AS A REGUIREMENT OF THE EDUCATIONAL PARADIGM**

**R.M.MAHMUDOVA**

**SUMMARY**

In the traditional training, as transmission of knowledge was based on the phenomenon of memory, the teacher acted as an informer in the process. New learning concepts are based on the development of thinking and imagination and the formation of methods of thinking. Such a formulation of the task enriched the education process with new shades of the activities of both, the teacher and the student. The article examines this important issue through the prism of high school, new educational concepts are explained in terms of the demands of educational conceptions. The author of the study comes to the conclusion that the successful application of the concept of modern education requires the effective organization of the student's independent activity.

**Key words:** Independent activity, taxonomy of training purposes, active learning methods, memory, thinking, imagination.

**UOT 378**

# İNKİŞAF MÜASİR DƏRSİN KOORDİNATI KİMİ

**H.Ə.ƏLİZADƏ**
***Bakı Dövlət Universiteti***
***hikmet56@gmail.com***

*Məqalədə dərs müasir təhsil konsepsiyaları baxımından araşdırılır və belə nəticəyə gəlinir ki, müasir dərs şəxsiyyətinin inkişafı müstəvisində şagirdin təfəkkür və təxəyyülünün inkişafına xidmət etməlidir. Bu zaman müəllif B.Blumun təlim məqsədləri taksonomiyasına əsaslanır. Təlim məqsədləri taksonomiyası analiz və sintez prosesləri üzərində qurulmuşdur. Müəllif analiz və sintez proseslərini fəallaşdırmaq və bu konteksdə təfəkkür və təxəyyülün inkişafı üçün dərsin dioloq və diskussiya üzərində qurulmasını məqsədəuyğun hesab edir.*

**Açar sözlər:** pedaqoji təfəkkür, təfəkkür, təxəyyül, analiz, sintez, dioloq, diskussiya

Təhsilin tarixinə diqqət etdikdə ilk növbədə, biliyin mənimsənilməsində yaddaş yoluna üstünlük verildiyi diqqəti cəlb edir. Yaddaş qavrayışla bağlıdır. Ənənəvi məktəb bu köklü psixoloji faktı, ancaq yaddaş effekti kimi mənimsəmişdi.

İ.V.Kapterev pedaqoji psixologiya dərsliyində (1,141-162) təfəkkür effektlərinə xüsusi önəm verərək, təhsildə «oxumağı öyrətmək» paradiqmasını önə çəkmişdir. Bu maarifçilik konsepsiyasından təhsil konsepsiyasına keçidin başlanğıcı olsa da, yeni pedaqoji təfəkkürün formalaşması XX əsrin 60-cı illərinə təsadüf etdi.

Əvvəllki dövrlərdə pedaqoji təfəkkürün formalaşmasında həmişə pedaqoqlar önəmli rol oynayıblar. Belə ki, ənənəvi təlim öz bətnində nəyi və necə öyrətmək suallarına cavabı gizlədirdi. Yeni pedaqoji təfəkkürün formalaşmasında isə psixologiyanın əhəmiyyəti xüsusilə artdı. Artıq nəyi və necə öyrətmək sualları şagirdin bir şəxsiyyət kimi formalaşdırılması müstəvisində acıqlanmağa başladı. Təhsilin humanistləşdirilməsi və humanitarlaşdırılması, təlimin inkişafetdirici və tərbiyəedici olması aktual pedaqoji problemə cevrildi.

Pedaqogikada dərsin müxtəlif tipləri mövcuddur. Ənənəvi didaktik sistemdə bu dərs tipləri əksər hallarda məlumatverici müstəvidə tətbiq olunurdu. Məlumatvericilik ənənəvi pedaqoji sistemin özünəməxsus xüsusiyyətləri ilə bağlı idi. Onlar ənənəvi didaktik sistemin əsas prinsiplərini bilavasitə əks etdirirdi. Müəllim ev tapşırıqlarını yoxladıqdan, kecən dərsi öyrənmək üçün evə verilən

mövzunu soruşduqdan sonra yeni mövzunun şərhinə keçirdi. Müəllimin belə fəaliyyəti təsadüfi deyil. Ənənəvi pedaqoji sistemdə müəllim üçün məsələ ancaq proqram materiallarının öyrənilməsindən ibarət idi. Soruşa bilərlər: məgər müasir təhsil konsepsiyası proqram materialının öyrənilməsini nəzərdə tutmur?

Proqram materialının öyrənilməsinə müasir təhsil konsepsıyası da xüsusi məna verir. Ənənəvi təlimdə olduğu kimi yeni pedaqoji təfəkkür baxımından da bu məktəbin önəmli vəzifələrindən biridir. Ancaq müasir təhsil nəzəriyyəsinə görə, proqram materiallarının öyrənilməsinin ənənəvi pedaqoji sistemdə nəzərə alınmayan köklü xüsusiyyətləri, psixologiyanın uğurlarına söykənən yeni pedaqoji texnologiyası var. Müasir təhsil konsepsiyası ilə ənənəvi didaktik sistem, ilk növbədə, bu problemin qoyuluşunda və həllində bir-birindən köklü şəkildə ayrılırlar. Onun mahiyyətini açıqlamaq üçün iki məsələyə diqqət etmək lazımdır.

Birinci məsələ. Proqram materialının öyrənilməsi məqsəddir, yoxsa vasitə? Ənənəvi pedaqoji sistemdə proqram materialının mənimsənilməsi məqsəd hesab edilir. Bu önəmli vəzifə, təəssüf ki, çox vaxt səhv başa düşülür və birtərəfli həll olunur. Dərsin vəzifələrinin anlaşılması iki suala – “Dərsdə şagirdlərə nəyi öyrətməli?” və “Necə öyrətməli?” suallarına cavab verməyi nəzərdə tutur. Bu məsələlərin həllində iki meyl özünü göstərir. Bırinci meylə görə şagirdin şəxsiyyəti dərsin mərkəzi məsələsidir. Dərsdə müəllimin mümkün qədər çox proqram materialını əhatə etmək, proqramda nəzərdə tutulan daha çox fakt və qaydaları şagirdlərin mənimsəməsinə nail olma niyyəti birinci meyllə bağlıdır. Ikıncı meyl axarında isə müəllimin niyyəti keyfiyyətcə yeni məzmun kəsb edir: bu zaman, o, şagirdin informasiyanı müstəqil surətdə əldə etmək tələbatını inkişaf etdirmək, özünün iş üsullarını təkmilləşdirmək, şagirdlərə nəzəriyyəni praktika ilə əlaqələndirməyı öyrətmək üçün proqramdan mümkün qədər səmərəli istıfadə etməyə çalışır.

İkinci məsələ. Gəlin indi də məlumatverici xarakter daşıyan dərslə problemli situasiya metodunu müqayisə edək. Problemli dərsdə şagirdlərdə idrak tələbatı yaradılır. Şagirdlər dərsdə sözün əsl mənasında düşünür, mühakimə yürüdürlər. Onlar nəinki problemi ayırd edir, həm də formulə və həll edirlər. Məlumatverici dərsdə isə şagird yalnız müəllimə, onun yeni dərsi izah etməsinə qulaq asır, sonda isə ən yaxşı halda başa düşmədiyi məsələ haqqında müəllimə sual verir.

Dərs həmişə məktəbin episentri olub. Yeni pedaqoji təfəkkür müstəvisində dərs yeni məzmun kəsb edir. Dərs dövrün tələbinə uyğun yeniləndikdə onun qarşısına “müasir” sözü əlavə edilir. Cox vaxt müasir dərs dedikdə, onu təkcə, dərsin elmi-nəzəri səviyyəsini yüksəltmək kimi başa düşürlər. Dərs özünün elmi-nəzəri səviyyəsinə görə müvafiq elm sahəsinin (Azərbaycan dili, tarix, fizika, kimya, riyaziyat və s.) ən yeni uğurlarını əks etdirməlidir. Bu, şəksizdir: lakin müasir dərsi təkcə bu kökdə açıqlamaq birtərəflidir. Müasir təhsil konsepsiyaları müstəvisində dərs, ilk növbədə, psixopedaqoji fenomen kimi psixologiyanın və pedaqogikanın ən yeni uğurlarına söykənməlidiir. Dərsin

müasirlik məntiqi də məhz, ilk növbədə, onun psixopedaqoji səviyyəsi ilə qiymətləndirilməlidir. Başqa sözlə, dərs təkcə özünün elmi-nəzəri səviyyəsinə görə deyil, həm də özünün əsrin psixopedaqoji konsepsiyasına görə müasir olur. Müasir biliklər müasir psixopedaqoji üsullarla tədris olunmalıdır.

Müasir dərs inkişaf konsepsiyasına əsaslanır. Onun bir tərəfi koqnitiv meyarlarla, bu proseslərin zirvəsi sayılan təfəkkür (nəzəri təfəkkür) fenomeni ilə şərtlənir. XX əsr psixologiyası təfəkkür konsepsiyası ilə seçilib. Müasir psixologiya və təhsil sistemi bu yolla təfəkkürdən sözün əsl mənasında intellektin tərbiyəsinə doğru gedir.

İki əsrin qovşağında isə müasir psixologiyanın və təhsilin dalğalarında yeni və əzəmətli səhifələr açıqlanmağa başlayıb. Bu füsunkar təxəyyül səhifəsidir. Bu kökdə təhsil təcrübəsində psixodiaqnostik ölçülərlə təfəkkürlə bahəm təxəyyül səhifələri bərqərar olmağa başladı. Təfəkkür və təxəyyül bir-birilə faktik olaraq qarşılıqlı əlaqədir. Kreativ konsepsiya axarında təxəyyul, bir tərəfdən, yaradıcılıq prosesi kimi öyrənilir, digər tərəfdən bu konsepsiyanın meyarları ilə təfəkkür proseslərinin, ilk növbədə, yaradıcı təfəkkürün öyrənilməsi sahəsində yeni istiqamətlər açılır.

XX əsrin psixopedaqoji tarixi B.B.Davidov, L.M.Zankov və başqalarının tədqiqatları ilə zənginləşdi (2,163). Bu tədqiqatların başlıca konseptual modeli mənimsəmə paradoksları ilə bağlı olsa da, onlardan inkişaf ab-havası gəlirdi.

İnkişaf nəzəriyyəsinin çoxcəhətli tarixi var. XX əsrdə pedaqoji psixologiyada bu nəzəriyyənin formalaşmasında Jan Piajenin, L.S.Vıqotskinin axtarışları mühüm rol oynamış və inkişafın yeni modeli – intellektual inkişaf modeli yaranmışdı. Bu müstəvidə dünya pedaqoji fikrində mənimsəmə episeptri intellektual inkişaf episentri ilə əvəz olundu.

Müasir təhsil nəzəriyyəsinin inkişaf konsepsiyası çox sahəlidir. Təfəkkür inkişafın əzəmətli zirvələrindən biri sayılır. Bu önəmli zirvə kreativlik konsepsiyası baxımından araşdırılanda iki konseptual model – intellekt və təxəyyül modeli prioritet konsepsiya kimi açıqlanır. Bu fundamental konsepsiyalar kökündə inkişaf nəzəriyyəsində önəmli triada – koqnitiv – kreativ triada formalaşır: I.Təfəkkürün, II. İntellektin, III.Təxəyyülün formalaşması və inkişafı.

Müasir təhsil konsepsiyası təfəkkürün inkişafını şagirdlərin əqli inkişafının başlıca məqsədi sayır. Görəsən, təfəkkür hansı məziyyətlərlə seçilir? Hafizədən və ya təxəyyüldən hansı xüsusiyyətlərlə fərqlənir? Məktəb təcrübəsində şagirdlərdə təfəkkürü inkişaf etdirmək üçün nəyə, nə üçün və necə diqqət yetirilməlidir?

60-cı illərdə L.V.Zankov və V.V.Davıdovun tədqiqatlarında nəzəri təfəkkür konseptual ölçülərlə işıqlandırıldı (2,163-164).

*Empirik və nəzəri təfəkkür hansı məziyyətlərlə bir-birlərindən seçilirlər?* İlk növbədə qeyd etmək lazımdır ki, empirik təfəkkür sadəcə olaraq hadisəni, nəzəri təfəkkür isə mahiyyəti əks etdirir. Empirik təfəkkür səviyyəsində insan dərk olunan obyektlərin hissi surətdə qavranılan xassələrini araşdırır, başqa sözlə, bilavasitə duyğu, qavrayış və təsəvvürlərə arxalanır, müvafiq obyektlərin

zahiri əlaqə və münasibətlərini əks etdirir. Bu yolla əldə edilən biliklər vasitəsiz xarakter daşıyır və ancaq özlərinin formal əlamətlərinə görə ümumi biliklər sayılır.

Nəzəri təfəkkür səviyyəsində isə insan dərk olunan obyektləri onların daxili əlaqə və münasibətləri axarında əks etdirir.

-Nəzəri təfəkkür dərk olunan obyektlər haqqında anlayışların ümumi, xüsusi və təkcənin vəhdəti kimi formalaşmasına əsaslanır və mahiyyəti açıqlayır: müvafiq obyektlərin qanunauyğun əlaqə və münasibətlərinin, mühüm olan xasiyyətlərinin ümumiləşmiş inikası kimi meydana çıxır. Özünü mahiyyət səbəb, struktur-funksional və genetik münasibətlərin sistemi kimi göstərir. Bu zaman insan dərk olunan obyektlərin daxili əlaqə və münasibətlərini təhlil (analiz) və tərkib (sintez) yolu ilə tədqiq edir və onların «çoxcəhətli xüsusiyyətlərini vəhdətdə» əks etdirir.

Empirik təfəkkürdən fərqli olaraq nəzəri təfəkkürdə anlayışların əmələ gəlmə üsulları başqadır. Onlar zahiri əlamətlərinə görə, oxşar əşyaların müqayisəsi yolu ilə deyil, öyrənilən sistem üçün səciyyəvi olan mühüm əlaqələrin, müəyyən bir sistemin daxilində isə bu əlaqələrin funksiyalarının təhlili və tərkibi yolu ilə yaradılır. Bu isə refleksiyanı - təhlil və tərkibin vasitələrini və onların nəticələrini tənqidi səpgidə qiymətləndirməyi nəzərdə tutur. Nəzəri təfəkkür səviyyəsində insan artıq dünyanı sözün əsl mənasında elmi ölçülərlə izah edir.

Müəllimlər şagirdlərdə nəzəri təfəkkürü formalaşdıra bilərmi?

Təəssüf ki, onlar bu mühüm vəzifəni çox vaxt həll edə bilmirlər, şagirdlərdə nəzəri təfəkkürü deyil, məhz empirik təfəkkürü formalaşdırırlar. Məktəb təcrübəsində özünü göstərən bu köklü nöqsan, görəsən, nə ilə bağlıdır? İlk növbədə ənənəvi didaktik sistemin nəzəri-metodoloji əsasları ilə. Bu məsələni açıqlayaq.

Gerçəkliyin fikri inikası mürəkkəb prosesdir. Konkretdən mücərrədə yüksəlmə və mücərrəddən konkretə yüksəlmə - bu prosesin xüsusi üsulları və ya yollarıdır. Psixoloji tədqiqatlar göstərir ki, təlim prosesi birinci yolla qurulanda şagirdlərdə empirik təfəkkür, ikinci yolla qurulandan nəzəri təfəkkür formalaşır. Psixoloji ədəbiyyatda mücərrəddən konkretə yüksəlmə nəzəri təfəkkürün «mühüm ümumi-elmi metodu» kimi dəyərləndirilir (3, 49-53).

Təfəkkür çoxsahəli əqli prosesdir: ən ümumi şəkildə informasiyanın üç proseslə - 1) işlənilməsi; 2) dərk olunması; 3) verilməsi prosesi ilə bağlıdır. Bu prosesdə insan müxtəlif tapşırıqlarla rastlaşır və onları həll edir. Tapşırıqların həlli prosesi müxtəliıf paradiqmalarla şərtlənir.

Təfəkkürün inkişafının ana xəttini fikri əməliyyatların formalaşması təşkil edir. 50-ci illərin əvvəllərində fikri əməliyyatların öyrənilməsi sahəsində mahiyyətcə yeni mərhələ başlamışdı. 1956-cı ildə B.Blum idrak fəaliyyəti sahəsində təlim məqsədləri taksonomiyasını sistemli ölçülərlə işlədi (4,14-26). Öz dövründə psixoloji fikrin mühüm nailiyyəti sayılan, pedaqoji fikrin inkişa-

fında önəmli rol oynayan bu taksonomiyada fikri proseslər və ya əməliyyatlar xüsusi yer tuturdu.

B.Blumun taksonomiyasında, xüsusilə iki fikri proses və ya əməliyyat - analiz və sintez ayırd edilmişdi. Bu təsnifatın, şübhəsiz ki, öz məntiqi əsası vardı. Təhlil və tərkib əsas fikri proseslərdir, müqayisə, ümumiləşdirmə və s. kimi proseslər məhz onlardan törəmədir.

B.Blum analizi tamı hissələrə ayırmaq bacarığı kimi səciyyələndirir, hissələrin çalarlarını və onların arasındakı münasibətlərin müəyyən olunmasını onun əsas xüsusiyyəti kimi, sintezi yeni struktur almaq üçün hissələrin (ünsürlərin) məlumatları əsasında tamın yaradılması kimi səciyyələndirirdi (4,19). B.Blumun taksonomiyasında bir cəhət diqqəti, xüsusilə cəlb edir: sintez nəinki təfəkkür, həm də təxəyyül səviyyəsində nəzərdən keçirilir.

Təfəkkür sualdan başlayır – klassik psixologiya belə hesab edirdi. Nəzəri eksperimental tədqiqatlar da bu müddəanı dəstəkləyir. Dialoq prosesində təfəkkür subyekti iki təfəkkür subyektinə, iki fikirləşən «Mən»ə çevrilir.

Sualın psixoloji və pedaqoji effektləri hələ qədim zamanlarda Sokrat məktəbində açıqlanıb. Ənənəvi didaktik sistem uzun müddət Sokrat məktəbinin uğurlarından bu və ya digər dərəcədə bəhrələnib. Həmin didaktik sistemin bu sahədə də özünəməxsus ənənələri olub. Ənənəvi məktəb hafizə məktəbi idi və bu məktəbdə müəllimin şagirdlərə verdiyi suallar mahiyyətcə hafizəyə əsaslanırdı. Bu sualları təhlil edəndə aydın olur ki, onlar hafizəni aktivləşdirirdi. Müasir məktəb üçün isə sual problemi, ilk növbədə, məhz təfəkkür problemidir və ancaq bu kontekstdə xüsusi əhəmiyyətə malikdir.

*Sinif məkanında sual meredianında təfəkkürü necə alovlandırmaq olar*? Sual problemi üç tərəfli problemdir. Müəllim şagirdə sual verir – bu onun ənənəvi tərəfidir.

İkinci tərəf: şagird müəllimə sual verir. Şagird sualları da bir ənənə olaraq dərsin infrastrukturunda həmişə səslənib.

Üçüncü tərəf: şagird(lər) şagirdə sual verir. Şagirdin şagirdə sual verməsi əslində yeni bir hadisədir. Şagird suallarını təhlil edəndə bir cəhət aydın nəzərə çarpır: onlar çox vaxt «… neçənci ildə olub?», «kim ixtira edib?» tipli primitiv suallar verirlər. Bunlar hafizə yönümlü suallardır. Şagirdlər özlərinin bu sualları ilə əslində müəllimlərini təkrar edirlər.

*Şagirdlərə «düşünülmüş suallar» verməyi necə öyrətmək olar?* Bu suallardan istifadə etmək texnikasını mənimsəmək yolu ilə.

D.Xalperin sinif şəraitində sualların evristik əhəmiyyətini tələbələrlə aparılmış tədqiqatların nəticələri axarında araşdırır. Bu tədqiqatlar göstərir ki, əgər tələbələr suallar verməyi və onları cavablandırmağı öyrənirlərsə, materialın anlaşılması və yadda saxlanılması yaxşılaşır. Bundan başqa, tələbələr həmin suallardan tanış olmayan şəraitdə də istifadə etməyə başlayırlar (2,232).

Təfəkkürün gücü dialoqdadır. Sokrat bu həqiqəti müdrikliklə kəşf etmişdi. O əllərini qoynuna qoyub mənalı-mənalı suallar verirdi. Bu məqamda, dialoq şəraitində «fikirlər doğulduqca» onun gözləri gülürdü.

Müasir təhsil konsepsiyasında dialoq artıq başlıca üsullardan biri kimi dəyərləndirilir. XX əsrin axırlarında dialoqda yeni önəmli lay – şagird - şagird dialoqu kəşf olundu, nəinki müəllim-şagird, həm də şagird-müəllim və şagird-şagird dialoqunun qeyri-adi psixoloji effektləri açıqlandı.

Ənənəvi dərsin infrastrukturunda dialoqu köklü sosial-psixoloji fenomen kimi gerçəkləşdirmək əslində mümkün deyil. Müasir məktəbə yeni dialoq texnologiyası, həm də sinif məkanında bilavasitə iki səsli deyil, çox səsli dialoq texnologiyası lazımdır. Bu texnologiya, şübhəsiz, didaktik meyarlara əsaslanmalıdır. Lakin bu meyarlar kökündə şagirdlərə dialoji ölçülərlə fikirləşməyin, mühakimə yürütməyin sirlərini açmağı nəzərdə tutmalıdır.

Ənənəvi məktəb diskussiyalardan sinifdənkənar tədbirlərdə, bədii əsərlərin müzakirəsində bu və ya digər formada istifadə edirdi. 70-80-ci illərdə qabaqcıl müəllimlər diskussiyadan bilavasitə dərs prosesində istifadə etməyə başladılar.

Diskussiya mühakimə meydanıdır. Onun linqvistik və psixoloji vahidi-dialoqdur, şərh repertuarı dialoqa söykənir. Bu nöqteyi-nəzərdən diskussiyanı tədris dialoqunun özünəməxsus forması kimi araşdırmaq lazımdır.

Diskussiyalar sinif məkanında məhz təfəkkürün inkişafı üçün səmərəli şərait yaradır. Şagirdlər sinif məkanında, bir-birilə qarşılıqlı təsir şəraitində fikirləşirlər, mühakimə yürüdürlər, təfəkkür mədəniyyətini mənimsəyirlər. Əqli keyfiyyətlərin, hər şeydən öncə, təfəkkürün tənqidilik və müstəqillik keyfiyyətlərinin inkişafı üçün sinif məkanında yeni üfüqlər açılır.

Nəzəri təfəkkür və təxəyyül inkişaf konsepsiyasının başlıca psixoloji sütünları hesab olunur. Onların psixoloji parametrləri psixopedaqoji ölçülərlə modelləşdiriləndə isə məktəbin və sinfin psixoloji həyatında ənənəvi məktəbin önəmli problemlərindən biri həll olunur.

**ƏDƏBİYYAT**

1. Каптерев И.В. Педагогическая психология. Изд. 3-е, перераб. и доп. СПб.: Кн. склад "Земля", 1914, 489 с.
2. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Əsrin meqameylləri: Psixopedaqoji problemlər. 3 cilddə, I cild, Bakı: ADPU, 2008, 479 s.
3. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998, 368 s.
4.Əlizadə Ə.Ə, Sultanova İ.H. Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu. Bakı, 2008, 173 s.

## РАЗВИТИЕ, КАК КООРДИНАТА СОВРЕМЕННОГО УРОКА

**Х.А.АЛИЗАДЕ**

**РЕЗЮМЕ**

В данной статье академический урок рассматривается с точки зрения современных образовательных технологий. Автор приходит к выводу о том, что современный урок должен служить делу формирования и развития мышления и воображения учащихся на уровне становления личности. Автор при рассмотрении проблемы исходит из таксономии образовательных целей Б.Блюма. Таксономия образовательных целей построена на основе процессов анализа и синтеза. Автор считает целесообразным, в целях активизации процессов анализа и синтеза, построение урока на основе диалога и дискуссии, в целях дальнейшего развития в данном контексте мышления и воображения учащихся.

**Ключевые слова:** педагогическое мышление, мышление, воображение, анализ, синтез, диалог, дискуссия.

## DEVELOPMENT AS A COORDINATOR OF THE MODERN LESSON

**H.A.ALIZADE**

**SUMMARY**

The article studies the academic lesson from the context of modern educational technologies. The author comes to the conclusion that the modern school should serve the formation and development of thinking and imagination. The author refers to the taxonomy of B. Bloom's learning objectives. The taxonomy of training objectives is established on the processes of analysis and synthesis. The author considers it purposeful to organize lessons on dialogues and discussions in order to activate the processes of analysis and synthesis.

**Key words:** pedagogical thinking, thinking, imagination, analysis, synthesis, dialogue, discussion.

# MÜNDƏRİCAT

## HÜQUQ

**Əliyev M.N.**
Sosial xidmət və dövlətin sosial funksiyasının qarşılıqlı əlaqəsinin nəzəri və praktiki aspektləri....5
**Xəlilov Q.R.**
Yerli rəy sorğusu (referendum)....16
**Quliyeva Q.Ş.**
Cinayət prosesində zərər çəkmiş şəxsin prosessual funksiyası....22
**Qənbərov D.M.**
Birləşmək hüququ kontekstində insan və vətəndaş hüquqlarının sərhədləri....31
**Əzimov Z.N.**
Azərbaycan Respublikası cinayət prosesinin forması....39
**Səlimov K.N., Çiklauri-Lammiç E., Məlikova G.D.**
Avropa Birliyi və ABŞ-da polis xidmətinin təcrübəsində psixi anomaliyası olan şəxslərin tutulmasi prosesində dəyən ziyanın minimumlaşdırılması problemləri....56

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**Quliyeva G.M.**
Müasir inteqrasiya prosesləri və Azərbaycanın bu prosesdə iştirakı....66

## İQTİSADİYYAT

**Məmmədov M.A., Əliyev R.Y.**
Mənzil sferasının inkişafının stimullaşdırılması aləti kimi mənzil siyasətinin reallaşdırılması mexanizmi....73
**Mehdi F.Z.**
Neft sənayesində müştərək müəssisələrin yaradılması və təhlili....83
**Aslanov H.H.**
Milli iqtisadiyyat və onun inkişafında XİF-in rolu....91

## FƏLSƏFƏ

**Allahverdiyeva F.M.**
Müasir dövrdə elmi və dini dünyagörüşünün formalaşmasının əhəmiyyəti....100

**PEDAQOGİKA**

**Mahmudova R.M.**
Tələbə müstəqil fəaliyyətinin təşkili təhsil paradiqmasının tələbi kimi................. 108
**Əlizadə H.Ə.**
İnkişaf müasir dərsin koordinatı kimi .................................................................... 116

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***№3 Серия социально-политический наук 2017***

# СОДЕРЖАНИЕ

## ПРАВО

**Алиев М.Н.**
Теоретические аспекты взаимоотношения социального обслуживания и социальной функции государства........................................ 5
**Халилов Г.Р.**
Местный опрос (местный референдум).......................................................... 16
**Кулиева Г.Ш.**
Процессуальная функция потерпевшего в уголовном процессе.................... 22
**Ганбаров Д.М.**
Граница права человека и гражданина в контексте объединение.................. 31
**Азимов З.Н.**
Форма уголовного процесса Азербайджанской Республики.......................... 39
**Салимов К.Н., Джиклаури – Ламмич Э., Меликова Г.Д.**
Проблемы минимизации, причиняемого вреда в отношении лиц с психическими аномалиями в процессе задержания, ареста в практике полицейских служб Европейского Союза и США .......................... 56

## МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЯ

**Гулиева Г.М.**
Современные процессы интеграции и участие Азербайджана в этом процессе ............................................................................................ 66

## ЭКОНОМИКА

**Мамедов М.А., Алиев Р.Ю.**
Механизм реализации жилищной политики как инструмента стимулирования развития жилищной сферы .................................................. 73
**Мехди Ф.З.**
Создание и анализ совместных предприятий в нефтяной индустрии ............ 83
**Асланов Г.Г.**
Национальная экономика и роль внешнеэкономических связей в ее развитии ....................................................................................................... 91

## ФИЛОСОФИЯ

**Аллахвердиева Ф.М.**
Значение формирования научного и религиозного мировоззрения на современном этапе........................................................................................ 100

**ПЕДАГОГИКА**

**Махмудова Р.М.**
Требования к образовательной парадигме самостоятельной работы студентов .......... 108
**Ализаде Х.А.**
Развитие, как координата современного урока .......... 116

## CONTENTS

### LAW

**Aliyev M.N.**
Theoretical aspects of the relationship between social service and social function of the state.................................................................................... 5
**Khalilov G.R.**
Local survey (local referendum)........................................................................... 16
**Guliyeva G.Sh.**
Procedural function of victims in criminal procedure........................................... 22
**Ganbarov D.M.**
Limits of human and citizen rights in the context of the right to unite.................. 31
**Azimov Z.N.**
The form of the criminal procedure of the Republic of Azerbaijan....................... 39
**Salimov K.N., Ciklauri-Lammich E., Malikova G.D.**
Problems of minimizing the harm caused to people with mental abnormalities in the process of detention, arrest in the practice of the police services of the European Union and the United States .......................................... 56

### INTERNATIONAL RELATIONSHIPS

**Guliyeva G.M.**
Modern processes of integration and Azerbaijan's participation
in this process........................................................................................................ 66

### ECONOMICS

**Mammadov M.A., Aliyev R.Y.**
Mechanism for the implementation of the housing policy as
a tool to stimulate the development of the housing sector..................................... 73
**Mehdi F.Z.**
Organization and analysis of joint ventures in oil industry................................... 83
**Aslanov H.H.**
National economy and the role of foreign economic relations in its development.......................................................................................................... 91

### PHILOSOPHY

**Allahverdiyeva F.M.**
Importance of formation of scientific and religious outlook
in the modern age .................................................................................................. 100

## PEDAGOGY

**Mahmudova R.M.**
Organization of students’ independent activity
as a reguirement of the educational paradigm ....................................................... 108
**Alizade H.A.**
Development as a coordinator of the modern lesson ............................................ 116

## MÜƏLLİFLƏRİN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədrinin 20 dekabr 2010-cu il tarixli 48-01-947/16 saylı məktubunu əsas tutaraq «Bakı Universitetinin Xəbərləri» jurnalının redaksiya heyəti bildirir ki, nəşr etdirmək üçün təqdim edilən məqalələr aşağıdakı qaydalar əsasında tərtib edilməlidir:

1. Təqdim olunan məqalənin mətni – A4 formatında, sətirlərarası – 1 intervalla, yuxarıdan – 5 sm, aşağıdan – 3,75 sm, soldan – 4 sm, sağdan – 3,5 sm, Times New Roman – 12 (Azərbaycan dilində – latın əlifbası, rus dilində – kiril əlifbası, ingilis dilində – ingilis əlifbası ilə) şrifti ilə yığılmalıdır.

2. Hər bir məqalənin müəllifinin (müəlliflərinin) adı və soyadı tam şəkildə yazılmalı, elektron poçt ünvanı, çalışdığı müəssisənin (təşkilatın) adı göstərilməlidir.

3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər verilməlidir (açar sözlər məqalənin və xülasələrin yazıldığı dildə olmalıdır).

Məqalələr və xülasələr (üç dildə) kompyuterdə çap olunmuş şəkildə disketlə (disklə) birlikdə təqdim olunur, disketlər geri qaytarılmır!

Əlyazmalar kvartalın əvvəlindən bir ay keçməmiş verilməlidir.

4. Hər bir məqalənin sonunda verilmiş ədəbiyyat siyahısı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Dissertasiyaların tərtibi qaydaları» barədə qüvvədə olan Təlimatının «İstifadə edilmiş ədəbiyyat» bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir.

**Kitabların (monoqrafiyaların, dərsliklərin və s.) biblioqrafik təsviri kitabın adı ilə tərtib edilir**. Məs.: Qeybullayev Q.Ə. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 284 s.

**Müəllifi göstərilməyən və ya dörddən çox müəllifi olan kitablar (kollektiv monoqrafiyalar və ya dərsliklər) kitabın adı ilə verilir**. Məs.: Kriminalistika: Ali məktəblər üçün dərslik / K.Q.Sarıcalinskayanın redaktəsi ilə. Bakı: Hüquq ədəbiyyatı, 1999, 715 s.

**Çoxcildli nəşrə aşağıdakı kimi istinad edilir.** Məs.: Azərbaycan tarixi: 7 clddə, IV c., Bakı: Elm, 2000, 456 s.

**Məqalələrin təsviri aşağıdakı şəkildə olmalıdır**. Məs.: Vəlixanlı N.M. X əsrin ikinci yarısı – XI əsrdə Azərbaycan feodal dövlətlərinin qarşılıqlı münasibətləri və bir daha «Naxçıvanşahlıq» haqqında // AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə, hüquq seriyası, 2001, № 3, s. 120-129.

**Məqalələr toplusundakı və konfrans materiallarındakı mənbələr belə göstərilir**. Məs.: Məmmədova G.H. Azərbaycan memarlığının inkişafında Heydər Əliyevin rolu / Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyevin 80 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransının materialları. Bakı: Nurlan, 2003, s.3-10.

**Dissertasiyaya istinad belə olmalıdır.** Məs.: Süleymanov S.Y. Xlorofill-zülal kompleksləri, xlorplastların tilakoid membranında onların struktur-molekulyar təşkili və formalaşmasının tənzimlənməsi: Biol. elm. dok. … dis. Bakı, 2003, 222 s.

**Dissertasiyanın avtoreferatına da eyni qaydalarla istinad edilir, yalnız «avtoreferat» sözü əlavə olunur.**

**Qəzet materiallarına istinad belə olmalıdır**. Məs.: Məmmədov M.A. Faciə janrının tədqiqi. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1966, 14 may.

**Arxiv materiallarına aşağıdakı kimi istinad edilir**. Məs.: Azərbaycan Respublikası MDTA: f.44, siy.2, iş 26, vv.3-5.

İstifadə edilmiş ədəbiyyat siyahısında son 5-10 ilin ədəbiyyatına üstünlük verilməlidir.

***PS: Rəhbərliyin bizə verdiyi göstərişə əsasən növbəti saylarda bu tələblərin hər hansı birinə cavab verməyən məqalələr nəşriyyat tərəfindən qəbul edilməyəcək.***

Redaktorları: *Məryəm Qədimova*
*Yafəs Quliyev*
*Nərgiz Əliyeva*

Kompüter tərtibçisi: *Azadə İmanova*

***Yığılmağa verilmişdir: 08.11.2017. Çapa imzalanmışdır: 25.01.2018.***
***Formatı: 70x100 1/16. Həcmi 8,25 ç.v. Sifariş 35. Sayı 120.***

***«Bakı Universiteti Nəşriyyatı», Bakı ş., AZ 1148, Z.Xəlilov küçəsi, 23.***
***Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır.***
***Şəhadətnamə B310.30.04.1999.***
***bun@box.az***